Xalqın qəzeti!

# Xalq qəzeti

№ 215 (30909) 7 oktyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Türk birliyinin qardaşlıq körpüsüdür

*Prezident İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədrini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısının Binəli Yıldırımla görüşləri, həmçinin onun ölkəmizə səfərləri məmnunluqla xatırlandı.

Qonaq Türk Dövlətləri Təşkilatının fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı ki, Təşkilatın Ağsaqqallar Şurası bundan sonra da türk dövlətləri arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfəsini verməyə davam edəcək.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, ölkəmizdə təşkil edilmiş digər beynəlxalq tədbirlər kimi bu sammitin də yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə daha da genişlənməsi qeyd edildi.

## TDT Qəbələ Zirvəsi: Regional sülh və təhlükəsizlik

**Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə toplantısının regionun siyasi xəritəsində yeni balansların axtarışı, türk dövlətlərinin həmrəyliyi və qlobal güc qarşıdurmalarında mövqelərinin formalaşması baxımından xüsusi önəmi var. Əsas mövzu – "Regional Sülh və Təhlükəsizlik" – həm aktual, həm də strateji xarakter daşıyır. Sual yaranır: bu gün region üçün sülh və təhlükəsizlik nə deməkdir?**



Cənubi Qafqazda müharibəsonrası nizam, Mərkəzi Asiyada artan rəqabət, Yaxın Şərqdə dərinləşən qeyri-sabitlik fonunda türk dövlətlərinin ortaq platforma ətrafında toplanması hansı nəticələr vəd edir? Sualın cavabı təkcə hərbi və ya diplomatik təhlükəsizlikdə deyil, həm də iqtisadi, nəqliyyat və enerji əməkdaşlığının yaratdığı qarşılıqlı asılılıqda gizlənir. TDT bu şərtlərdə hansı rolu oynaya bilər? Regional sülhün təminatçısına çevrilmək iddiası realdırmı, yoxsa bu, daha çox siyasi ritorikanın nəticəsidir? Analitik yanaşma göstərir ki, təşkilatın bu gün əldə etdiyi institusional baza, ortaq maraqlar və ortaq risklər ona yeni imkanlar açır. Amma, eyni zamanda, təşkilatın qarşısında ciddi suallar dayanır: müxtəlif maraqlara malik üzv dövlətlər vahid təhlükəsizlik konsepsiyası yarada bilərmi? Xarici güclərin təsiri ilə üzləşən regionda TDT-nin manevr imkanları harada başlayır və harada bitir?

*(ardı 4-cü səhifədə)*

## Avropa qanunları sərtləşdirir



Səhifə ⇨ 5

## Ermənistan və "İsa peyğəmbərin ən hündür heykəli"

Əsas məsələ isə xristianlıq dəyərlərinə sadiqlikdir



**Bakı-İrəvan sülhü ilə bağlı Ermənistan parlamentinin ötən həftə yaydığı bəyanatın mühüm məqamlarından biri də keçmiş Qarabağ münaqişəsini xarakterizə edən rəmzlərdən uzaq durulmasına dair çağırışdır. Erməni ictimaiyyətinin müxtəlif təbəqələrinə ünvanlanmış bu çağırış, kifayət qədər, ciddi və əhəmiyyətlidir. Çünki zaman-zaman hay cəmiyyəti özünü aldatmaqla məşğul olub. Bunu baş nazir Nikol Paşinyanın son zamanlar daha çox dilə gətirdiyi fikirlərdən də duymaq mümkündür.**

*(ardı 4-cü səhifədə)*

## Türk dünyasının nüfuzlu lideri



Səhifə ⇨ 7

## Gürcüstanda yerli seçkilərin qalibi hakim partiya oldu



Səhifə ⇨ 6

## Ağ Evin Qara dəniz – Xəzər regionuna strateji marağı



Səhifə ⇨ 6

## ABŞ-sız və NATO-suz Avropa axtarışı



Səhifə ⇨ 7

## Bakı Şərqin memarlıq ulduzu olacaq



Səhifə ⇨ 9

## Qlobal dünyada güc nizamı üstələyir



Səhifə ⇨ 15

# Prezident İlham Əliyev TDT-nin Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısı ilə qonağın görüşləri məmnunluqla xatırlandı.

Baş katib Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür etdi.

Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması, üzv və müşahidəçi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi işinə Azərbaycanın verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunduğu vurğulanaraq, tədbir çərçivəsində təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirə ediləcəyi bildirildi.

Dövlətimizin başçısı bu Zirvə Görüşünün Türk dünyasında dostluq, həmrəylik və tərəfdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidentinin Macarıstanın Baş naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.**

Macarıstanın Baş naziri Azərbaycana əvvəlki səfərlərinin, həmçinin Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirakının önəminə toxundu.

Söhbət zamanı bu ilin mayında Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Görüşü məmnunluqla xatırlandı.

Azərbaycanla Macarıstan arasında əlaqələrin mövcud vəziyyəti yüksək qiymətləndirildi. Bu xüsusda enerji, investisiyalar, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Macar şirkətlərinin Cəbrayıl rayonunun Soltanlı kəndinin tikintisində iştirakı vurğulandı.

# QMİ sədrinin ABŞ-a səfəri



**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin icması və Stirlinq Fondunun dəvəti ilə Amerika Birləşmiş Ştatlarının Yuta ştatında səfərdədir.**

Səfər çərçivəsində Allahşükür Paşazadə Solt-Leyk-Siti şəhərində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Ümumdünya Qurultayında iştirak edib. O, konfrans iştirakçılarına müraciətində ABŞ-ın Yuta ştatının ictimaiyyətinə və din xadimlərinə Azərbaycanın multikultural dəyərlər ölkəsi kimi salamlarını çatdırıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerantlıq və dinlərarası həmrəyliyin dünyada nümunəvi modelə çevrildiyini vurğulayıb.

QMİ sədri ABŞ və Azərbaycanın dini konfessiyaları arasında dostluq münasibətlərinin inkişafını məmnunluqla vurğulayıb, həmçinin Azərbaycan xalqının ABŞ-ın ölkəmizin ərazi bütövlüyü və regionda sülhün bərqərar olması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndirib.

Allahşükür Paşazadə Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfə verən "Bakı Prosesi", eləcə də 2010-cu və 2019-cu illərdə keçirilmiş Dünya dini liderlərinin sammitləri, 2024-cü ildə COP29 çərçivəsində təşkil olunan Dini liderlərin zirvə görüşü barədə məlumat verib.

O qeyd edib: "Bu ənənənin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyev tərəfindən isə uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva multikulturalizmin dünya miqyasında təbliği sahəsində həyata keçirdiyi nəcib fəaliyyətlə Azərbaycanın sivilizasiyalararası dialoq və əməkdaşlıq istiqamətində beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsinə mühüm töhfə verir".

Səfər çərçivəsində QMİ sədri Yuta Ştatı Senatının sədri Adam Stüart ilə də görüşüb. Görüşdə Azərbaycan haqqında xoş sözlər səsləndirilib, ölkəmizin multikultural həyat tərzi yüksək qiymətləndirilib.

*XQ*

# Azərbaycan və Şimali Kipr prezidentlərinin dialoqu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşüb.**

Ersin Tatar Prezident İlham Əliyevlə ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində görüşlərini, həmçinin Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Toplantısında iştirakını məmnunluqla xatırladı, Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev ölkəmiz tərəfindən Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyin bundan sonra da davam etdiriləcəyini dedi.

Qonaq Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə əldə edilmiş nəticələrlə bağlı təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi qeyd edildi.

Qəbələdə keçirilən Zirvə Görüşünün TDT çərçivəsində ölkələrarası tərəfdaşlığın daha da genişlənməsində rolu vurğulandı.

Görüşdə bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

# Türk dövlətləri bir yerdə daha güclüdür

**Bu gün baş verən böyük geostrateji dəyişikliklər bütün yerlərə təsir etdiyi kimi, Türk dünyasına da təsir edir. Lakin Türk Dövlətləri Təşkilatının (TDT) artan institusionallaşması, daha koordinasiyalı fəaliyyəti bizi bu böhranlara qarşı daha dayanıqlı edir. Bu, hamımızın birlikdə inkişaf etdirdiyimiz korporativ münasibətdir. Digər tərəfdən, Türk dünyası dövlətlərinin iqtisadiyyatını, infrastrukturunu, texnologiyasını, müdafiə potensialını, əsas xidmətlərini inkişaf etdirməsi və sənaye infrastrukturunu daha da yaxşılaşdırması, əslində, hər bir dövləti daha da gücləndirir.**



Bu fikirləri Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfər edən Türkiyənin xarici işlər naziri Hakan Fidan media nümayəndələrinə müsahibəsində deyib.

Nazir vurğulayıb ki, hər güclü dövlət birlikləri inkişaf etdikdə daha güclü təşkilat yaranır. "Ona görə də ümid edirəm ki, biz gələcəkdə dünya böhranlarına daha dayanıqlı olan Türk dünyası ilə qarşılaşacağıq. Liderlərimiz bu məsələni sabah Qəbələdə müzakirə edəcəklər. TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün Azərbaycanın Qəbələ şəhərində keçirilməsi isə olduqca qürurvericidir. Çünki Türk dünyasının belə gözəl şəhərini liderlərə təqdim etmək və onları burada qonaq etmək çox xoşdur", - deyə Türkiyənin xarici işlər naziri vurğulayıb.

Türkiyənin xarici siyasətinin əsasını regionda sabitlik yaratmaq təşkil etməsinə də diqqət çəkən Hakan Fidan daha sonra deyib: "Sabitliyin yaradılması üçün bir neçə şərt var. Birincisi, müharibələri və münaqişələri mümkün qədər sakitləşdirmək və ya sona çatdırmaqdır. İkincisi, iqtisadi əməkdaşlığı bərabər əsasda inkişaf etdirməkdir. Bunların nəticəsində hər kəs firavanlıqdan faydalana biləcək. Üçüncüsü, münasibətləri və regional strukturları institusionallaşdırmaq və onları daha da canlandırmaqdır. Bu perspektivlə bölgəmizdə işləyirik. Bu isə hər zaman Türk dünyası ilə münasibətlərimizdə və birgə regional işimizdə müşahidə olunur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü xarici siyasət perspektivi və Türkiyənin göstərdiyi səylər məhz bu istiqamətə yönəlib. Beləliklə, biz regionda sabitliyi təmin etmək üçün Türkiyənin regional gücündən, nüfuzundan və liderliyindən istifadə edirik".

*XQ*

# TDT-nin regional sülh və təhlükəsizliyə töhfəsi artır

**"Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşünün regional sülh və təhlükəsizlik məsələlərinə həsr olunması, təşkilatın dinamik və dəyişən geosiyasi reallıqlara uyğun fəaliyyət göstərdiyini bir daha nümayiş etdirir".**



Bu fikirləri Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz səsləndirib. Ekspert qeyd edib ki, müasir dövrdə həm dövlətlər, həm də beynəlxalq təşkilatlar dinamik struktur daşıyır və dəyişən strateji, geosiyasi reallıqlara uyğun mövqe formalaşdırırlar.

Yücel Karauz dünyada baş verənlərə diqqət çəkərək deyib: "Qəbələdə keçirilən Zirvə Görüşünün regional sülh və təhlükəsizlik mövzusuna həsr olunması Türk Dövlətləri Təşkilatının zamanın tələblərinə uyğun şəkildə fəaliyyət göstərdiyini göstərir. Dünyada artan təhlükəsizlik riskləri və yeni təhdidlər fonunda TDT regional və qlobal miqyasda təhlükəsizlik məsələlərini diqqət mərkəzinə gətirir".

Ekspert xüsusi vurğulayıb ki, hazırda dünyanın güc mərkəzləri və potensial toqquşma bölgələri TDT məkanına yaxın coğrafiyalarda yerləşir. Bu isə Təşkilatın iqtisadi, enerji və strateji təhlükəsizlik məsələlərinə daha sistemli yanaşmasını zəruri edir. "Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040" vizyonu çərçivəsində sülh və təhlükəsizlik məsələlərini prioritet istiqamət kimi müəyyən etməsi son dərəcə önəmlidir. Bu, Təşkilatın yalnız iqtisadi əməkdaşlıqla deyil, həm də regional sabitliyin təmin edilməsi istiqamətində mühüm rola malik olduğunu göstərir".

TDT 16 illik fəaliyyət tarixinə baxmayaraq, onun tarixi kökləri və mənəvi dayaqları bundan daha dərin və qədimdir, deyən – Yücel Karauz əlavə edib ki, "təşkilatın əsas missiyası sülhün qorunmasıdır. Lakin bu istiqamətdə fəaliyyət yalnız hərbi və təhlükəsizlik məsələləri ilə məhdudlaşmır. Müdafiə sənayesi, süni intellekt, kibertəhlükəsizlik, sərhəd keçidləri, qeyri-qanuni miqrasiya, narkotik və digər cinayətkar fəaliyyətlərlə mübarizə kimi mövzular da gündəlikdədir".

Türkiyəli ekspert vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı zamanın ruhunu düzgün oxuyur və regional sabitliyin təminində mühüm rol oynayır. "Prezident, Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, bizim bir ailəmiz var – o da türk dövlətləri ailəsidir. Hər bir üzv bu ailənin dəyərini bilməli, birliyimizi, həmrəyliyimizi və əməkdaşlığımızı daha da möhkəmləndirməlidir".

*XQ*

# Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanda



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 289**

**Bakı şəhəri, 3 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" 2020-ci il 16 yanvar tarixli 11 nömrəli və "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 28 aprel tarixli 175 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"na aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. Şəxsin əlilliyinin müəyyən edilməsi və əlilliyin müəyyən olunmasından imtina edilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. Əmək pensiyalarının təyin edilməsi, təyin olunmasından imtina edilməsi, yenidən hesablanması, dayandırılması, bərpası və bir növdən başqa növə keçirilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur."

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 290**

**Bakı şəhəri, 3 oktyabr 2025-ci il**

**"Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 350 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 350 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 236 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 969 (Cild I); 2024, № 2, maddə 237) ilə təsdiq edilmiş "DOST" mərkəzlərinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.1-ci yarımbənddə "Nazirliyin aidiyyəti qurumları" sözləri "Nazirlik sisteminə daxil olan aidiyyəti qurumlar" sözləri ilə əvəz edilsin;

1.2. 4.6.14-1-ci yarımbənddə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə əvəz edilsin;

1.3. 5-ci hissənin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin;

1.4. 7.2-ci bəndə "tərtib" sözündən sonra "və təqdim" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 356 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.7-ci bəndin dördüncü cümləsinə "qərarlar" sözündən sonra "açıq səsvermə yolu ilə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.11.1-1-ci yarımbənd əlavə edilsin:

"4.11.1-1. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;";

2.3. 5-ci hissənin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); 2025, № 7, maddə 730; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 sentyabr tarixli 265 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 287 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 976 (Cild I) ilə təsdiq edilmiş "Dövlət reabilitasiya müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qırğızıstan Prezidenti Sadır Japarov Qəbələdə qarşılanıb




**Qırğız Respublikasının Prezidenti Sadır Japarov Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sadır Japarovu hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

# Macarıstanın Baş naziri ölkəmizdə



**Macarıstanın Baş naziri Viktor Orban Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş naziri Viktor Orbanı hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

# Özbəkistan Prezidenti Şavkat Mirziyoyev TDT zirvəsinə gəlib



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

# Şimali Kipr Prezidenti də TDT görüşündə iştirak edir



**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da ölkəmizə səfərə gəlib.**

Qəbələ Beynəlxalq Hava Limanında Şimali Kipr Prezidentini Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

# TDT Qəbələ Zirvəsi: Regional sülh və təhlükəsizlik

(əvvəli 1-ci səhifədə)

TDT hansı zərurətdən doğdu və bu gün hansı geosiyasi boşluğu doldurmağa çalışır? Sual təkcə tarixi kimlik axtarışı ilə bağlı deyil, qlobal güc balansında yeni oyunçuya çevrilmək iddiasının təhlilini tələb edir. SSRİ-nin süqutundan sonra yaranan geosiyasi boşluq türk dövlətlərini yeni tərəfdaş axtarışına məcbur etdi. Hər biri öz müstəqilliyini qorumaq və yeni müttəfiqlər qazanmaq dilemması ilə üz-üzə qaldı. Belə bir kontekstdə ortaq dil, mədəniyyət və tarixi bağlar əsaslı bir inteqrasiya xəttinə çevrildi. Amma sual budur: bu inteqrasiya qurumu yalnız mədəniyyət platforması-mı olmalıydı, yoxsa real siyasi və iqtisadi gücə çevrilə bilərdimi?

TDT-nin bugünkü fəaliyyətinə baxanda cavab daha aydın görünür. Artıq təşkilat sadəcə humanitar əməkdaşlıqla kifayətlənmir.



Onun gündəliyində enerji marşrutlarının şaxələndirilməsi, nəqliyyat dəhlizlərinin formalaşdırılması və təhlükəsizlik əməkdaşlığının dərinləşdirilməsi kimi strateji məsələlər dayanır. Lakin burada başqa bir analitik sual doğur: TDT-nin gücü öz üzvlərinin milli maraqlarından üstün ola bilərmi? Azərbaycan enerji logistikası ilə, Türkiyə NATO üzvlüyü ilə, Qazaxıstan isə Avrasiya İqtisadi İttifaqındakı mövqeyi ilə fərqli geosiyasi orbitlərdədir. Bütün bu müxtəliflik fonunda təşkilatın vahid strateji xətt müəyyənləşdirməsi nə qədər realdır?

Əslində məhz bu müxtəliflik TDT-ni daha çevik oyunçuya çevirə bilər. Çünki üzvlərin fərqli istiqamətlərdə qurduğu beynəlxalq əlaqələr ümumi gücün genişlənməsinə xidmət edə bilər. Amma burada kritik məsələ bir sualda cəmləşir: TDT bu müxtəlifliyi gücə çevirəcəkmi, yoxsa parçalanma riskinə sürüklənəcək? Bugünkü geosiyasi mənzərə fonunda əsas sual belədir: türk dövlətlərinin yerləşdiyi geniş coğrafiyada sülhü və təhlükəsizliyi təmin etmək nə dərəcədə mümkündür? Cənubi Qafqazda müharibəsonrası dönəm hələ tam sabitləşməyib. Azərbaycan suverenliyini bərpa edib, lakin yeni regional nizam hələ də formalaşma mərhələsindədir. Ermənistanın geosiyasi istiqamət axtarışları, Gürcüstanın Qərbə inteqrasiya arzuları regionun gələcəyini qeyri-müəyyən saxlayır. Belə şəraitdə TDT hansı rolu oynaya bilər? Real vasitəçi, yoxsa kənardan müşahidəçi? Məhz Azərbaycan üzərindən təşkilat bu bölgədə sabitlik mexanizmlərinin formalaşdırılmasına təkan verə bilər.

Mərkəzi Asiyada isə təhlükəsizlik çağırışları başqa xarakter daşıyır. Əfqanıstan amili, radikal qrupların yayılması, sərhəd problemləri və su resursları üzərində rəqabət bölgəni daim həssas vəziyyətdə saxlayır. Bəs TDT burada nə edə bilər? Hərbi blok rolunu oynamaq imkanları məhduddur, amma ortaq sərhəd nəzarəti, informasiya mübadiləsi və terrorizmə qarşı koordinasiya real töhfələr kimi görünür.

Yaxın Şərqdə isə vəziyyət daha mürəkkəbdir. Qlobal güclərin toqquşduğu bu məkanda türk dövlətlərinin birgə mövqeyi hansı effekti verə bilər? TDT-nin birbaşa təsir imkanları az görünür, amma regional enerji və nəqliyyat layihələri ilə bu coğrafiyada iqtisadi sabitlik yarada bilər. Bəs iqtisadi inteqrasiya siyasi sabitliyə çevrilə bilərmi? Tarixi təcrübə göstərir ki, qarşılıqlı asılılıq münaqişələrin riskini azaltsa da, tam aradan qaldırmır.

Ümumi mənzərə belədir: hər üç regionda təhlükəsizlik çağırışlarının məzmunu fərqli olsa da, onları birləşdirən məxrəc var — qeyri-müəyyənlik və xarici güclərin təsir oyunları. Bütün bu amillər TDT qarşısında strateji sual qoyur: təşkilat daha çox öz daxili potensialına güvənəcək, yoxsa yenə də böyük güclərin təsirinə uyğun hərəkət edəcək?

*

Regional sülh və təhlükəsizliyin təmininə TDT-nin hansı real töhfəni verə bilər?




Bu sual Zirvənin əsas məzmununu təşkil edir. Cavabı üç əsas istiqamətdə axtarmaq mümkündür: təhlükəsizlik əməkdaşlığı, enerji-nəqliyyat dəhlizləri və diplomatik vasitəçilik.

Türk dövlətləri terrorizm, sərhəd qaçaqmalçılığı və qeyri-qanuni miqrasiya kimi ortaq risklərlə üz-üzədir. Belə reallıq onları birgə koordinasiyaya məcbur edir. TDT hərbi-siyasi blok ola bilərmi? Mövcud şərtlər göstərir ki, təşkilat hələlik NATO tipli kollektiv müdafiə sistemindən uzaqdır. Amma məlumat mübadiləsi, sərhəd təhlükəsizliyinin gücləndirilməsi və birgə təlimlərin təşkili real addımlardır. Analitik baxış göstərir: hərbi alyansa çevrilmək əvəzinə, TDT təhlükəsizlik koordinasiya mərkəzi funksiyasını gücləndirsə, bu, daha praktik və təsirli nəticələr verə bilər.

Bəs enerji və nəqliyyat marşrutları sabitliyin əsas təminatçısı ola bilərmi? Cavab qismən müsbətdir. Azərbaycan və Türkmənistan qaz ehtiyatları, Qazaxıstanın neft potensialı, Türkiyənin tranzit imkanları vahid enerji xəritəsi yaradır. Bakı–Tbilisi–Ceyhan, TANAP, Orta Dəhliz kimi layihələr siyasi sabitlik mexanizmlərinə çevrilir. Çünki qarşılıqlı asılılıq münaqişə riskini azaldır. Amma kritik sual ortaya çıxır: xarici güclərin təsirini nəzərə alsaq, bu layihələr regional sabitliyi artıracaqmı, yoxsa yeni rəqabət ocaqları yaradacaq? Burada TDT-nin rolu balanslaşdırıcı vasitəçi olmaqdır.

TDT-nin ən çox diqqətçəkən potensialı yumşaq gücdədir. Mədəni inteqrasiya, təhsil proqramları, informasiya mübadiləsi və ortaq media platformaları üzv dövlətləri bir-birinə yaxınlaşdırır. Tarixi təcrübə göstərir ki, ortaq kimlik duyğusu siyasi əməkdaşlığa zəmin yaratsa da, dövlətlərin milli maraqları çox vaxt daha güclü təsir göstərir. Buna görə də TDT-nin yumşaq gücü diplomatik vasitəçiliklə tamamlanmalıdır. Əgər təşkilat regional münaqişələrdə neytral platforma ola bilsə, beynəlxalq legitimliyi də artacaq.

Beləliklə, TDT-nin töhfə potensialı genişdir, amma təşkilat bu imkanların nə qədərini praktik nəticəyə çevirəcək, təbii ki, bunu zaman göstərəcək. Ənənəvi problemlər — maraqların müxtəlifliyi, xarici güclərin təzyiqi və institusional zəifliklər — bu yolda ən böyük maneələrdir.

*

Niyə məhz Azərbaycan bu Zirvənin ev sahibi kimi ön plana çıxır? Sualın cavabı strateji səbəblərlə bağlıdır. Qarabağ müharibəsində əldə olunan qələbə Azərbaycanın regional siyasi xəritədə mövqeyini dəyişdi. Artıq Bakı sadəcə enerji və nəqliyyat layihələrinin mərkəzi deyil, həm də hərbi-siyasi reallıqları dəyişdirən aktor kimi qəbul olunur. Azərbaycanın ev sahibi kimi Zirvədə verəcəyi mesajlar təşkilatın gələcək kursuna birbaşa təsir edəcək. Çünki Bakı həm Cənubi Qafqazda sabitlik, həm də Mərkəzi Asiyaya açılan qapı rolunu oynayır. Bütün bunlar ölkəni TDT daxilində “strateji körpü” mövqeyinə gətirir. Maraqlıdır ki, Azərbaycan bu körpü rolunu nə dərəcədə tarazlı şəkildə oynaya biləcək? Bir tərəfdə Türkiyə ilə strateji müttəfiqlik, digər tərəfdə Rusiya və İranla həssas münasibətlər balans tələb edir.

Azərbaycanın təşəbbüskarlığı bu nöqtədə iki səviyyədə özünü göstərir: Regional səviyyədə Cənubi Qafqazda sülh prosesinə dəstək vermək, yeni kommunikasiya xətlərini təşviq etmək, təşkilati səviyyədə isə TDT-nin institusional güclənməsinə təkan vermək, təşkilatın beynəlxalq nüfuzunu artırmaq.

Azərbaycan öz milli maraqları ilə TDT-nin ümumi maraqları arasında balans qurmağa çalışır. Əgər bu balans düzgün qurulsa, Bakı həm təşkilat daxilində liderliyini möhkəmləndirə, həm də regional sabitlik üçün etibarlı tərəfdaşa çevrilə bilər. Sonda onu da qeyd edək ki, gələcəyə baxış TDT qarşısında həm imkanlar, həm də risklər açır. İnteqrasiyanın dərinliyi, xarici güclərin təsirinə qarşı müstəqil kursun qorunması və təşkilatın institusional inkişafı onun real gücünü müəyyən edəcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistan və “İsa peyğəmbərin ən hündür heykəli”

(əvvəli 1-ci səhifədə)

Nikol dəfələrlə keçmişin mənfi stereotiplərindən yaxa qurtulmasının vacibliyini özünəməxsus şəkildə əsaslandırıb. Amma Ermənistandakı revanşist və şovinist kəsim onu “topa tutub”. Məsələn, Paşinyan ən sonda Ararat kimi düşüncələrə yeridilmiş Ağrı dağının Ermənistan ərazisində olmadığını vurğulayıb və bildirib ki, ölkə məktəblərində təhsil alan şagirdlərin çoxu bunu bilmir. Niyə bilmir? Ona görə ki, Ağrı dağı Ermənistanın Türkiyəyə qarşı ərazi iddiasının simvoludur.

Bəli, Paşinyan dolayısıyla miflərdən uzaq durulması ideyasını təlqin etsə də, bir əsatiri bu baxımdan istisna saymaq olar. Söhbət Ermənistanın, guya, bizim eranın 301-ci ilində xristianlığı ilk qəbul edən məmləkət kimi göstərilməsindən gedir. Sən demə, həmin ildə erməni krallığı olubmuş və kral əvvəl dinə qarşı imiş, sonra görüb ki, xristianlıq yaxşı dindir.

Yaxşı din, özü də xristianlıq. Çox güman, təqdimatın primitivliyinin fərqinə vardınız. Nikol bu ilin fevralında ABŞ-da keçirilmiş beynəlxalq dini sammitdəki çıxışında nağıl zəngulələri vuraraq elə beləcə demişdi – yaxşı din. Görəsən, dinin pisi də olur? Sualımız ritorikdir, həm də ona görə ki, xristianlıq fundamental mahiyyətə malikdir. Toplantı iştirakçılarının isə baş nazirin danışdığı nağıla əməlli-başlı güldükləri şübhəsizdir.

Əsas məsələyə gəldikdə, onu deyək ki, N.Paşinyan Birləşmiş Ştatlara Ermənistanın “dini öncüllük” statusunu qabardaraq, Azərbaycanla sülh prosesində üstünlük qazanmaq, ABŞ Prezidenti Donald Trampın din təəssübkeşliyinə və ənənəvi dəyərlərə sadiqlik kursuna siyasi sərmayə yatırmaq ümidilə yollanmışdı.

Nikolun Amerikadan əli ətəyindən uzun qayıtdığı da məlumdur, sonra yaşananlar da. Avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün paraflanması və Prezident Trampın şahidliyi ilə imzalanmış üçtərəfli Birgə Bəyannamə də həmçinin. O Bəyannamə ki, Bakı ilə İrəvan arasında barış mühitinin qərarlaşdığını elan etdi. Lakin Vaşinqtonda bir olay da yaşandı. Ermənistan təmsilçiləri Prezident Trampdan Bakıda saxlanılan xristian məhbusların azadlığa çıxmaları üçün kömək istədilər.

Bəli, məhz xristian məhbusların. Söhbət məhkəməsi davam edən və Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərdə təqsirləndirilən erməni əsilli şəxslərdən gedir. Nəzərə alaq ki, onların sırasında, yəni müttəhimlər kürsüsündə Qarabağdakı keçmiş separatçı rejimin “prezidentləri” də var. Bütün bunları, habelə zaman-zaman Ermənistanın və havadarlarının Qarabağ münaqişəsinə dini məzmun qazandırmaq niyyətlərinin olduğunu isə yada təsadüfən salmırıq.

*

Əlbəttə, demək istəmirik ki, erməni əsilli İsveçrə jurnalisti və fotoqrafı, uzun illərdir erməni irsinin təbliğatçısı kimi tanınan Dəmir Sönməzin indi yazdıqları birbaşa avantürizmə dəstək mahiyyəti daşıyır. Amma onun qabartdığı mövzuda həmin avantürizmə, belə demək mümkünsə, subliminal xidmət motivi var. Açıq xidmətə gəlincə, jurnalistin zaman-zaman bu baxımdan “fərqləndiyini” bilirik.

Yada salaq ki, D.Sönməz bir neçə il əvvəl “Yaralı qartal” adlı kitab-albom hazırlayıb və nəşrdə 44 günlük müharibənin timsalında “Qarabağ ermənilərinin uğradığı haqsızlığı” canlandırıb, ucuz sentimentalizmə köklənərək, savaş zamanı və ondan sonrakı dövrdə insan hekayələrini işıqlandırıb. O, müxtəlif fotolarda mülki əhalinin problemlərinə diqqət çəkməklə, mahiyyətcə, rəsmi İrəvanın qondardığı “humanitar böhran” uydurmasına leqal don geydirməyə çalışıb. Jurnalist, həmçinin “Laçın dəhlizinin blokadası” kimi sərsəm tezisin Qarabağ ermənilərinə qarşı “soyqırımı” və “etnik təmizləmə” məntiqləri ilə “zənginləşməsinə” töhfə verib.

Deməli, D.Sönməz Qarabağı hayların, guya qədim zamanlardan bəri yaşadıqları ərazi, erməni xalqının yaddaşındakı mədəni və tarixi kimlik məkanı olaraq göstərib, dünya ictimaiyyətini məsələyə yetərincə reaksiya verməməkdə qınayıb, bu azmış kimi, “Azərbaycanda saxlanılan erməni hərbi əsirlərin” dərhal azadlığa çıxmaları istiqamətində hay-küy qaldırıb. Yəni, D.Sönməzin “məramı” bəllidir.

*

Əlqərəz, Ermənistanda İsa peyğəmbərin heykəli ucaldılmaqdadır. Heykəlin ərsəyə gəlməsi istiqamətdəki işlərin 2026-cı ildə tamamilə yekunlaşacağı bildirilir. Nəticədə, dünya üzrə İsa Məsihin ən böyük abidəsi Ermənistanda olacaq. Hətta xristian dini peyğəmbərinin Braziliyadakı heykəlindən də böyük.

Yeri gəlmişkən, Ermənistanın Kotoyk vilayətindəki Hatis dağı üzərində ucaldılacaq abidənin hündürlüyü 33 metr nəzərdə tutulub. Postament daxil olmaqla isə hündürlük 77 metr çatacaq. Çəkisi 20 tona çatacaq və dəniz səviyyəsindən 2 min 528 metr yüksəklikdə qərarlaşacaq heykəlin hazırlanmasında isə alüminiumdan istifadə olunur və o, xüsusi davamlı boya ilə üzlənir. Eyni zamanda, bildirək ki, İsa peyğəmbərin abidəsi təkcə heykəl olmayacaq. Ümumi kompleks daxilində muzey, sərgi zalı, kafelər, ziyarətçilərə xidmət yerləri və digər obyektlər planlaşdırılır.

Daha bir diqqətçəkən məqam abidə layihəsinin “Qagik Sarukyan” Xeyriyyə Fondu tərəfindən maliyyələşdirilməsidir. Yəqin, ad tanış gəldi. Söhbət Paşinyan iqtidarına qarşı çıxan Sarukyandan gedir. O Sarukyandan ki, hətta həbslə də üzləşmişdi. Görünür, Qagik hakim komanda ilə anlaşıb və son vaxtlar “sakit qalması” da fikrimizin təsdiqidir.

Maraqlıdır ki, Erməni Apostol Kilsəsi İsa peyğəmbərin heykəlinə qarşıdır. Kilsə bildirir ki, abidə əsrlər boyu formalaşmış liturgik və ikonografik ənənələrə uyğun deyil. Arxeoloqlar, yerli sakinlər və bəzi mütəxəssislər isə layihənin təbiətə, tarixi-mədəni irsə ziyan vura biləcəyindən narahatdırlar. Axı Hatis dağı özü həm də ayrıca qoruq statusundadır.



*

Keçək daha böyük və əvvəldə haqqında bir qədər söz açdığımız mətləbə. Beləliklə, İsa peyğəmbərin heykəlinin ucaldılmasının Ermənistanı beynəlxalq turizm nöqteyi-nəzərindən cəlbedici etmək məqsədi daşıdığı bildirilir. Amma aydındır ki, layihənin əsl məqsədi ölkəni xristian dininin simvolizəsi baxımından önə çəkməkdir. Elə D.Sönməzin yazdıqları da fikrimizin sübutudur.

Deməli, D.Sönməz bir müddət əvvəl Ermənistanda olarkən, həm abidənin hazırlandığı emalatxanaya və tikinti işlərinin aparıldığı meydançaya baş çəkib, həm də sponsor Q.Sarukyanla söhbətləşib. Jurnalist səfər təəssüratlarını fransız dilində qələmə aldığı geniş məqaləyə sığışdırıb. Əlbəttə ki, mövzuya pafos qatmaqla: “Məsihiliyi dövlət dini kimi qəbul edən ilk ölkə olan Ermənistan bu tarixi irsi anmaq üçün misilsiz xatirə layihəsini həyata keçirir. Bu mənəvi abidə üzərində işlər tam sürətlə davam edir”.

Məqaləsində abidə kompleksinin təməlqoyma mərasiminin 2022-ci ilin yayında keçirildiyini xatırladan D.Sönməz Q.Sarukyanı tərifləməklə yanaşı, diqqəti heykəlin barəsində söz açdığımız Braziliyanın Rio-de-Janeyro şəhərindəki məşhur “Xilaskar İsa” abidəsindən daha hündür olacağına çəkib. “Ermənistan hökumətinin və layihə müəlliflərinin sözlərinə görə, bu monument təkcə dini simvol deyil, həm də milli birliyin, mədəni irsin və iqtisadi inkişafın güclü ifadəsi olacaq”, – deyən Sönməz, öz aləmində, müqayisə də aparıb. Təxminən belə: Eyfel qülləsi Parisin zərifliyini, Azadlıq heykəli Amerika azadlığının ideyasını, Tac-Mahal əbədi məhəbbəti, Çin səddi sivilizasiyanın iradəsini, Cenevrədəki “Jet d’Eau” fəvvarəsi səmaya qalxan möhtəşəmliyi simvolizə etdiyi kimi, “İsa Məsihin heykəli də Ermənistanın ruhani simvoluna çevrilməli, imanı, kimliyi və birliyi təcəssüm etdirməlidir. Ardınca isə D.Sönməz populizm tonunu real məqsədə dəyişib və deyib: “Layihə mədəni və dini baxımdan Ermənistanı dünya arenasında göstərməyə yönəlib. Gözlənilir ki, o, təkcə Ermənistan deyil, həm də bütün Qafqaz və xristian aləmi üçün mənəvi simvol olacaq”.

*

Deməli, bütün Qafqaz və xristian aləmi üçün mədəni simvol. Əlbəttə, biz müsəlman dövlətinin təmsilçiləri olaraq İsa peyğəmbərin yüksək təqdimatının əleyhinə deyilik. Azərbaycan tolerant ölkədir, müxtəlif dinlərə mənsub xalqların və etniklərin dinc şəkildə yaşadıqları məmləkətdir. Hay havadarlarının zaman-zaman apardıqları təbliğatların əksinə olaraq, onu da deyək ki, ölkəmizdə heç vaxt xristianlıq təqib olunmayıb, əsla din ayrı-seçkiliyi aparılmayıb.

Ermənistana gəldikdə, monoetnik quruluşa malik ölkədə digər dinlərin daşıyıcılarına qarşı hansı münasibətin göstərildiyi məlumdur. Təkcə qədim türk-müsəlman yurdu və sonradan Ermənistana paytaxt olmuş İrəvanda və digər yerlərdə illərlə yer üzündən silinmiş məscidlərin, ayrı-ayrı dini abidələrin və ziyarətgahların sayı-hesabı yoxdur. İşğal illərində torpaqlarımızdakı müqəddəs məkanlara nalayiq münasibət isə ayrıca söhbətin mövzusudur.

Sözümüz ondadır ki, əsas məsələ İsa peyğəmbərin dünyada ən hündür heykəlini ucaltmaqda yox, xristianlığın dəyərlərinə sadiqlikdədir. Nəinki xristianlıq, heç bir səmavi din qəsbkarlığı, başqasının torpağına göz dikməyi, insan qətllərini, zülmü, işgəncəni, terroru və digər məkrli əməlləri təlqin etmirdi ki, bütün bu kimi naqislikləri müasir Ermənistan dövləti həyata keçirmişdi. Yəni hazırkı erməni iqtidarı ölkənin üzərindəki bu pisliyi təmizləməyə çalışmalıdır. Amma...

Çalışmaqdan söz düşmüşkən, İsa peyğəmbərin abidəsinin inşasına başlanıldığı 2022-ci ili yada salaq. O ili ki, Ermənistan Azərbaycanla sülhdən yayınmaq üçün ən müxtəlif vasitələrə və siyasi interpretasiyalara baş vurur, Qarabağda erməni avantürizmini qorumaq naminə hər cür oyunbazlığa gedirdi. Oyunbazlıqlardan biri də beynəlxalq miqyasda Ermənistanın həm də Qafqazda xristianlığın qalası kimi göstərilməsi idi.

Bəli, o zaman rəsmi İrəvan və əlaltıların beynəlxalq miqyasda elə təsəvvür formalaşdırırdılar ki, sanki müsəlman Azərbaycanı xristianlığın qalasını ələ keçirmək istəyir. Bu cür sərsəm fikirləri irəli sürənlər o qədər primitiv davranırdılar ki, müsəlman Azərbaycanın qonşuluqdakı xristian Gürcüstanı ilə sıx dostluq münasibətlərinin olduğunu, tarix boyu Azərbaycan və gürcü xalqlarının birgə yaşadıqlarını nəzərə almırdılar.

*

Sonda ümumiləşdirmə apararaq, belə qənaətə gəlmək olar ki, 2022-ci ildə İsa peyğəmbərə heykəl qoymaq ideyası da 44 günlük müharibədən sonra özünün ən pik dövrünü yaşayan və getdikcə daha çox azğınlaşan erməni avantürizminə dəstək mahiyyəti daşıyan hadisə idi. Ancaq yazımızı pozitiv notlarla bitirmək üçün ümid edək ki, İsa peyğəmbərin Ermənistandakı heykəli D.Sönməzin fikirlərində canlandırdığıtək lokal məzmun daşımayacaq. Daha doğrusu, xristian aləmi üçün rəmz olmaqla məhdudlaşmayacaq, həm də Cənubi Qafqaz xalqlarının sülh, əmin-amanlıq və rifah içində birgə yaşamlarının simvoluna çevriləcək. Axı xristianlığın da aşıladığı başlıca dəyər məhz budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropa qanunları sərtləşdirir

## *Qitədə "gəlmələr" üçün yeni "qaydalar" hazırlanır*

**Avropa İttifaqının (Aİ) yeni rəqəmsal nəzarət sistemi – Entry/ Exit System (EES) – təkcə texniki platforma deyil, həm də siyasi siqnaldır. Bu mexanizm xüsusilə Ukrayna, Moldova və Gürcüstan kimi ölkələr üçün fərqli məna kəsb edir. Ukrayna üçün EES-in tətbiqi Avropa təhlükəsizlik arxitekturasında statusunun rəsmiləşdirilməsi anlamına gəlir, çünki qitənin "müdafiə xəndəyi"nə çevrilən Kiyev sərhəd-sabitlik modelində əsas test meydanıdır.**

Digər dövlətlər üçün isə eyni sistem daha çox daxili islahatların izlənməsi və idarəetmə standartlarının uyğunlaşdırılması rolunu oynayır. Beləliklə, Aİ rəqəmsal nəzarət mexanizmini regional siyasətin incə tənzimləyicisinə çevirir və bununla da üzv olmaq istəyənlərə fərqli şərtlər paketi tətbiq edir.

Mərhələli şəkildə altı ay ərzində bütün xarici sərhəd-keçid məntəqələrində istifadəyə veriləcək bu mexanizm Avropa siyasətinin gələcək trayektoriyasını müəyyən edən strateji addım kimi qiymətləndirilə bilər. Məsələ təkcə səyahətçilərin giriş-çıxışının avtomatlaşdırılması deyil. Bu sistem suverenlik, təhlükəsizlik, insan hüquqları və qlobal güc mübarizəsi kontekstində yeni parametrlər müəyyən edir. Aİ sərhəd idarəçiliyini modernləşdirməklə həm daxili auditoriyaya, həm də beynəlxalq tərəfdaşlara siyasi mesaj verir: Avropa qapıları açıqdır, lakin bu qapıdan daxil olmaq artıq yüksək texnoloji süzgəclərdən keçməklə mümkün olacaq.

EES-in texniki əsasları miqrasiya idarəçiliyində keyfiyyətcə yeni mərhələ açır. EES ilk dəfə üç Avropa ölkəsi – Estoniya, Almaniya və Lüksemburqda işə düşəcək, gələn ildən isə qalan 26 Aİ ölkəsi bu sistemə keçəcək. Sistem qeyri–AB vətəndaşlarının giriş və çıxışını rəqəmsal bazada qeyd edəcək, biometrik identifikasiya (barmaq izi, üzün skanı), səyahət marşrutu və viza məlumatlarını inteqrasiya olunmuş platformada toplayacaq. Əgər əvvəlki sistemlər kağız möhürlərə və əl əməliyyatlarına söykənirdisə, yeni mexanizm rəqəmsal izlərin hüquqi statusunu formalaşdırır. Artıq "overstayer"i, yəni viza müddətini aşan şəxs dərhal aşkarlanacaq və bu məlumat bütün sərhəd-keçid məntəqələrinə real vaxtda ötürüləcək. Bu isə milli təhlükəsizlik, sərhəd nəzarəti və cinayətkarlıqla mübarizə mexanizmlərinin vahid Avropa çərçivəsinə transformasiyası deməkdir. Əlavə olaraq, eu-LISA, yəni Avropa miqyasında iriölçülü IT sistemlərinin idarəçiliyinə cavabdeh qurum bu sistemin koordinasiyasını həyata keçirəcək. Bu, Avropa üçün həm də texnoloji suverenlik məsələsidir. Çünki ABŞ və digər güclərin platformalarından asılılıq minimuma endirilir.

Lakin burada paradoks var: EES həm də "Fortress Europe" (Avropa qalası) anlayışının rəqəmsal transformasiyasıdır. Əgər XX əsrdə Avropa sərhədləri coğrafi maneələrlə müəyyən edilirdisə, XXI əsrin üçüncü onilliyində onlar rəqəmsal baryerlərlə möhkəmləndirilir. Bu, bir tərəfdən, təhlükəsizlik və idarəetməni gücləndirir, digər tərəfdən isə miqrantların hüquq və azadlıqları, humanitar standartlar məsələsində yeni diskussiyalar doğurur. İnsan hüquqları üzrə təşkilatlar artıq xəbərdarlıq edirlər ki, biometrik məlumatların mərkəzləşdirilmiş bazası potensial olaraq şəxsi azadlıqların məhdudlaşdırılması və "rəqəmsal nəzarət cəmiyyətinə" keçid riskini artırır. Qısaca, Qərb oyun qaydalarını sərtləşdirir və miqrantlar üçün qapıları bağlayır, sıravi vətəndaşların isə "hər addımını izləyir".

EES-in tətbiqi Avropanı qlobal miqrasiya idarəçiliyi bazarında mühüm aktora çevirir. ABŞ artıq uzun illərdir ESTA və digər elektron viza sistemləri vasitəsilə oxşar idarəetməni həyata keçirir. Çin isə daxili təhlükəsizlik və sosial sabitlik adı altında ən sərt biometrik nəzarət sistemlərini sınaqdan keçirir. Körfəz ölkələri, hətta Afrika dövlətlərinin bir qismi də oxşar mexanizmlərə keçid edir. Beləliklə, Avropanın bu addımı qlobal yarışda öz mövqeyini gücləndirməyə hesablanıb.



EES-in tətbiqi birbaşa olaraq Azərbaycan vətəndaşlarının Avropa məkanına səfərlərinə təsir göstərəcək. Avropa istiqamətində hər bir giriş-çıxış biometrik qaydada rəqəmsal bazada qeydiyyata alınacaq. Bu isə Azərbaycan turistləri, tələbələri, biznes dairələri üçün yeni adaptasiya mərhələsi yaradır. Digər tərəfdən, Avropa sərhəd idarəçiliyində rəqəmsal modelə keçid Azərbaycanın özünün sərhəd təhlükəsizliyi strategiyası, rəqəmsal transformasiya gündəliyi və Orta Dəhliz layihəsi çərçivəsində tranzit potensialı üçün də mühüm təcrübədir. Azərbaycanın həm Türkiyə, həm də Avropa İttifaqı ilə artan əlaqələri fonunda bu sistemdən kənarda qalmaq qeyri-mümkündür. Beləliklə, EES-in tətbiqi Azərbaycanın miqrasiya diplomatiyası və beynəlxalq sərhəd əməkdaşlığı sahəsində yeni çağırışlar doğuracaq.

* * *

Ötən ay Ermənistan Nazirlər Kabineti noyabrın 1-dən etibarən ölkəyə giriş-çıxış zamanı sərhəd möhüründən Ağrıdağın təsvirinin çıxarılacağını bildirmişdi. İlk baxışda bunun EES-lə əlaqəsinin olmadığı görünsə də, əslində bir növ İrəvan bu addımla Qərbə mesaj verməyə çalışır. Avropa rəqəmsal sərhəd idarəçiliyini modernləşdirir və üzv olmayan ölkələr üçün yeni standartlar müəyyənləşdirir, İrəvan isə münaqişəli ərazilərdəki simvolik mövqeyini dəyişərək Brüsselə açıq mesaj göndərir. Bu addımla İrəvan Aİ-yə siyasi bağlılığını nümayiş etdirir. Yəni ölkənin baş naziri Nikol Paşinyan ötən ay "Demokratiya üzrə Erməni Forumu"ndakı çıxışında "Ermənistan Avropa İttifaqının dalınca qaçmır" desə də, praktikada bunun reallıqdan uzaq olduğunu təsdiqləyir. Ukrayna və digər Şərq tərəfdaşlığı ölkələri üçün sərt biometrik və giriş-çıxış prosedurları tətbiq olunarkən, Ermənistanın addımı həm tarixi simvolikanı yumşaldır, həm də qitə siyasətində öz mövqeyini gücləndirməyə xidmət edir.

Bu kontekstdə EES Avropa üçün təhlükəsizlik və idarəetmənin rəqəmsal manifesti rolunu oynayır, Ermənistanın addımı isə Avropaya inteqrasiya perspektivində taktiki manevr kimi oxuna bilər. Hər iki proses üzv ölkələr və tərəfdaşlar üçün fərqli, lakin strateji önəmli siqnallar daşıyır.

***Tacir SADIQOV***
***XQ***

*Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Yeni giriş və çıxış sisteminin (EES) tətbiqinin Avropa İttifaqına daxil olmayan ölkələr və onların vətəndaşları üçün müəyyən çətinliklər yaradacağı qaçılmazdır. Bu, əsasən gediş-gəlişin məhdudlaşması, əlavə prosedurların tətbiqi və sənədləşmə ilə bağlı prosedurların mürəkkəbləşməsi şəklində özünü göstərəcək. Belə bir sistem tam olaraq işlək vəziyyətə gətirilməyənədək, müəyyən problemlərin davam edəcəyi gözlənilləndir. Bu isə öz növbəsində həm vətəndaşların, həm də dövlətlərin gündəlik fəaliyyəti üçün müəyyən maneələr yarada bilər.

Digər tərəfdən, Avropa ölkələrinin mövqeyini də başa düşmək mümkündür. Onlar geosiyasi proseslərin mürəkkəb fonunda münaqişələrin və miqrasiya axınlarının yaratdığı təzyiq şəraitində bu cür addımlar atırlar. Bu, əslində, onların milli təhlükəsizliyini qorumaq məqsədi daşıyan tədbirlərdir. Qanunsuz miqrasiya cəhdləri və potensial təhlükələr Avropaya daxil olmaq istəyən şəxslər üçün ciddi çətinliklər yaradır. Bu isə həm dövlətlərin təhlükəsizliyini, həm də vətəndaşların rahatlığını təmin etmək baxımından zəruridir.

Geosiyasi fonun dəyişməsi, müharibələrin aradan qaldırılması, miqrasiya məsələlərinin həlli və digər əlaqədar qərarların qəbulu bu çətinlikləri minimuma endirmək üçün zəruridir. Bu, həm də Avropanın uzunmüddətli dayanıqlılığını və təhlükəsizliyini təmin edən bir addımdır. Əks halda, vəziyyət uzun müddət gərgin qalacaq və Avropa dövlətləri bu qoruyucu tədbirləri saxlamaq məcburiyyətində olacaqlar. Bu isə ticarət, turizm, əmək miqrasiyası və diplomatik əlaqələrə təsir edə bilər. Ona görə də belə sistemlər yalnız texniki və inzibati məna daşıyan addımlar deyil, həm də geniş geosiyasi, sosial və iqtisadi aspektləri olan tədbirlərdir.

Beləliklə, yeni giriş-çıxış sistemi Avropanın reallığına və təhlükəsizlik strategiyasına uyğun addımdır. Onun tətbiqi müəyyən çətinliklər yaratsa da, uzun müddətdə həm vətəndaşların, həm də dövlətlərin maraqlarını qorumaq baxımından zəruri və məqsədəuyğundur.

---

# Aİ-nin iqlim siyasətində çeviklik və sabitliyin vəhdəti

## *COP30-un yolu Bakı konsensusu ilə Brüssel praqmatizmindən keçir*

**Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin Brüsseldə səsləndirdiyi tezis Aİ-nin iqlim siyasətində köklü strateji dönüşün, yeni qlobal reallıqların diktə etdiyi praqmatik yenidənqurmanın manifestidir. "Belemdə keçiriləcək COP30 ərəfəsində biz 2035 və 2040-cı illər üçün Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) hədəflərini müəyyən edəcəyik" bəyanatı Avropanın iqlim gündəliyindəki liderlik iddiasını saxlamaq iradəsini göstərsə də, ruhu bu hədəflərə aparan yolun əvvəlkilərdən tamamilə fərqlənəcəyini, idealist paradiqmaların yerini sərt geosiyasi və iqtisadi məntiqin tutduğunu aşkarlayır.**

Fon der Lyayenin "Dünya dəyişdi. Qlobal rəqabət amansız və bəzən ədalət prinsiplərindən kənara çıxır" sözləri Avropa Yaşıl Sazişinin ilkin konsepsiyasından oyanışın, Çin və potensial ABŞ kimi ölkələrin formalaşdırdığı iqtisadi təzyiqlər qarşısında Avropa sənayesini himayəetmə instinktinin səmimi etirafıdır. Artıq mübarizə yalnız emissiyaların azaldılması müstəvisində getmir. Bu, eyni zamanda, "yaşıl texnologiyalar" bazarında mövcudluğunu qoruma, Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi etmiş Azərbaycanın təcrübəsi xüsusi məna kəsb edir. Bakı qütbləşmiş dünyada fərqli maraqlara sahib tərəflər arasında körpülərin necə qurulduğunu, konsensus və həmrəylik mühitinin necə yaradıldığını bütün planetə nümayiş etdirdi.

* * *

COP29 Azərbaycanın beynəlxalq sistemdəki yerini və nüfuzunu keyfiyyətcə yeni mərhələyə yüksəldən tarixi bir hadisə kimi yadda qaldı. Tədbirin mükəmməl təşkili, gərgin danışıqlar prosesinin məharətli diplomatik manevrlərlə idarə olunması və yekunda konkret nəticələrin əldə edilməsi Azərbaycanın etibarlı tərəfdaş, neytral vasitəçi və qlobal problemlərin həllinə sanballı töhfələr vermək potensialına malik məsuliyyətli dövlət statusunu tam təsdiqlədi. Prosesin ən böyük nailiyyətlərindən biri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında uzun müddət davam edən ziddiyyətlərin episentrində yer alan iqlim maliyyəsi məsələsində əldə olunan mühüm irəliləyişdir. Azərbaycan tərəflər arasında itirilmiş inamı bərpa edərək, Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) üzrə müzakirələri konstruktiv zəminə oturda bildi. Bu, texniki problem olmaqdan çıxaraq iqlim ədalətinin təminatı və qlobal həmrəyliyin barometri kimi fundamental siyasi əhəmiyyət daşıyan məsələ idi. COP29 çərçivəsində irəli sürülən çoxsaylı təşəbbüslər və imzalanan sənədlər, Bakının, sadəcə, danışıqlar məkanı funksiyasını aşaraq, həm də konkret fəaliyyət mərkəzinə çevrildiyini göstərdi. Enerji, rəqəmsallaşma, zərər və itkilərin aradan qaldırılması kimi sahələrdə qəbul edilən bəyanatlar, Azərbaycanın çoxşaxəli yanaşmasını və iqlim gündəliyinin müxtəlif aspektlərini əhatə etmək bacarığını sübuta yetirdi. Azərbaycanın "yaşıl gündəliyə" bağlılığı, beynəlxalq bəyanatlarla yanaşı, konkret əməllərdə öz əksini tapır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun, həmçinin Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası" elan edilməsi, bu ərazilərdə ən qabaqcıl ekoloji standartlara və ağıllı texnologiyalara əsaslanan genişmiqyaslı yenidənqurma işlərinin həyata keçirilməsi, ölkənin "yaşıl transformasiya"ya sadiqliyinin parlaq nümunəsidir. Bu, eyni zamanda, postmünaqişə bərpa prosesinin davamlı inkişaf prinsipləri ilə ahəngdar şəkildə həyata keçirildiyinə dair dünyaya təqdim olunan unikal modeldir.



* * *

Aİ daxili ziddiyyətləri ilə xarici təzyiqlər arasında optimal bir yol tapmaq kimi çətin bir missiyanı yerinə yetirir. Fon der Lyayenin bəyanatı bu mürəkkəb axtarışın məhsuludur. Brüssel 2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq kimi tarixi öhdəliyindən geri addım ata bilməz. Bu, ittifaqın qlobal normativ güc imicinin sütunlarından biridir. Lakin "yaşıl keçid"in iqtisadi və sosial fəsadları getdikcə daha aydın sezilməkdədir. Çinin dövlət dəstəyi ilə istehsal etdiyi ucuz "yaşıl texnologiya" məhsulları Avropa bazarına axın edərək yerli istehsalçıları çətin vəziyyətdə qoyur. Fermerlərin etirazları, yüksək enerji qiymətləri və sənayenin rəqabət qabiliyyətinin zəifləməsi ilə bağlı artan narahatlıqlar, "yaşıl siyasət"ə qarşı daxili siyasi müqaviməti gücləndirir. Bu səbəbdən, "daha çox çeviklik" formuluna müraciət edilir. Bu, Avropanın gələcəkdə bütün sektorlara eyni şəkildə tətbiq edilən universal qaydalar əvəzinə, hər bir sənaye sahəsinin spesifikasını, üzv dövlətin iqtisadi imkanlarını nəzərə alan daha fərdi yanaşmalar seçəcəyi anlamına gəlir. Bürokratiyanın sadələşdirilməsi və müəssisələrə "yaşıl keçid"də dəstək verilməsi vədi iqtisadiyyatı durğunluğa sürükləmədən transformasiyanı reallaşdırmaq cəhdidir. Bu strategiya "yaşıl keçid"i bir təhlükə və məhdudiyyət kimi yox, innovasiya, yeni iş yerləri və iqtisadi modernləşmə üçün bir imkan kimi təqdim etməyi hədəfləyir.

Bu strategiyanın əsas sütununu enerji infrastrukturunun, xüsusən elektrik şəbəkələrinin köklü modernləşdirilməsi təşkil edir. Bərpaolunan enerjinin payının artması, enerji sisteminin dayanıqlılığı və idarə olunması qarşısında mühüm çağırışlar qoyur. Günəş və külək enerjisinin qeyri-sabit xarakteri, enerjinin saxlanması və ötürülməsi üçün nəhəng həcmdə investisiyalar tələb edir. Fon der Lyayenin "istehlakçıların daha ucuz bərpaolunan enerjinin faydalarını hiss etmələri üçün elektrik şəbəkələrinə sərmayə qoyulması" barədəki fikri "yaşıl keçid"in uğurunun son nəticədə sıravi vətəndaşın həyatına gətirəcəyi müsbət dəyişikliklərlə ölçüləcəyinin dərk edilməsini göstərir. Əgər "yaşıl enerji" daha bahalı və etibarsız olarsa, bu siyasətə ictimai dəstək sürətlə zəifləyər. Buna görə də Brüssel milyardlarla avronu şəbəkələrin rəqəmsallaşdırılmasına, transsərhəd əlaqələrinin möhkəmləndirilməsinə və enerji saxlama texnologiyalarının inkişafına yönəltməyi planlaşdırır. Bu addımlar təkcə iqlim hədəflərinə çatmağa xidmət etmir, həm də Avropanın enerji təhlükəsizliyini gücləndirmək və xarici enerji təchizatçılarından asılılığı minimuma endirmək məqsədi daşıyır.

Dünya COP30-a doğru addımlayarkən qlobal iqlim siyasəti taleyüklü yol ayrıcındadır. Bu yolun bir tərəfində Aİ-nin yeni reallıqlara cavab olaraq formalaşdırdığı daha praqmatik və ehtiyatlı strategiyası yer alır. Həmin strategiya yüksək ideallarla sərt iqtisadi mənafelər arasında incə bir tarazlıq yaratmağa çalışır. Yolun digər tərəfində isə Azərbaycanın COP29-da dünyaya təqdim etdiyi həmrəylik, dialoq və konsensus modeli dayanır. Bakı sübut etdi ki, dərin geosiyasi ziddiyyətlərin hökm sürdüyü bir şəraitdə belə ümumi məqsədlər naminə birləşmək və konkret nəticələr əldə etmək mümkündür. Belemdə baş tutacaq danışıqların uğuru bu iki fərqli yanaşmanın sintezindən, bir-birini tamamlamasından asılı olacaq. Dünyanın həm Avropanın texnoloji və normativ gücünə, həm də Bakının yaratdığı konstruktiv və inklüziv diplomatiya ruhuna ehtiyacı var. Fon der Lyayenin vurğuladığı kimi, işçilər üçün sabitlik, biznes üçün aydınlıq və investorlar üçün əminlik təmin etmək təkcə Avropanın yox, bütün planetin qarşısında duran ortaq vəzifədir. Bu vəzifənin öhdəsindən gəlmək isə amansız rəqabət məntiqi ilə yanaşı, həm də qarşılıqlı anlaşma və məsuliyyətli əməkdaşlıq tələb edir. Kopenhagen tezisi Avropanın öz yolunu axtardığını göstərir. Bakı təcrübəsi isə bu yolda necə irəliləmək barəsində bələdçilik edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# “Rəngli inqilablar” Sorosla birgə qürub edir

**XX əsrin sonlarından etibarən beynəlxalq maliyyə dünyasının ən məşhur simalarından biri, hazırda 95 yaşı olan Corc Soros təkcə valyuta bazarlarında böyük əməliyyatları ilə deyil, həm də ictimai-siyasi proseslərə təsiri ilə yadda qalıb. 1930-cu ildə Budapeştdə doğulan Soros 1947-ci ildə İngiltərəyə köçərək London İqtisadiyyat Məktəbində təhsil alıb, daha sonra ABŞ-a gedərək maliyyə bazarlarında böyük uğurlar qazanıb.**



Onun 1970-ci ildə yaratdığı “Quantum Fund” maliyyə spekulyativ əməliyyatlarla milyardlarla dollar gəlir gətirib və 1984-cü ildə “Open Society Foundations” (OSF – “Açıq Cəmiyyət Fondları”) adlı nəhəng xeyriyyə şəbəkəsini qurub. O vaxtdan Sorosun fəaliyyəti həm tərif, həm də ciddi ittihamlarla müşayiət olunub. Sorosun adı iddia edildiyi kimi xeyriyyəçiliklə deyil, bir çox ölkələrdə siyasi proseslərdə oynadığı rol səbəbindən mübahisələrə yol açıb.

1990-cı illərin sonlarından başlayaraq postsovet ölkələrində və Şərqi Avropada baş verən bir sıra etiraz aksiyaları və hakimiyyət dəyişiklikləri (əslində, siyasi çevrilişlər–S.H.) “rəngli inqilablar” adı ilə tarixə düşüb. Bu proseslərdə gənclər hərəkatları, müstəqil media və seçki müşahidə missiyalarının fəallığı diqqət çəkib. Sorosun fondu həmin dövrdə bu sahələrə qrantlar ayırdığı üçün etirazlarda çox vaxt onun adı hallanıb. Xüsusilə, 2003-cü ildə Gürcüstanda Eduard Şevardnadzenin istefası ilə nəticələnmiş “qızılgül inqilabı”, 2004-cü ildə Ukraynada baş verən “narıncı inqilab”, 2005-ci ildə Qırğızıstanda Əskər Akayevin devrilməsi ilə yekunlaşan hadisələr və 2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişi ilə başa çatan etiraz dalğası Qərb QHT-lərinin, o cümlədən Soros Fondunun dəstəklədiyi təşkilatlarla əlaqələndirilib. Məsələn, Gürcüstanda “Kmara” adlı gənclər hərəkatı Serbiya təcrübəsindən ilhamlanmışdı və maliyyə baxımından QHT-lər tərəfindən dəstəklənmişdi. Ukraynada isə “Pora” və digər təşkilatların seçki saxtakarlıqlarına qarşı mitinqlərinin təşkilində Sorosun dəstək verdiyi demokratik islahat layihələrinin təsiri qeyd olunur.

Corc Soros 2022-ci ildə fonddakı maraqlarını oğlu Aleksə təhvil versə də, əslində o, fəaliyyətini davam etdirir. Sorosun fəaliyyətinə qarşı tənqidlər əsasən iki istiqamətdədir. Birincisi, onun fondlarının daxili siyasətə qarışdığı iddiasıdır. İkincisi isə transmilli maliyyə əməliyyatlarının dövlət iqtisadiyyatlarına ziyan vurmasıdır. Məsələn, 1992-ci ildə Böyük Britaniyada funt-sterlinqin kəskin ucuzlaşması ilə nəticələnmiş maliyyə böhranı Sorosun “qara çərşənbə” kimi tanınan valyuta əməliyyatı ilə əlaqələndirilir. O, funt sterlinqin məzənnəsinə qarşı oynamaqla bir gündə təxminən 1 milyard dollar qazanc əldə etmişdi. Bu hadisə ona “İngiltərə bankını sındıran adam” ləqəbini qazandırıb. Bu və digər transmilli əməliyyatlar Sorosun maliyyə alətlərindən siyasi təsir məqsədilə istifadə etdiyi barədə ittihamlara səbəb olub.

Müxtəlif ölkələrdə Sorosun təşkilatları dövlətçiliyə zərbə vurmaq və xarici təsir aləti olmaqda ittiham edilib. Macarıstan hökuməti 2018-ci ildə OSF-ni Budapeştdəki ofisini bağlamağa məcbur edib. Rusiya isə 2015-ci ildə Soros Fondu, onunla bağlı bəzi QHT-ləri “arzuolunmaz təşkilatlar” siyahısına salıb, onlarla əməkdaşlığı qadağan edib. Belarus, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin bəzilərində fondun fəaliyyəti məhdudlaşdırılıb və ya tam dayandırılıb. İndi isə deyəsən, növbə elə Qərbin özünə çatıb. Soros hazırda ABŞ-da daxili siyasi qarşıdurmanı maliyyələşdirir.

*

Bu yaxınlarda ABŞ-da bir neçə prokuror Corc Soros və onun təşkilatlarının fəaliyyətini araşdırmaq üçün Ədliyyə Departamentindən göstəriş alıblar. Qeyd etdiyimiz kimi, son qırx il ərzində bu milyarder bayağı imperializmi gizlədən psevdoliberal ideologiyanın təbliğində əsas rol oynayıb. Onun pulları bütöv ölkələrdə sabitliyi pozmaq üçün istifadə edilib ki, bu da Sorosun fondlarının bir çox qeyri-Qərb ölkələrində məhdudiyyətlərlə üzləşməsinə gətirib çıxarıb. Amma məsələ Qərbin özünə çatana qədər bu ölkələrin etirazlarına məhəl qoyulmayıb və sübutlar uydurma elan edilib. Qərbdən kənar siyasətə qeyri-qanuni müdaxilə üsullarını təkmilləşdirən Soros indi onları Qərb siyasətinə köçürüb.

Hazırda Prezident Donald Tramp qeyri-Qərb dünyasına çoxdan məlum olanı deyir: Sorosun “xeyriyyə” pullarının demokratiya və insan haqları ilə yumşaq desək, şübbəli əlaqəsi var. Ağ Evin Sorosun fəaliyyətinə indiki kəskin reaksiyası bu yaxınlarda baş vermiş bir qalmaqaldan qaynaqlanır. Sentyabrın ortalarında Soros ABŞ-ın Kaliforniya ştatının qubernatoruna müxalif Demokratlar Partiyasının maraqlarına uyğun olaraq ştatın seçki dairələrinin yenidən qurulmasına kömək etmək üçün ona 10 milyon dollar bağışlayıb. Qubernator Qevin Nyus siyasi kampaniyaya başlamaq üçün təcili kifayət qədər vəsait toplamalı idi. Soros həlledici məbləğin yığılmasına töhfə verib. Bu, respublikaçılar üçün, necə deyərlər, bardağı daşıran son damla olub. Onlar dəfələrlə Sorosun pullarının Demokratlar Partiyası daxilində sol-liberal qüvvələrin müxtəlif kampaniyalarını maliyyələşdirmək üçün istifadə olunduğunu müşahidə ediblər.

Sorosun Trampın yenidən seçilməsinə mane olmaq üçün Manhetten prokuroru Elvin Braqqi dəstəklədiyi də bildirilir. Bu o deməkdir ki, Sorosun hiylələri hələ Trampın yenidən seçilməsindən əvvəl geniş müzakirə olunub.

Tramp uzun müddət bu məsələlərdən kənarda dayandı. Bununla belə, avqust ayında o, özünün sosial şəbəkə hesabında yazdı: “Soros və onun psixopatlar qrupu ölkəmizə çox böyük ziyan vurublar! O cümlədən onun Qərb sahilindəki (Kaliforniyanı nəzərdə tutur – S.H.) ağılsız dostları. Hətta bəzən Trampı tənqid edən İlon Mask da prezidentliyi dəstəkləyərək yazırdı: “Sorosa qarşı birbaşa tədbirlər görülməsinin vaxtı çoxdan çatıb”.

Bir müddət sonra Tramp aydınlıq gətirərək bunları qeyd etdi: “Corc Soros və onun radikal solçu oğlu Birləşmiş Ştatlarda zorakı etirazları və daha çox şeyləri dəstəklədiyinə görə RICO (Reketlərin təsirində olan və korrupsiyaya uğramış təşkilatlar Aktı) üzrə ittiham edilməlidir”. İndi də Soros və onun təşkilatlarına qarşı ağır cinayət işləri açılır. Bu gün artıq Corc Sorosun illərlə formalaşdırdığı “rəngli inqilablar” şəbəkəsinin qürub çağı yaşanır. Bir vaxtlar Cənubi Qafqazdan Mərkəzi Asiyaya qədər qarışıqlıq salan layihələr indi əvvəlki təsirini itirib. Gürcüstan, Ukrayna və Ermənistandakı son hadisələr göstərdi ki, Sorosun dəstəklədiyi hərəkatlar cəmiyyətin real gözləntilərini doğrultmayıb və siyasi böhranları dərinləşdirib. “Rəngli inqilablar” artıq xalqların arzuladığı dəyişikliklərin sinonimi deyil, uğursuz eksperiment kimi yadda qalır.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

Corc Soros son onilliklərin həm qlobal, həm də ABŞ siyasətində mübahisələrin mərkəzində dayanan fiqurdur. Onun Açıq Cəmiyyət Fondları vasitəsilə dəstəklədiyi QHT-lər Şərqi Avropadan Latın Amerikasına qədər müxtəlif təşəbbüslərə yardım etsə də, bir çox ölkələrdə bu, haqlı olaraq siyasi təzyiq aləti kimi dəyərləndirilir.

Maraqlıdır ki, Soros tənqidlərin ən sərtinə hazırda öz ölkəsində – ABŞ-da məruz qalıb. Donald Tramp 2016-cı il seçki kampaniyasından başlayaraq Sorosu Demokratlar Partiyasının əsas donorlarından biri, həm də ABŞ-ın daxili proseslərinə müdaxilə edən “kölgə oyunçusu” kimi təqdim edirdi. Tramp dəfələrlə bəyan edib ki, Sorosun maliyyə dəstəyi alan qeyri-hökumət qurumları sərhəd siyasəti, məhkəmə islahatları və immiqrasiya kimi məsələlərdə respublikaçıların gündəliyinə qarşı çıxış edir. Bu qarşıdurma Trampın prezidentliyi dövründə pik həddə çatdı və Soros konservativ dairələrdə milli maraqlara təhdid kimi tanındı.

Hesab edirəm ki, bu qarşıdurma əslində ABŞ cəmiyyətindəki ideoloji parçalanmanı əks etdirir. Soros liberal açıq cəmiyyət modelinin simvolu, Tramp isə proteksionist, sərhədləri qorumağa üstünlük verən siyasətin tərəfdarıdır. Bu ziddiyyət yalnız şəxsi antipatiya deyil, iki fərqli siyasi dünyagörüşünün toqquşmasıdır.

# Gürcüstanda yerli seçkilərin qalibi hakim partiya oldu

**Hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” partiyası mer və yerli şura seçkilərində bütün bələdiyyələrdə qalib gəlib.**




XQ Gürcüstanın rəsmi KİV-inə istinadla xəbər verir ki, bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyasının bülletenlərin 100 faizini emal etdikdən sonra dərc etdiyi məlumatda bildirilib.

Gürcüstan MSK-nın məlumatına əsasən, iqtidardakı “Gürcü Arzusu” partiyası ölkə üzrə səslərin 81 faizindən çoxunu qazanıb. Partiyanın merliyə namizədləri bütün böyük şəhərlərdə və bələdiyyələrdə qalib gəlib. Hakim partiya bütün şəhər və rayon məclislərində aşkar səs çoxluğu əldə edib.

Sonrakı yerlərdə gələn partiyaların səstoplama göstəriciləri belədir: “Güclü Gürcüstan – Lelo” partiyası – 6,7 faiz (90 min 790 səs), “Gürcüstanın namizədi Qaxariya” – 3,7 faiz (49 min 815 səs), “Qirçi” – 3 faiz (40 min 037 səs) və “Gürcüstan üçün mühafizəkarlar” – 2,6 faiz (35 min 312 səs).

Eyni zamanda, hakim partiyanın namizədləri Tbilisi, Rustavi, Kutaisi, Batumi və Poti şəhərlərində keçirilən mer seçkilərində də qələbə qazanıblar.



*

Oktyabrın 4-də seçki məntəqələri bağlandıqdan sonra Tbilisidə vəziyyət gərginləşib. Aksiya iştirakçılarının bir hissəsi Prezident iqamətgahına basqın ediblər. Polislə etirazçılar arasında toqquşma yaşanıb.

Gürcüstanda külli miqdarda odlu silah, hərbi sursatlar və detonatorlu partlayıcı maddələr aşkarlanıb. Yerli medianın məlumatlarına əsasən, bu barədə Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətindən (DTX) bildirilib. Qeyd olunub ki, silah-sursat və partlayıcı maddələri Ukraynada olan hərbi hissələrdən birinin gürcü nümayəndəsinin tapşırığı ilə B.Ç. adlı Gürcüstan vətəndaşı alıb.

Qeyd olunan silah-sursatların Tbilisidə oktyabrın 4-də zorakılıq yolu ilə diversiya aktlarının törədilməsi zamanı və Prezident sarayına hücum cəhdlərində istifadəsi planlaşdırılıb. Silah-sursatları Tbilisiyə çatdırmalı olan bir qrup şəxs zərərsizləşdirilib. Gizli saxlancda aşkarlanmış odlu silahlar, hərbi sursatlar və partlayıcı maddələr Tbilisi yaxınlığındakı meşədə gizlədilib. Həmçinin B.Ç adlı şəxsin göstərişinə əsasən detonator pultunu hazırlayan şəxs də müəyyən edilib. Həmin şəxs artıq Dövlət Təhlükəsizliyi Xidmətinə gətirilib və onunla bağlı istintaq tədbirləri aparılır.

*

Gürcüstanın Baş naziri İrakli Kobaxidze seçkilərdən sonra yaşananlarla bağlı açıqlamasında bildirib ki, son dörd il ərzində Gürcüstan ərazisində beşinci dəfə “Maydan” təşkil etməyə cəhd göstərilib: “Dörd il ərzində radikallar artıq beşinci dəfə hakimiyyəti devirməyə, “Maydan” qurmağa cəhd etdilər. Amma onlar hər dəfə uğursuzluğa düçar oldular”, - o qeyd edib.

Bu arada Avropa İttifaqı (Aİ) Gürcüstanda yaranmış vəziyyətdən narahatlıq ifadə edib və tərəfləri dialoqa çağırıb.

***XQ***

# Ağ Evin Qara dəniz – Xəzər regionuna strateji marağı

*Senat dinləmələri də Gürcüstan, Azərbaycan və Ermənistanın Qara dənizə çıxışına həsr olunub*

**Respublikaçı Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Ağ Evin Cənubi Qafqaz bölgəsinə marağının artması bütün parametrlər üzrə göz qabağındadır. Bu strateji regionun artan əhəmiyyətini anlamayan Bayden administrasiyasından fərqli olaraq, Donald Tramp komandası Xəzər və Qara dəniz hövzəsi ölkələrinin inkişafına dəstək olmaqdan tutmuş, gələcəyə yönəlik çeşidli transmilli layihələrin həyata keçirilməsi istiqamətdə konkret addımlar atmaq mesajları verməkdədir. Bunların arasında TRIPP təkcə bölgə ölkələrinin deyil, bütün dünyanın diqqət mərkəzindədir, desək, yəqin səhv etmərik.**

Ötən həftə ABŞ Senatında keçirilən dinləmələr də Vaşinqtonun bölgəyə yönəlik geosiyasi strategiyasında növbəti dəyişikliklərin gözlənildiyindən xəbər verirdi. Dinləmələrdə senatorlar Kris Mörfi və Stiv Daines, həmçinin Mərkəzi Asiya, Qafqaz və Qara dəniz regionu üzrə ixtisaslaşmış beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər. Əsas məruzəçi Con Hopkins Universitetinin Mərkəzi Asiya–Qafqaz İnstitutunun təsisçisi və görkəmli əməkdaşı Frederik Starr olub. Starrın müraciəti mahiyyət etibarı ilə nəinki regionda Amerikanın xarici siyasətinin üzləşdiyi aktual problemləri əhatə edirdi, eyni zamanda, onun köklü şəkildə yenidən və diqqətlə nəzərdən keçirilməsi üçün zəmin yaradır. Çıxışında Qara dəniz regionunun strateji baxımdan Baltikyanıdan heç də az əhəmiyyət kəsb etmədiyini deyən Frederik Starr bu coğrafiyanın, sadəcə, su hövzəsi deyil, Mərkəzi və Şərqi Avropanı, Qafqazı və Mərkəzi Asiyanı qlobal iqtisadiyyatla birləşdirən mühüm arteriya olduğuna diqqəti çəkib: “Qara dəniz Dunay çayı hövzəsi üçün dünya okeanlarına yeganə yoldur”.

*

Oxucularımızın diqqətinə çatdıraq ki, daha çox yardımlar almış və institusionallaşmış Baltik regionu ilə müqayisədə Qara dəniz bölgəsi az inkişaf etmiş və nisbətən gedirə qalmış durumdadır. Əslində, bu strateji bölgə daha çox yaxından, birbaşa iştirak və inkişafa yönəlik ciddi layihələrin icrasını tələb edir. Senatın Xarici Əlaqələr Komitəsinin Avropa Əməkdaşlıq və Regional Təhlükəsizlik üzrə Alt Komitəsi “ABŞ-ın Qara Dənizdə Gələcək Strategiyası” adlı müzakirələrində yaxın və uzaq məqsədlər açıq şəkildə ortaya qoyuldu. Bunların arasında isə qlobal hədəf bu idi: Rusiyanı Avrasiyanın ən mühüm regionlarından birindən sıxışdırıb çıxarmaq mexanizminin işlənib hazırlanması.

Senatdakı dinləmələrdə diqqətçəkən məqamlardan biri keçmiş administrasiya ilə yanaşı, Vaşinqtondakı “dairəvi kabinet”in yeni sahibinin də ünvanına yumşaq tənqidi fikirlər səsləndirilib. Bunun da səbəbi Ağ Evin hazırkı siyasətinin ABŞ üçün Qara dəniz regionu və Xəzər hövzəsi kimi enerji marşrutları ilə zəngin coğrafiyaya lazımi dərəcədə diqqətin ayrılmadığı, burada daha çox iştirakın və təşəbbüsün tələb olunduğu ilə bağlı idi. Bu məsələyə xüsusi vurğu altında toxunan senator Frederik Starr Cənubi Qafqaz regionuna diqqət yetirilməsinin vacibliyini qanunvericilərə xatırladıb. O bildirib ki, Gürcüstan, Ermənistan və Azərbaycanın fəaliyyət azadlığı əsasən onların Qara dənizə çıxışı ilə müəyyən edilir: “Bunsuz bu dövlətlər özlərini geosiyasi cəhətdən təcrid olunmuş və ya Rusiya, ya da Çinin nəzarəti altında tapırlar”.

Bununla belə, Qafqaz və Mərkəzi Asiya məsələləri üzrə analitikin fikrincə, hazırda bu ölkələrin vektoru dəyişib: “Ermənistan və Azərbaycan Qərblə əməkdaşlıq etmək istəyini açıq şəkildə nümayiş etdirir, Gürcüstan isə hazırda ABŞ-la münasibətlərin soyumasına baxmayaraq, Tbilisidə hakimiyyət dəyişikliyindən sonra strateji dialoqa qayıda bilər. Bu, sırf zaman məsələsidir, çünki Starrın fikrincə, Rusiyanın Gürcüstandakı kursuna dəstək qaçılmaz olaraq zəifləyəcək”.

Senator Starr çıxışında Gürcüstan ərazisindəki Abxaziya və Osetiya kimi “dondurulmuş” iki münaqişənin nəticəsinin Qara dənizdəki qüvvələr balansından birbaşa asılı olacağını deməyi də unutmayıb: “Əgər ABŞ və müttəfiqləri region ölkələrinin və zəngin enerji ehtiyatlarına malik Mərkəzi Asiya respublikalarının dəniz yollarına sərbəst və təhlükəsiz çıxışını təmin etməsə, bu, onların yenidən Moskva və ya Pekinin nəzarətinə keçməsinə gətirib çıxara bilər”. Starr SSRİ-nin dağılmasından sonra Qərbin fəaliyyətsizliyindən istifadə edən və regionda müstəmləkə təsirini faktiki olaraq bərpa edən Qara dəniz regionu üçün əsas təhlükə kimi müasir Rusiyanı müəyyənləşdirdi. Onun fikrincə, ABŞ-ın Qara dəniz regionunda strategiyasına Ukrayna, Moldova və hər üç Cənubi Qafqaz respublikasının ümumi maraqları nəzərə alınmaqla yenidən baxılmalıdır. Senator, həmçinin Qara dənizdə NATO-nun rotasiya hərbi dəniz varlığının yaradılmasını təklif edib. Sahənin eksperti onu da vurğulayıb ki, ABŞ Senatı indi Rusiyanın xarici siyasətinin təkamülü ilə bağlı mümkün ssenariləri və bu strateji



əhəmiyyətli məkanda Moskvanın təsirini nəzərə alaraq, Qara dəniz regionuna strateji yanaşmasını nəzərdən keçirməlidir”.

*

Yeri gəlmişkən, onu da nəzərə çatdıraq ki, Avropa Komissiyasının nəzərdə tutduğu Qara dəniz təhlükəsizlik mərkəzi qarşısına əsas məqsəd kimi Rusiya və Ukrayna arasında yekun sülh razılaşmasına nəzarət etməyə köməklik missiyasını qoyub. Avropa İttifaqının istəyi geostrateji əhəmiyyətini bərpa etmiş Qara dəniz regionunda mövcudluğunu gücləndirməkdır. Bu kontekstdə Aİ-nin kritik infrastrukturu qorumağı, dəniz minalarını təmizləməyi, hibrid təhlükələrlə mübarizə aparmağı, ekoloji riskləri azaltmağı və kommersiya naviqasiyasının azadlığını təmin etməyi planlaşdırır. Məhz bundan ötrü qurum ayrıca təhlükəsizlik mərkəzi yaratmaq barədə düşünür. Aİ-nin Xarici Əlaqələr üzrə Ali Nümayəndəsi Kaya Kallas bu istiqamətdə yeni strategiyanı təqdim edərkən bildirib: “Qara dəniz regionu Mərkəzi Asiyanı Avropa ilə birləşdirdiyi üçün Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir. O, həm də təhlükəsizlik, ticarət və enerji baxımından vacibdir”. Kallas sözlərinə onu da əlavə edib ki, Rusiyanın Ukraynada apardığı müharibə regionun potensialını ciddi şəkildə sarsıdır: “Hava məkanının pozulması, limanlara və dəniz zolaqlarına hücumlar bu faktı sübut edir”.

Sonda bir daha qeyd etməyi zəruri sayırıq ki, Cənubi Qafqaz istər ABŞ, istərsə də Avropa üçün bütün mənalarda strateji bölgə olaraq əhəmiyyətini daha qabarıq şəkildə nümayiş etdirir. İndi bu bölgəyə maraqları artmaqda olan kənar aktorlardan tələb olunan Cənubi Qafqazın üç ölkəsində böyük investiya layihələrinin icrasını sürətləndirmələri, sülhə, azadlığa və tərəqqiyə dəstək olacaq konkret addımları atmalarıdır. Bakı kimi Tbilisi və İrəvan da onlardan bunu gözləyir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Türk dünyasının nüfuzlu lideri



## I MƏQALƏ

### Bizim ailəmiz

16 il bundan əvvəl Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur. Bu, çox əhəmiyyətli siyasi hadisədir. Çünki türklər etnomədəni varlıq kimi təbiətdən, tarixdən, İlahidən birdirlər. Ortaq qan, ruh, qəlb, ideya, mənəvi dünya daşıyıcıları olduqlarını türk qövmü daim yaddaşında daşımışdır.

Dünyanın dörd bir yanına türk mədəniyyətini yayan və dövlət quran insanlar başqalarına da çox faydalı dəyərlər öyrətmiş və onlara bəxş etmişlər.

Dünya tarixini sonradan saxtalaşdıranlar bu həqiqəti artıq gizlədə bilməyəcəklər və İç Moğoldan başlamış Avropa, Amerika, Afrikaya qədər geniş coğrafiyada "mədəniyyət passionarlığı"nın mayası olan Türk varlığının yenidən özünütəsdiqini görəcəklər.

Türk Dövlətləri Təşkilatı indi bu prosesin tam mərkəzində yer alır. Onun başlıca motivəedici lokomotivinin Azərbaycan olması ayrıca mövzudur.

### Naxçıvanda "siyasi zaman"ın həqiqət anı

2009-cu ildə prezidentlər – İlham Əliyev, Nursultan Nazarbayev, Kurmanbek Bakiyev və Abdullah Gül tərəfindən imzalanan "Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının Naxçıvan Bəyannaməsi" tarixi rakursda "siyasi zaman"ın həqiqət anıdır.

Dövlətçilik baxımından türk ölkələri üçün dönüş məqamıdır. Bu məqamın Azərbaycanın qədim torpağı olan Naxçıvanda reallaşması isə ayrıca olaydır. Çünki faktiki olaraq, bu, Azərbaycan dövlətinin tarixi missiyasını davam etdirməsi nümunəsi idi. Bu missiyanın başlıca özəlliyi sülh, barış, birlik və birgə inkişafdan ibarətdir. Azərbaycan dövləti bu ənənəyə sadiq qalaraq, bütün türk dünyasını toparlamaq kursunun yeni mərhələsinə qədəm qoyurdu.

Azərbaycan Prezidenti paylaşımında həmin tarixi anı çox maraqlı məzmunda türk yaddaşının əbədilik guşəsində rəmzləşdirmişdir. İlham Əliyev paylaşımda yazmışdır: "3 Oktyabr Türk Dövlətlərinin Əməkdaşlıq Günüdür. Məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur. Bu əlamətdar gün münasibətilə Türk dünyasını səmimi-qəlbdən təbrik edirəm. Türk dünyası bizim ailəmizdir"!

Sonuncu tarixi mahiyyətli tezisdə - "Türk dünyası bizim ailəmizdir", öncəki üç dərin anlamlı fikrin tarixi, etnomədəni, ideya və siyasi mənaları bir semantik öztəqdimatda bənzərsiz ifadə edilmişdir. İzahı bizcə, maraqlıdır!

### 3 Oktyabr – Türk Dövlətlərinin Əməkdaşlıq Günü

Əməkdaşlıq günləri çoxdur. Ancaq türk dövlətlərinin müasir mərhələdə siyasi əməkdaşlığı günü ayrı böyük anlama malikdir. Son min ildə türk dövlətlərinin vahid siyasi təşkilatda əməkdaşlıq etdiyini xatırlayan varmı? Yaddaşda qalan nədir?

Tarixi türk coğrafiyasından Çingiz xan, Əmir Teymur, Nadir şah və başqa hünərli liderlərimiz qılıncla keçdilər. Fəth etdilər, öz qövmündən olanlar üçün göz yaşı tökdülər, lakin siyasi birlik təşkilatı yaranmadı. Son bir neçə yüz ildə bu coğrafiyada öz dönəminin ən güclüləri sırasında yer alan iki türk imperiyası – Osmanlı və Səfəvi bir-biri ilə "qılınc dili"ndə danışdılar. Nəticə? Hər ikisi çökdü, birlik əvəzinə qarşıdurma yarandı, geniş türk coğrafiyası param-parça oldu!

Daha dərinlərə getməyək, çünki bizim üçün çətin ki, ürəkaçan mənzərə yaransın. Bir onu deyək ki, hələ də bu parçalanmalar və qarşıdurmaların dövlət və cəmiyyət olaraq altını çəkirik.

İndi bu tarixi gerçəklərin "pəncərəsi"ndən Azərbaycan Prezidentinin "Türk Dövlətlərinin Əməkdaşlıq Günü" ifadəsini dərk etməyə çalışaq. Sanki tariximizin birliyini pozan qaranlıq səhifələrinə nur çilənir! Müjdə verilir. Adətimiz üzrə gözaydınlığı verilir. Həm də bu, liderin xeyir-duasıdır! Türk dövlətləri uzun sürən fasilədən sonra dünyanın ən mürəkkəb dönəmində siyasi birliyə nail olurlar. Buna görə də dövlətçilik üçün bu, müqəddəs "Əməkdaşlıq Günü"dür.

### Türk Dövlətləri Təşkilatının əsası - Azərbaycan torpağı Naxçıvan

Bu, ümumiyyətlə, möhtəşəm tarixi, siyasi, geosiyasi və dövləti anlamı olan vurğudur. Azərbaycan Prezidentinin bu tezisi ifadə etməsi yalnız hadisənin faktoloji əsası ilə izah edilməməlidir. Bəli, real olaraq Naxçıvanda Zirvə toplantısı olmuşdur, orada Bəyannamə qəbul edilmişdir. Həmin Bəyannamə türk dövlətlərinin siyasi birliyinin təməlini təşkil etməkdədir. Bununla yanaşı, həmin fikrin tarixi, siyasi, geosiyasi və dövləti aspektlərdə anlamının ortaq mənası çox önəmlidir. Bu nə deməkdir?

Faktdır ki, türk dünyası ilə bağlı ideyaların böyük əksəriyyəti Azərbaycanda formalaşır və sonra digər türk toplumlarına təbliğ və təşviq edilir. Görəsən, səbəbi nədir? Hansı səbəblərə görə, məhz Azərbaycan ideyaca passionar türk məkanıdır? Bunun psixoloji, şüuri, tarixi, kültürəl, sosial təşkilatlanma özəlliyi mövcuddurmu? Bəli, mövcuddur!

Əgər dünyanın siyasi xəritəsinə türk qövmünün yerləşdiyi və mövcud olduğu yerlərə coğrafi ilə yanaşı mənəvi, toponim, yerləşmə xüsusiyyətləri, birgəyaşamın mədəni və etnik aspektlərinin münasibətləri, kollektiv varlığı ifadə edən rəmzlərin semantikası, xalq yaradıcılığı və digər dəyərlər prizmasında ümumi mövqedən baxsaq, çox maraqlı mənzərə alınır.

### Toponimlər

Birincisi, türklər mövcud olduqları hər məkanda (lokal və ya geniş) toponimlərini eynilə saxlamışlar. 300 ildən çox müddətdə (miladdan öncə 209-cu ildən Miladın 93-cü ilinə qədər) Hun imperiyası tərkibində olan Uzaq İç Moğolluğu (hazırda Çinin siyasi xəritəsi daxilindədir) indi Monqolustanda yaşayan moğollar "Öbrü Moğoloğlu" (rəsmi - Öbür Mongγul, Öbür Monggol) adlandırırlar.

Çingizxan imperiyasını 1209-cu ildə bu coğrafiyada qurmuşdur. "Öbrü Moğoloğlu" ərazisində yerləşən məskunlaşma və coğrafi adlar sırasında "Agsu", "Yangı", "Qırat", "Bulaq Ad", "Tümən", "Qaraqax", "Qaxqar", "Yarkənd", "Lap Nur"a rast gəlinir. Bunlar hazırda Uyğur Muxtar Vilayətində yerləşən və "Təklə-Məkan" adlanan coğrafiyadadır.

İkincisi, oxşar toponimlərə Mərkəzi Amerikada yerləşən Yükatan yarımadasında rast gəlinir. Həmin yarımada Abşeronun tam oxşarıdır. Toponimlər sırasında hətta "Turan" şəhəri də olmuşdur.

Üçüncüsü, Afrikada (Keniya və Uqanda sərhədlərində) "Türkan" xalqı yaşayır və onlar Xəzərin coğrafiyasına tam oxşar olan yerlərdə məskunlaşmışlar. "Türkan" adlı gölləri vardır və ora axan əsas çay "Türkqol" adlanır. Göl qapalı məkandadır, okeana və başqa su hövzələrinə çıxışı yoxdur. Xeyli İç Moğolda olan "Təkəl-Məkan"ı xatırladır.

### Coğrafi yerləşimlərin özəlliyi

Dördüncüsü, coğrafi yerləşimlərin müqayisəsi göstərir ki, türklər adətən bizim Xəzər dənizinin quruluşuna oxşar dəniz hövzələrində məskunlaşmışlar. Bu, İç Moğolda, Mərkəzi Amerikada, Afrikada, Rusiyada (Baykal), indi Ermənistan adlanan yerdə (Göyçə gölü), Gürcüstanda ("Sülüklü" və ya "Armudlu gölü") belədir.

### Azərbaycan – türk enerjisinin qovuşma məkanı

Daha maraqlısı ondan ibarətdir ki, bütün bu əlamətlərin kompleks halında ən yaxşı ifadəsi Azərbaycanda mövcuddur. Azərbaycan sanki türk etnomədəni passionarlığının özünüyaratma enerjisinin toparlandığı məkandır. Tarix boyu bu məkan həm də ideya baxımından "qaynar yer" olmuşdur.

Kimlərsə, bu faktların ümumiləşdirilməsi və nəticə çıxarılması məntiqini qəbul etməyə bilər. Tam anlayışla qarşılayırıq. Lakin faktdır ki, həm ideya, həm də dövlət quruculuğunun tarixi dinamikası baxımından min illər boyu Azərbaycan ən aktiv məkanlardan biri olmuşdur. XX əsrin əvvəllərində türk xalqları içərisində ilk demokratik dövləti azərbaycanlılar yaratmışlar. Özü də ideya və məfkurə əsasında. Azərbaycan Demokratik Respublikası təsadüfən bu qarışıq yerdə meydana gəlməmişdir. Bu prosesin kökündə çox güclü ideya hərəkatı, müasir dövlət qurmaq passionarlığı dayanırdı.

Sonra azərbaycanlılar türk xalqları içərisində ilk dəfə olaraq "azərbaycançılıq" adlı məfkurə yaratdılar ki, tarixi, siyasi və ideoloji baxımdan inqilabi dəyişiklik idi. Çünki bu məfkurə ideya və ideologiya səviyyəsində türk xalqları sırasında ilk dəfə olaraq yurdsevərliyi dövlət qurmaq kontekstində vətənsevərliyə və hər bir türk xalqının özünün müasir dövləti olması hədəfinə istiqamətləndirdi.

Bununla Ulu öndər Heydər Əliyev tariximizdə ilk dəfə olaraq türk xalqlarının ayrıca müstəqil güclü dövlət qurmaq əsasında siyasi birliyinin mümkünlüyü ideyasını meydana gətirdi. Bu yanaşmanın təməl tezisi "bir millət, iki dövlət"dən ibarətdir.

Vurğuladığımız özəlliklər bizcə, Azərbaycan Prezidentinin hansı anlamlarda Türk dünyasının ailəmiz olduğu fikrinə qismən aydınlıq gətirir. Təbii ki, hər bir türk dövlətinin suverenliyinin təmini ilə bir ailənin üzvü olmağın məsuliyyəti arasında nisbətin düzgün müəyyən edilməsi ayrıca araşdırılmalı məsələ olduğunu qəbul etmək gərəkdir. Ancaq Azərbaycan Prezidentinin paylaşımının məntiqi işığında TDT-nin gücləndirilməsi və onun qlobal geosiyasətdə bir təşkilat kimi layiqli mövqe tutması məsələsinə vurğu çox vacibdir.

Bu mövqedən Qəbələ Zirvəsi öncəsi İlham Əliyevin paylaşımındakı aşağıdakı fikirlər istiqamətverici rol oynamalıdır. Dövlət başçısı ifadə etmişdir: "Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir. Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, Türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir. Azərbaycan Türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir".

Məsələ hazırkı mərhələdə Türk dünyasına və xüsusilə Türk Dövlətləri Təşkilatının güclənməsinə mane olmaq istəyən dairələrin ideoloji və siyasi təxribatları prizmasında aktuallaşmışdır. Bu səbəbdən İlham Əliyevin təşkilatın inkişafı və onun fonunda qardaşlığımızın əbədi olması fikrini önə çəkməsi həm çağırış, həm də dəvətdir. Azərbaycan Prezidenti bunlarla yanaşı, əminliyini və qətiyyətini ifadə etmişdir!

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Avropanın müdafiə siyasətində uzun illər müzakirə olunan və qitənin strateji muxtariyyət arzusunun rəmzinə çevrilən "Future Combat Air System" (SCAF) layihəsi bu gün ciddi təhlükə ilə üz-üzədir. Avropa İttifaqının (Aİ) hərbi sənayesində ən iddialı, eyni zamanda, ən bahalı təşəbbüslərdən biri hesab olunan layihə yeni nəsil döyüş təyyarələrinin yaradılmasını, bütöv bir hərbi ekosistemin formalaşdırılmasını nəzərdə tuturdu. SCAF Avropanın gələcəkdə təhlükəsizliyini təmin etməyə yönəlmiş strateji konsepsiyanın özəyinə çevrilmişdi. 2017-ci ildə Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Angela Merkelin təşəbbüsü ilə hazırlanan proqramın əsas məqsədi Avropanın ABŞ və NATO-dan asılılığını azaltmaq, qitənin öz gücünə söykənən müdafiə sistemini qurmaq idi. 8 il ərzində bu ideya ətrafında saysız müzakirələr aparıldı, 100 milyard avro dəyərində büdcə ayrıldı, 2040-cı ildə ilk təyyarələrin istifadəyə verilməsi hədəfi qoyuldu. Layihədə ABŞ-ın "F-35" proqramına alternativ model formalaşdırmaq nəzərdə tutulmuşdu.**

# ABŞ-sız və NATO-suz Avropa axtarışı

## *"Qoca qitə"nin iqtisadi və siyasi müstəqilliyi üçün də risklər yaranır*

Əfsuslar olsun ki, nəzəriyyə və praktika arasındakı sərt divar bir çox hallarda özünü gözlənilməyən anda büruzə verir. SCAF-ın üzərinə yüklənən rəmzi məna böyük idi və illər ötdükcə layihə texniki çətinliklərdən çox siyasi ziddiyyətlərin qurbanına çevrildi. Burada dərs çıxarılmalı məqam ondan ibarətdir ki, ən müasir texnologiyalar belə, siyasi iradə zəif olduğu təqdirdə hədəfinə çatmır. Məsələnin kökü Fransa və Almaniyanın fərqli baxışlarında gizlənir. Rəsmi Paris özünü Avropanın təhlükəsizlik dayağı kimi görür. Nüvə silahına sahib olması, Afrika və Yaxın Şərqdə hərbi mövcudluğu onu bu mövqeyə həvəsləndirir. Fransanın iddiası ondan ibarətdir ki, "qoca qitə" artıq "öz ayaqları üstündə dayanmağı" öyrənməlidir. Almaniya isə məsələyə daha praqmatik yanaşır. Rəsmi Berlin NATO çərçivəsində ABŞ-la əməkdaşlığı prioritet hesab edir, hərbi xərclərdə iqtisadi səmərəliliyə üstünlük verir. Fərqli yanaşmalar kompromisi hər dəfə çətinləşdirir, SCAF-ı bitib-tükənməyən mübahisə mövzusuna çevirir.



Angela Merkelin dövründə ziddiyyətlərin nisbətən azaldığını görmək mümkündür. Çünki Merkel bir tərəfdən Parisin təşəbbüslərinə dəstək verir, digər tərəfdən Berlindəki şübhələri yumşaltmağa çalışırdı. Lakin onun siyasi səhnədən getməsi ilə balans pozuldu. Merkeli əvəzləyən Olaf Şolts ilk günlərdə avropapərəst ritorikası ilə ümid yaratsa da, çox keçmədən sərt mövqe sərgilədi. Onun ötən ay SCAF-la bağlı Madriddə səsləndirdiyi açıq tənqidlər Avropada "soyuq duş effekti" yaratdı: "Hazırkı vəziyyət qənaətbəxş deyil. Biz bu layihədə irəliləyiş əldə etmirik". Mertsin bəyanatı isə Fransa üçün açıq mesaj idi: Berlin bundan sonra güzəştə getməyəcək. Ancaq vaxt Avropanın xeyrinə işləmir. Əgər ilin sonuna qədər ikinci mərhələyə keçid barədə qərar qəbul edilməsə, SCAF 2040-cı il planından kənara çıxacaq. Bu, Avropanın yeni nəsil döyüş təyyarələri sahəsində geriləməsi deməkdir.

Məsələnin qlobal kontekstdə ABŞ faktorundan ayrılıqda təhlil edilməsi mümkün deyil. Rəsmi Vaşinqton uzun müddətdir ki, "F-35" proqramı ilə Avropanın müdafiə arxitekturasında güclü mövqe qazanıb. Bu, təsadüfi deyil. Çünki "F-35" müxtəlif NATO ölkələrini vahid texnoloji və əməliyyat sisteminə bağlayır. Bir çox Avropa dövlətləri bu proqramda iştirak etməklə həm öz təhlükəsizliklərini möhkəmləndirir, həm də transatlantik əməkdaşlığa daha sıx inteqrasiya olunurlar. Bununla belə, inteqrasiya Avropanın "müstəqil müdafiə gücü" yaratmaq iddiaları ilə ziddiyyət təşkil edir. Maraqlı məqam odur ki, Vaşinqtonun təklif etdiyi təhlükəsizlik təminatları Avropa üçün real və praktik nəticələr doğurur. Məsələn, Şərqi Avropa ölkələri, xüsusilə Rusiya ilə sərhəddə yerləşən dövlətlər ABŞ-ın hərbi varlığını öz milli təhlükəsizliklərinin əsas təminatçısı kimi görürlər. Bu isə onların Fransa və Almaniyanın təşəbbüs göstərdiyi "strateji muxtariyyət" ideyasına ehtiyatla yanaşmalarına səbəb olur. Digər tərəfdən, Avropanın daxilində də müxtəlif yanaşmalar mövcuddur. Böyük Britaniya və İtaliya öz alternativ layihələrini irəli aparmaqla müdafiə sahəsində müxtəliflik yaratmağa çalışır, eyni zamanda, ABŞ-la əməkdaşlığı da qoruyurlar. Sadaladığımız faktlar Avropanın müdafiə siyasətini rəngarəng etsə də, vahid strateji vizyonun formalaşmasını çətinləşdirir. Daha dəqiq desək, SCAF layihəsinin "sürüşkən" vəziyyətə düşməsi qitəni parçalanmış və ziddiyyətli mövqelərlə üz-üzə qoyur, xarici dayaqlara ehtiyacı artırır.

Mövzunu dərindən analiz etdikdə belə bir nəticə ortaya çıxır: hərbi texnologiya, zəngin büdcə, müasir ideyalar olsa da, siyasi iradə və konsensus olmadan strateji üstünlük yalnız kağız üzərində qalır. SCAF böhranı bunun bariz nümunəsidir. Layihə bu gün Avropa üçün "imtahan"a çevrilib. Əgər Fransa və Almaniya bu "imtahan"dan uğurla çıxmağı bacarmasa, Avropanın müdafiə arxitekturası uzun müddət transatlantik tərəfdaşlığın təsirindən çıxa bilməyəcək. XXI əsrin müdafiə sistemi artıq süni intellektlə idarə olunan pilotsuz texnologiyalar və bulud əsaslı idarəetməyə söykənir. SCAF məhz bu istiqamətləri birləşdirən kompleks layihə kimi nəzərdə tutulmuşdu. Əgər layihə irəliləməsə və ya dayandırılsa, Avropanın bu sahədə ABŞ və Çin kimi güclərlə müqayisədə geri qalmaq riski arta bilər. Bundan əlavə, ictimai rəy proseslərdən təsirlənir. "Müdafiə suverenliyi" Avropada uzun müddətdir siyasi ritorikanın mərkəzindədir. Belə təşəbbüslər nəticəsiz qaldığı təqdirdə, ictimai etimadın ciddi şəkildə sarsılması qaçılmaz görünür. Beləliklə, SCAF ətrafında yaranmış qeyri-müəyyənlik Avropanın müdafiə gücünü həm texnoloji, həm də siyasi baxımdan zəiflədir. ABŞ-ın rolu isə prosesdə həm fürsət, həm də çağırış kimi qiymətləndirilməlidir. Avropa ya öz gücünü konsolidasiya edərək müstəqil müdafiə dayaqları yaratmalı, ya da transatlantik əlaqələri daha da genişləndirməlidir.

Layihəni iqtisadi kontekstdə dəyərləndirmək mütləqdir. Çünki SCAF-ın əsas podratçıları olan "Dassault Aviation", "Airbus Defence and Space" və "Indra Sistemas" yerli iqtisadiyyata ciddi töhfə verirdilər. Onlar SCAF çərçivəsində minlərlə yüksəkixtisaslı mühəndis və texniki işçi qüvvəsini işlə təmin edirdi. Yəni layihənin iflası, sadəcə, bir neçə şirkətin gəlirlərinə deyil, Avropanın hərbi texnologiya bazarına mənfi təsir göstərəcək. Belə bir vəziyyət milli sənaye komplekslərinin gücünü zəiflətməklə Avropa bazarını xarici şirkətlər üçün daha əlçatan hala gətirə bilər. Layihənin dayandırılması dövlətlərin büdcələrinə də təsir edir. Nəzərə alsaq ki, Avropa dövlətləri SCAF-a milyardlarla avro sərmayə yatırıblar, layihənin ləngiməsi bu investisiyaların effektivliyini azaldır. Əgər SCAF planlaşdırıldığı kimi başa çatmasa, həmin ölkələrin müdafiə xərclərinin səmərəliliyi ilə bağlı suallar yaranacaq. Almaniya və Fransa kimi böyük iqtisadiyyatlar üçün bu, strateji və iqtisadi planlaşdırmada risk amilidir. Bundan əlavə, layihənin uğursuzluğu Avropa ölkələrinin birgə iqtisadi əməkdaşlığına da mənfi təsir göstərə bilər. Layihə dayanarsa, tərəflər arasında maliyyə və resurs bölgüsü problemləri dərinləşəcək, Avropa müdafiə sənayesində koordinasiya zəifləyəcək. Bu isə qitənin iqtisadi inteqrasiyası üçün təhlükə yaradacaq.

Sonda qeyd edək ki, SCAF layihəsinin taleyi Avropanın strateji ambisiyalarını, siyasi iradəsini və həmrəylik qabiliyyətini sınağa çəkir. Qitənin müdafiə gələcəyi ilə bağlı qərarlar gecikdikcə rəqabətçi güclər ön plana çıxır. Rəsmi Paris və Berlin öz fikir ayrılıqlarını aradan qaldırıb SCAF-ı gerçəkləşdirə bilsələr, Avropa həm texnologiya, həm də geosiyasi baxımdan yeni dövrə qədəm qoyacaq. Əks halda, qitə böyük ambisiyalara baxmayaraq, müasir dövrün təhlükəsizlik mənzərəsində müşahidəçi rolunda qalacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Qazaxıstanla dost-qardaşlığımız strateji əməkdaşlıqla möhkəmlənir

**Azərbaycan – Qazaxıstan iqtisadi əməkdaşlığının inkişafında ölkələrimiz arasında geniş hüquq-müqavilə bazasının formalaşması əsas rol oynayıb. İndiyədək iki dost ölkə arasında imzalanan 140-a yaxın sənədin icrası da həmin istiqamətdə layihələrin reallaşdırılmasına böyük təkan verib. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə", "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə", "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" xüsusi təsir gücü ilə diqqət çəkib.**



Bu hüquqi bazanın əsasında Azərbaycan – Qazaxıstan əməkdaşlığı bu gün uğurla inkişaf edir. Belə bir vəziyyət isə Xəzər hövzəsi regionu, Orta Asiya – Cənubi Qafqaz və Türk Dövlətləri Təşkilatı (TDT) coğrafiyasında əhəmiyyətli dəyişikliklərə müsbət təsir göstərir. Eyni zamanda, mövcud şərait Bakı – Astana arasında yaranan səmimi əlaqələri gücləndirir və Orta Dəhliz layihəsinin tam gerçəkləşməsini sürətləndirir. Bununla yanaşı, hər iki ölkənin zəngin enerji daşıyıcıları potensialına malik olması da strateji tərəfdaşlıq münasibətlərini getdikcə möhkəmləndirir.

Prezident İlham Əliyev çıxışlarının birində ölkələrimiz arasında əlaqələrin Xəzər hövzəsində və daha geniş coğrafiyada səmərəli əməkdaşlıq üçün böyük önəm daşıdığını bildirib. Azərbaycan lideri bu əməkdaşlığın daha da genişləndirilməsi üçün zəngin potensialın olduğunu söyləyib, bütün bunların ticarət dövriyyəsi həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə genişmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini diqqətə çatdırıb.

Azərbaycan – Qazaxıstan münasibətlərinin təməli ortaq tarixi və mədəni bağlara söykənir. Hər iki xalq türk dünyasının ayrılmaz hissəsi olaraq dil, din, adət – ənənələr baxımından yaxınlığa malikdir. Bu, siyasi münasibətlərdə də özünü qabarıq büruzə verir. Belə ki, 1991-ci ildə diplomatik əlaqələr qurulduqdan indiyə kimi, dövlət başçılarının qarşılıqlı səfərləri intensiv xarakter daşıyır. Məsələn, Azərbaycan və Qazaxıstan prezidentlərinin son 5 ildə qarşılıqlı səfərləri çərçivəsində 20-dən çox mühüm sənədin imzalanması da bu fikrin parlaq ifadəsidir. Qeyd edək ki, bu sazişlər strateji tərəfdaşlığın hüquqi bazasını möhkəmləndirir.

İki ölkə arasında enerji əməkdaşlığı da diqqətdə saxlanılır. Qazaxıstan Xəzər hövzəsində ən böyük neft hasilatçılarından biridir. Onun təsdiqlənən neft ehtiyatları 3,8 milyard ton, qaz ehtiyatları isə 2 trilyon kubmetrdən çox qiymətləndirilir. Azərbaycan isə həm öz ehtiyatlarına, həm də inkişaf etmiş tranzit infrastrukturuna görə, regionun enerji xəritəsində mühüm mövqedədir.

Qeyd edək ki, Bakı – Tbilisi – Ceyhan (BTC) kəməri vasitəsilə 2023-cü ildə 1,5 milyon tona yaxın Qazaxıstan nefti dünya bazarlarına çıxarılıb. Qarşıdakı 3 il ərzində isə bu həcmin 5 milyon tona qədər artırılacağı proqnozlaşdırılıb. Bununla yanaşı, "yaşıl" enerji sahəsində də əməkdaşlıq imkanları genişlənib. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji zonası" elan edib, Qazaxıstan isə 2030-cu ilə qədər enerji balansında bərpaolunan enerji mənbələrinin payını 15 faizə çatdırmağı planlaşdırıb. Bu istiqamətdə ortaq layihələr qarşıya mühüm məqsəd kimi qoyulub.

Azərbaycan – Qazaxıstan münasibətlərinin əsas dayaqlarından biri Orta Dəhliz layihəsidir. Bu marşrut Çindən başlayaraq Qazaxıstan üzərindən Xəzər dənizinə, oradan Azərbaycan, Gürcüstan və Türkiyəyə, daha sonra isə Avropaya uzanır. Son illərdə Orta Dəhlizlə daşınan yüklərin həcmi sürətlə artıb. Əgər 2021-ci ildə bu marşrutla, təqribən, 570 min ton yük daşınıbsa, 2023-cü ildə həmin rəqəm 2,8 milyon tona çatıb. 2030-cu ilə qədər isə illik yükdaşımaların həcminin, təqribən, 10 milyon tonadək artırılması planlaşdırılıb.

Xatırladaq ki, Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Qazaxıstanın Aktau və Kurık limanları arasında müntəzəm bərə xətləri fəaliyyət göstərir. Bu, iki ölkə arasında nəqliyyat əlaqələrinin güclənməsinə, tranzit müddətlərinin azalmasına və gömrük prosedurlarının sadələşdirilməsinə əverişli imkan yaradır.

İki ölkənin iqtisadi və ticarət əlaqələri də sürətlə inkişaf edir. Azərbaycan və Qazaxıstan arasında son illər ticarət dövriyyəsində sabit artımın qeydə alınması, 2022-ci ildə bu istiqamətdə 460 milyon dollar, 2023-cü ildə 600 milyon dollar əldə olunması, eyni zamanda, tərəflərin 1 milyard dollarlıq ticarət dövriyyəsinə nail olmağı qarşıya önəmli hədəf kimi qoyması deyilən fikrin bariz ifadəsidir. Statistik məlumata əsasən, Azərbaycan dost ölkədən əsasən buğda, un, metal məmulatları və kimya sənayesi məhsulları alır. Əvəzində isə neft, kənd təsərrüfatı məhsulları, elektrik avadanlıqları və tikinti materialları ixrac edir.

Yeri gəlmişkən, Azərbaycan – Qazaxıstan əməkdaşlığı təkcə iki ölkə ilə məhdudlaşmır. Bu münasibətlər Avropa İttifaqı (Aİ), Çin, Türkiyə və Mərkəzi Asiya ölkələri üçün də mühüm önəm daşıyır. Aİ enerji təhlükəsizliyi baxımından Xəzər hövzəsinə daha çox maraq göstərir. Azərbaycan və Qazaxıstanın neft-qaz və bərpa olunan enerji resursları Avropanın enerji diversifikasiyasında xüsusi rol oynayır. Eyni zamanda, Çin "Bir kəmər, bir yol" təşəbbüsünü həyata keçirərkən Orta Dəhlizə böyük əhəmiyyət verir. Bu baxımdan Azərbaycan – Qazaxıstan əməkdaşlığı Çin üçün də strateji önəm daşıyır.

Azərbaycan və Qazaxıstan TDT-nin fəal üzvləri kimi regional əməkdaşlıq gündəliyinin formalaşmasında aparıcı rol oynayır. Bu strateji tərəfdaşlıq türk dünyasının iqtisadi inteqrasiyasını möhkəmləndirir, vahid nəqliyyat şəbəkəsinin qurulmasına və ticarət əlaqələrinin genişlənməsinə əlverişli şərait yaradır. Eyni zamanda, həmin təşkilat çərçivəsində qəbul edilən qərarlar, o cümlədən vahid gömrük və rəqəmsal ticarət mexanizmlərinin inkişafı həm Bakı, həm də Astanaya əlavə imkanlar qazandırır. Bu da əməkdaşlığın regional çərçivədən qlobal müstəviyə keçidi sürətləndirir.

Bakı ilə Astana arasında qurulan strateji tərəfdaşlıq enerji resurslarının səmərəli istifadəsini və nəqliyyat-logistika imkanlarının genişləndirilməsini də şərtləndirir. Prezident İlham Əliyevin vurğuladığı kimi, iki ölkə arasında əməkdaşlıq təkcə ikitərəfli müstəvidə deyil, həm də regional inteqrasiyanın dərinləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq enerji təhlükəsizliyi, eləcə də nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində yeni əlverişli imkanlar açır.

Hər iki ölkə türk dünyasının ayrılmaz hissəsi kimi TDT çərçivəsində qarşılıqlı fəaliyyəti getdikcə gücləndirir. Dövlət başçılarının mütəmadi görüşləri, imzalanan strateji sazişlər və birgə proqramlar bu münasibətlərin davamlılığını reallaşdırır, tərəflər arasında enerji, nəqliyyat, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində razılaşmaları gerçəkləşdirir, siyasi sabitlik və iqtisadi tərəqqiyə mühüm töhfə verir.

Göründüyü kimi, Azərbaycan və Qazaxıstan TDT çərçivəsində əməkdaşlığın əsas lokomotivlərindən sayılır. Hazırda təşkilatın gündəliyində nəqliyyat əlaqələrinin vahidləşdirilməsi, gömrük prosedurlarının rəqəmsallaşdırılması, vahid enerji bazarının təşkili kimi strateji məsələlər dayanır. Məsələn, TDT çərçivəsində yaradılan "Orta Dəhliz Koordinasiya Şurası"nın fəaliyyəti Azərbaycan və Qazaxıstan arasında logistika əməkdaşlığını daha sistemli edir. Bundan başqa, türk dünyasında vahid sənaye zonalarının təşkili ideyası da müzakirə mövzusudur ki, bu da hər iki ölkə üçün yeni imkanlar aça bilər.

Azərbaycan və Qazaxıstan dünyanın ən zəngin enerji daşıyıcıları ehtiyatlarına malik ölkələr sırasındadır. Qazaxıstan Xəzər hövzəsində hasil olunan neft və qazın böyük hissəsini ixrac edir. Azərbaycanın neft-qaz infrastrukturu isə bu məhsulların dünya bazarlarına çıxarılması üçün mühüm tranzit imkanları yaradır. Yuxarıda vurğulandığı kimi, hazırda Qazaxıstanın xam neftinin bir hissəsi Bakı – Tbilisi – Ceyhan (BTC) kəməri vasitəsilə dünya bazarlarına nəql edilir. Bu əməkdaşlıq həm Azərbaycanın tranzit imkanlarını artırır, həm də Qazaxıstanın ixrac marşrutlarının diversifikasiyasına şərait yaradır.

Eyni zamanda, "yaşıl" enerji sahəsində də əməkdaşlıq da yeni perspektivlər açır. Günəş və külək enerjisi potensialına malik hər iki ölkənin bu sahədə birgə layihələrlə enerji keçidinə töhfə verəcəyi proqnozlaşdırılır. Azərbaycanın "yaşıl" enerji zonası konsepsiyası və Qazaxıstanın bərpaolunan enerji sahəsində artan investisiya cəlbediciliyi gələcəkdə ortaq platformaların yaranmasına imkan verir.

Azərbaycan – Qazaxıstan əməkdaşlığının mühüm sütunlarından biri də Orta Dəhliz layihəsidir. Çin – Avropa istiqamətində yükdaşımaları təmin edən bu marşrut Qazaxıstandan başlayaraq Xəzər dənizi üzərindən Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə vasitəsilə Avropaya qədər uzanır. Orta Dəhliz yalnız tranzit imkanlarını genişləndirmir, həm də yeni iqtisadi zonaların inkişafına təkan verir. Bakı və Astananın bu layihədə birgə fəaliyyəti logistika infrastrukturunun modernləşdirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və rəqəmsal həllərin tətbiqi ilə müşayiət olunur.

Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Aktau dəniz limanı arasında yükdaşımaların həcmi artmaqdadır. Bu, həm Azərbaycan, həm də Qazaxıstan üçün əlavə gəlir mənbəyi olmaqla yanaşı, bütövlükdə regionun iqtisadi təhlükəsizliyini möhkəmləndirir. Azərbaycan – Qazaxıstan ticarət dövriyyəsində son illərdə sabit artım dinamikası nəzərə çarpır. Respublikamız dost ölkədən əsasən taxıl, metal, kimya sənayesi məhsulları alır, əvəzində isə neft məhsulları, maşınqayırma və kənd təsərrüfatı məhsullarını ixrac edir.

Ticarət həcminin genişlənməsi üçün biznes forumların keçirilməsi, sərmayə layihələrinin dəstəklənməsi və qarşılıqlı investisiya təşviqi mexanizmlərinin qurulması xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin vurğuladığı kimi, əlavə biznes imkanlarının yaradılması hər iki ölkənin iqtisadi maraqlarına xidmət edir. İki ölkə arasında əməkdaşlığın inkişafına müsbət təsir göstərən digər bir məqam da dost Qazaxıstan tərəfindən işğaldan azad edilən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşasıdır. Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi də Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni imkanlar yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür.

Azərbaycan və Qazaxıstanın beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilməsinə xidmət edən "Rəqəmsal İpək yolu" layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının inşası istiqamətində görülmüş işlər də xüsusi önəm daşıyır. Bununla bağlı vurğulamaq yerinə düşər ki, "AzərTelecom" və "Kazakhtelecom" telekommunikasiya şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb.

***Vaqif BİNYATOĞLU***
***XQ***

---

*Xuntaçıların məhkəməsi*

# Gəncə və Bərdəyə ballistik raketlər Ermənistan rəhbərliyinin əmri ilə atılmışdı

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 6-da davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında əvvəlcə 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərinin raketlərlə vurulmasına dair sənədlər elan edilib.

Tədqiq olunan sənədlərdə göstərilib ki, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini və beynəlxalq hüquq normalarını, o cümlədən silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də cəbhədən uzaqda yerləşən Gəncə şəhərində yaşayış məntəqələrinə, hərbi hədəf olmayan mülki obyektlərə, həmçinin mülki əhaliyə 9K58 "Smerç" (BM-30) və 9K72 "Elbrus" tipli raketlərlə zərbələr endiriblər.

Sənədlərdə qeyd olunub ki, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də Gəncə şəhərinə edilmiş raket hücumları nəticəsində 26 mülki şəxs qəsdən öldürülüb, 175 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həlak olmuş 26 nəfərdən 10-u kişi, 10-u qadın, 6-sı isə yetkinlik yaşına çatmayan şəxslərdir. Xəsarət almış 175 nəfərin isə 61-i kişi, 66-sı qadın, 48-i isə yetkinlik yaşına çatmayanlardır. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

Sənədlərə əsasən, hadisə yerinə ilkin baxış keçirilməsi haqqında 2020-ci il 11 oktyabr tarixli protokola əsasən müəyyən edilib ki, Ermənistan silahlı qüvvələri ballistik raketdən istifadə etməklə Gəncəyə zərbə endirib. Aparılmış araşdırmalarla müəyyən edilib ki, partlayış 1978-ci ildən sonrakı müddətdə SSRİ-də istehsal olunmuş, NATO təsnifatı üzrə "SS-1c Skud B" adlandırılan 9K72 "Elbrus" markalı əməliyyat-taktiki təyinatlı raketin partlaması nəticəsində baş verib.

Raketin ən çoxunun 275 km uzaqlıqdan, Ermənistanın Vardenis yaşayış məntəqəsindən Gəncəyə istiqamətlənməsi ehtimal olunur. R-17 birpilləli maye yanacaqlı ballistik trayektoriyalı raket keçmiş SSRİ-də istehsal edilib və 1987-ci ildən istehsalı dayandırılıb. Bu tip raketlər keçmiş SSRİ-nin, habelə MDB dövlətlərinin silahlı qüvvələri üçün strateji vasitə olan əməliyyat-taktiki silah sistemlərinə aid olduğundan, tətbiq hüququ müvafiq dövlətin başçısına, habelə onun razılığı ilə müdafiə nazirinə məxsusdur.

Təqsirləndirilən David Manukyan nümayiş olunan raket qurğularının və onların tətbiqinə dair "əmr" verməyin qondarma rejimin "rəhbərliyinin və ordusunun" səlahiyyətində olmadığını bildirib.

Sonra 44 günlük Vətən müharibəsi zamanı Göygöl, Tovuz, Daşkəsən, Samux, Siyəzən, Kürdəmir, Qəbələ rayonlarının, həmçinin Mingəçevir şəhərinin və Göygöl Milli Parkının ərazisinin raket atəşinə tutulması faktları ilə bağlı sənədlər elan olunub.

Elan olunan sənədlərdən biri də 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən müharibə ərazisindən kənarda yerləşən Bərdə şəhərinə raket hücumları ilə bağlı olub. Göstərilib ki, Vətən müharibəsi dövründə ayrı-ayrı vaxtlarda Bərdəyə raket hücumları nəticəsində aralarında uşaq, qadın və yaşlılar da olmaqla 29 nəfər qəsdən öldürülüb, 112 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Məhkəmə prosesi oktyabrın 9-da davam etdiriləcək.

***XQ***

# Türk dövlətləri birliyi – Avrasiyanın yeni iqtisadi güc mərkəzi

## TDT-yə üzv ölkələrin ÜDM-i 2,1 trilyon dollara çatıb

**Son illər təkcə ortaq mədəni və dil birliyi ilə deyil, iqtisadi inteqrasiya sahəsində atdığı uğurlu addımlarla da diqqətçəkən Türk Dövlətləri Təşkilatı (TDT) fəaliyyət göstərdiyi müddətdə səmərəli inkişaf yolu keçib. Təşkilat 173 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyanı təmsil edərək qlobal miqyasda da güclü qurum kimi tanınıb.**

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatı 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə təsis edilib. İlk vaxtlar təşkilatın adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub. 2021-ci ildən isə qurum Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirir. Qurumun əsas məqsədi türkdilli dövlətlər arasında əməkdaşlığı gücləndirmək, regional sabitlik və inkişaf üçün ortaq platforma yaratmaqdır. Təşkilatın üzv ölkələri, ümumilikdə, 170 milyondan artıq əhalini, 4,5 milyon kvadratkilometr ərazini, 2,1 trilyon ABŞ dolları həcmində Ümumi Daxili Məhsulu və zəngin təbii ehtiyatları özündə birləşdirir.

Türkdilli ölkələr arasında siyasət, iqtisadiyyat, elm, təhsil, nəqliyyat və turizm sahələrində əməkdaşlığı genişləndirmək məqsədilə yaradılmış dövlətlərarası blokun üzvləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandır. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusuna malikdir. Təşkilatın mənzil-qərargahı Türkiyənin İstanbul şəhərində yerləşir.

Hazırda TDT ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev üzv ölkələrlə qardaşlıq münasibətlərini yüksək dəyərləndirərək deyib: “Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.

Şübhəsiz, bu fikirlər Prezident İlham Əliyevin Türk dünyasına verdiyi xüsusi önəmin, türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olmasının, həmçinin türk birliyi və həmrəyliyinin, TDT-nin bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə əminliyin parlaq ifadəsidir.



Bu ilin yanvar-avqust ayları ərzində Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi statusa malik ölkələrlə ticarət dövriyyəsi 4 milyard 737 milyon ABŞ dolları təşkil edib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 226,3 milyon dollar və ya 5 faiz artım deməkdir. Ümumilikdə isə hesabat dövründə TDT-yə üzv ölkələrlə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 14,7 faizinə bərabər olub.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2025-ci ilin 8 ayında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 7,9 faiz azalaraq 3,8 milyard dollar, Qırğızıstanla 1,8 dəfə artaraq 53,4 milyon dollar, Qazaxıstanla 3,2 dəfə artaraq 547,6 milyon dollar, Özbəkistanla isə 2,1 dəfə artaraq 292 milyon dollar təşkil edib.

Cari ilin yanvar-avqust aylarında Azərbaycandan Türkiyəyə 30,3 milyon dollar dəyərində 65,4 min ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları, 394,5 milyon dollar dəyərində isə qeyri-neft məhsulları ixrac edilib. Bununla yanaşı, hesabat dövründə Qazaxıstan Azərbaycandan 65,7, Özbəkistan isə 43,2 milyon dollar dəyərində qeyri-neft məhsulları idxal edib. Digər ölkələrə isə sözügedən məhsulların ixracı ilə bağlı göstəricilər qeydə alınmayıb.

Azərbaycanla adıçəkilən ölkələr arasında ticarət dövriyyəsinin artırılması üçün isə potensial olduqca yüksəkdir. Bu səbəbdən də son illər TDT-yə üzv ölkələr nəqliyyat, investisiya, enerji və sənaye kimi mühüm sahələrdə fəal əməkdaşlıq edirlər. Eyni zamanda, ötən müddətdə TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi istiqamətində bir sıra layihələr reallaşdırılıb.

Məlum olduğu kimi, Türk dünyasının iqtisadi inteqrasiyasını gücləndirən əsas amillərdən biri strateji nəqliyyat layihələridir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Bakı–Tbilisi–Qars dəmir yolu kimi layihələr sayəsində təşkilata üzv ölkələr Asiya ilə Avropa arasında körpü rolunu oynayır. Bu marşrutlar Çindən Avropaya yükdaşımaların müddətini 35 gündən 12-15 günə endirir və TDT ölkələrinə illik milyardlarla dollarlıq tranzit gəliri vəd edir.

Bununla yanaşı, enerji sektoru da TDT-nin iqtisadi potensialında mühüm yer tutur. Azərbaycan, Qazaxıstan və Türkmənistanın zəngin neft və qaz ehtiyatları Türkiyənin enerji logistikası imkanları ilə birləşərək regionun enerji təhlükəsizliyində mühüm rol oynayır. TANAP, TAP və Bakı–Tbilisi–Ceyhan kimi kəmərlər vasitəsilə türk dövlətləri Avropa bazarlarına enerji ixracatını artırmaqla yanaşı, öz mövqelərini də gücləndirirlər.

Hazırda TDT-nin uzunmüddətli iqtisadi strategiyası daxilində vahid gömrük məkanının yaradılması, birgə sənaye zonalarının qurulması, ortaq nəqliyyat tarifləri və hətta gələcəkdə ortaq valyuta vahidi ideyası gündəmdədir. Bundan əlavə, hazırda Türk İnkişaf Bankı kimi ortaq maliyyə institutunun yaradılması ilə bağlı da müzakirələr aparılır. Sözügedən təşəbbüslərin həyata keçməsi isə heç şübhəsiz, TDT daxilində sərmayə axınlarını sürətləndirəcək və ticarət maneələrini azaladacaq. Bununla da qurum daxilində iqtisadi inteqrasiya daha sistemli xarakter alacaq.

Təşkilat çərçivəsində rəqəmsal iqtisadiyyat, startapların dəstəklənməsi, kənd təsərrüfatı, təhsil və informasiya texnologiyaları kimi sahələrdə də əməkdaşlıq inkişaf etdirilir. Gələcəkdə bu istiqamətlər üzrə ortaq fondların yaradılması və texnoloji mübadilənin gücləndirilməsi nəzərdə tutulur.

Göründüyü kimi, Türk Dövlətləri Təşkilatı təkcə ortaq tarix, dil və mədəni irs üzərində qurulmuş birlik deyil, həm də real iqtisadi gücə malik, strateji baxışa sahib və gələcəkdə qlobal iqtisadi güc mərkəzinə çevrilmək potensialı olan bir strukturdur. Ekspertlərin qənaətinə görə, inteqrasiya prosesi davam etdirilərsə və üzv ölkələr arasında iqtisadi əməkdaşlıq daha da dərinləşərsə, Türk Dövlətləri Təşkilatı qarşıdakı illərdə Avrasiya məkanında əsas söz sahibi, qərarverici iqtisadi gücə çevrilə bilər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı Şərqin memarlıq ulduzu olacaq

## *Şəhərsalma Forumu Azərbaycana yeni paytaxt anlayışı gətirəcək*

**Bakı növbəti dəfə dialoqun, təcrübə mübadiləsinin və gələcəyə yatırımın mərkəzinə çevrilir. 2026-cı ildə keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) müasir paytaxt anlayışını, planlaşdırma ahəngini və xalqın şəhərin gələcəyinə dair baxışını nümayiş etdirəcək, yeni çağırışları cavablandıracaq.**



ADA Universitetində 13-cü Ümumdünya Şəhərsalma Forumu çərçivəsində "Azərbaycan Şəhərsalma Kampaniyası"nın təqdimatı baş tutub. Bu, böyük hədəfə uğurlu addımın göstəricisidir. BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə təşəbbüsü ilə həyata keçirilən kampaniya şəhərsalma, məskunlaşma, dayanıqlı inkişaf və iqlimlə bağlı çağırışları diqqət mərkəzinə daşıyır.

Tədbirdə qeyd olunub ki, 2026-cı ildə Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumu ərəfəsində tərəfdaşlarla bir sıra təşəbbüslərin həyata keçirilməsi planlaşdırılır. Bu təşəbbüslərin əsas məqsədi müxtəlif maraqlı tərəfləri — hökumət üzvlərini, milli qərarvericiləri, yerli idarəetmə orqanlarını, parlament üzvlərini, gəncləri, qadınları, vətəndaş cəmiyyətini, tədqiqat mərkəzlərini, xeyriyyə təşkilatlarını, elmi-tədqiqat institutlarını, akademik dairələri və əlilliyi olan şəxsləri birgə fəaliyyət platformasında bir araya gətirməkdir.

Qeyd edək ki, forum çərçivəsində şəhərsalma, urban inkişaf və dayanıqlı şəhərlər mövzusunda dünyanın aparıcı mütəxəssisləri bir araya gələcək. İştirakçılar innovativ layihələri, müasir texnologiyaları və urban inkişaf təcrübələrini müzakirə etmək imkanı əldə edəcəklər. Bununla yanaşı, 2026-cı ildə keçiriləcək qlobal tədbirə ev sahibliyinə hazırlıq ölkəmizin mövqeyini gücləndirir. Artıq Azərbaycanın söz sahibi olduğu sahələr arasında ekologiya, iqlim dəyişikliyi ilə mübarizə və dayanıqlı inkişaf da yer alır. Bu sahədə atılan addımlar və qəbul edilən qərarlar isə gələcək üçün önəmlidir.

Digər tərəfdən, BMT-nin Məskunlaşma Proqramının Azərbaycan üzrə rəhbəri Anna Soave jurnalistlərə açıqlamasında deyib ki, 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna iştirak üçün 20 000-dən çox qonaq gələcək. O bildirib ki, WUF13 dünyanın ən böyük tədbirlərindən biridir. 2026-cı ildə Bakıda keçiriləcək WUF13 ərəfəsində tərəfdaşlarla bir sıra təşəbbüslərin həyata keçirilməsi planlaşdırılır. Əsas məqsəd müxtəlif maraqlı tərəfləri – hökumət üzvlərini, milli qərarvericiləri, yerli idarəetmə orqanlarını, parlament üzvlərini, gəncləri, qadınları, vətəndaş cəmiyyətini, tədqiqat mərkəzlərini, xeyriyyə təşkilatlarını, elmi-tədqiqat institutlarını, akademik dairələri və əlilliyi olan şəxsləri birgə fəaliyyət platformasında bir araya gətirməkdir.

Əldə ediləcək nəticələr və formalaşacaq strategiyalar yalnız sənəd səviyyəsində qalmaqla kifayətlənməyəcək, real icra potensialı daşıyacaq. Bu prosesin mərkəzində insan amilinin dayanması isə onun əsas fəlsəfəsini təşkil edir — məqsəd təkcə şəhərləri planlaşdırmaq deyil, dayanıqlı, inklüziv və gələcəyə hesablanmış yaşayış məkanları formalaşdırmaqdır.

Bakı üçün bu forum həm imkan, həm məsuliyyətdir. İmkan — çünki beynəlxalq ekspertlərdən, donor qurumlardan və innovatorlardan gələn biliklər şəhərimizin planlaşdırma təcrübəsini zənginləşdirə bilər. Məsuliyyət isə dəbdəbəli təqdimatlardan sonra real layihələrin həyata keçirilməsi, insanlara çatacaq xidmətlərin yaxşılaşdırılması və ekoloji meyarların qorunmasını tələb edir. Şəhərsalma ilə bağlı müzakirələr küçələrdə, parklarda və məhəllələrdə öz sözünü deməlidir.

Bakı Olimpiya Stadionunda keçiriləcək WUF13 həm də ölkəmizin qlobal rollarından birinin simvoludur: Azərbaycan regional liderlik mövqeyini beynəlxalq urbanizm problemlərinin həllinə yönəldir. Bu, iqtisadiyyat üçün yeni investisiya kanalları, şəhər infrastrukturu üçün texniki əməkdaşlıqlar və ən əsası — vətəndaş üçün daha yaşanılacaq mühit deməkdir. İqlimlə bağlı strategiyalar burada konkret maliyyə və texnoloji dəstək qazandıqca daha effektli nəticələr verəcək.

Şəhərsalma Forumuna paralel olaraq bu gün Böyük Qayıdış Proqramı uğurla icra olunur. Elə beynəlxalq ictimaiyyətin də diqqət mərkəzində bu proses durur. Onlar Azərbaycanın xalqının “qurub-yaradan xalq” olduğunu yaxından izləmək üçün can atırlar. Qlobal güclərə ölkəmizin postmüharibə dövründə iriçaplı layihələrin icrasını necə reallaşdırdığı olduqca maraqlıdır. Bununla yanaşı, tarixi ədalətin bərpası, uzun illər yurd-yuvalarından ayrı düşmüş soydaşlarımızın artıq öz yerlərinə qayıtması bu marağı daha da artırır.

Azərbaycanın şəhərsalma təcrübəsi artıq müstəqil şəkildə formalaşır və dünyaya təqdim ediləcək nümunələr toplusunu zənginləşdirir. Amma həqiqi nailiyyət o zaman görünəcək ki, Bakıda müzakirə olunan ideyalar kəndlərə, rayon və şəhərlərə qədər tətbiq edilsin. Böyük forumun yaradıcılığı yerli praktikalara çevrilməli, nəticələr isə vətəndaşın gündəlik həyatında görünməlidir.

***Nurlan ABDALOV***
***XQ***

**Gələn ay “OPEC plyus” ölkələri neft hasilatını sutkada 137 min barel artıracaqlar. Bu barədə qurumun videokonfrans vasitəsilə keçirilən görüşün yekunlarına dair açıqlamasında bildirib.**

# “OPEC plyus” neft hasilatını artırır

Qeyd olunub ki, hasilatın artırılması ilə bağlı qərar qlobal iqtisadi mənzərənin sabitliyi və əlverişli bazar əsasları fonunda qəbul edilib. Məlumata görə, ən böyük artım Səudiyyə Ərəbistanında gözlənilir və burada neft hasilatı sutkada 41 min barel artacaq. “OPEC plyus” ölkələri bazar konyukturasını yaxından izləməyə və qiymətləndirməyə davam edir. Onlar ehtiyatlı yanaşmanın və əlavə könüllü hasilat düzəlişlərini dayandırmaq və ya ləğv etmək üçün tam çevikliyi qorumağın vacibliyini bir daha təsdiqləyiblər”, – deyə qurumun bəyanatında bildirilib.

Qeyd edək ki, “OPEC plus” OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalını azaltması üzrə təşəbbüsdür. Hazırda Azərbaycan “OPEC plus” formatında Neft İxrac Edən Ölkələr Təşkilatı ilə sıx əməkdaşlıq edir. Ölkəmizin OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə fəallaşıb. 2016-cı ilin yanvar ayında Davos Dünya İqtisadi Forumunda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neftin qiymətinin sabitliyinə nail olmaq üçün OPEC-ə üzv olan və olmayan ölkələrin bir araya gələrək yeni beynəlxalq enerji formatının yaradılması ilə bağlı təşəbbüs irəli sürmüş, nəticədə “OPEC plus” formatı təsis edilmişdir.

“OPEC plus”un iştirakçıları isə Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan və Cənubi Sudandır. “OPEC plus” əməkdaşlığının əsas məqsədi dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.




Xatırladaq ki, Beynəlxalq Enerji Agentliyinin aylıq hesabatına əsasən, bu ilin avqust ayında Azərbaycanda gündəlik neft hasilatı 460 min barel təşkil edib. Bu isə iyul ayının göstəricisindən 10 min barel çoxdur. Qurum analitiklərinin hesablamalarına görə, avqustda Azərbaycanda gündəlik neft hasilatı “OPEC plyus” sazişi çərçivəsində plandan gündəlik 90 min barel geri qalıb. “OPEC plyus” ölkələri nazirlərinin 37-ci iclasında əldə edilmiş razılaşmaya əsasən, 2025-ci il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel təşkil edir.

***XQ***

# Çin – Azərbaycan müəssisəsi bu il 300 elektrobus buraxacaq

**Sumqayıt Sənaye Parkında fəaliyyət göstərən elektrik avtobuslarının istehsalı müəssisəsində bu ilin sonunadək 300 avtobusun istehsalı planlaşdırılır. Bu barədə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**

Bildirilib ki, həmin avtobuslardan 200-ü Bakı, 60-ı Naxçıvan, 40-ı isə Qarabağ regionu üçün nəzərdə tutulur. Avtobuslar 9, 10 və 12 metrlik ölçülərdə olacaq. 9 metrlik avtobuslar əsasən Naxçıvanda, 12 metrliklər Bakıda, 10 metrliklər isə işğaldan azad olunmuş ərazilərdə istismar ediləcək.

Xatırladaq ki, avtobuslar Çin – Azərbaycan ortaq müəssisəsi olan “Azerbaijan Energy Automotive Factory”də istehsal olunur. Müəssisə sentyabrın sonunda fəaliyyətə başlayıb.

***XQ***



*Cəmiyyətin ekologiyası*

# Ata-analar ayrılırlar...

## *Uşaqların isə qəlbi parçalanır*

**Sağlam cəmiyyət, milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərin formalaşması, ilk növbədə, ailədən başlayır. Möhkəm təməl, ülvi hisslər üzərində qurulan ailədə uşaqlar da xoşbəxt böyüyür, sevgi, isti münasibət onlara güvən verir və həyat yolunda düzgün istiqamət seçmələrinə şərait yaradır.**



Lakin böyük ümidlərlə bağlanan nikahlar bəzən boşanmalarla bitir, valideynin seçimi və ya təsadüfi tanışlıq nəticəsində qurulan ailələr uzunömürlü olmur. Bu ayrılmalarda isə ən böyük zərbəni uşaqlar alır, ailədaxili söz-söhbət, mübahisələr onların psixologiyasına mənfi təsir göstərir. Boşanma prosesinin ağrılarını yaşayan uşaqlar gələcəkdə özlərinə partnyor, həyat yoldaşı tapmaqda və davamlı münasibətlər qurmaqda çətinlik çəkirlər.

Çində 3–5 yaşlı 62 min 899 uşaq barədə valideynlərin və qəyyumların verdiyi məlumat əsasında tədqiqat aparılıb. 4 vilayəti əhatə edən genişmiqyaslı araşdırma ata-anaları ayrılmış uşaqların həm sosial-psixoloji, həm də fiziki inkişafdan geri qaldığını ortaya çıxarıb. "BMJ Pediatrics Open" jurnalında dərc olunan tədqiqatın nəticələrinə əsasən, boşanmış ailələrdən olan uşaqların ümumi sağlamlıq və inkişaf göstəriciləri (eHCI indeksi), eyni zamanda, normal inkişaf meyarlarına uyğunlaşma ehtimalı tam ailələrdə böyüyən yaşıdları ilə müqayisədə xeyli aşağıdır. Araşdırmada xüsusilə, fiziki sağlamlıq, oxu bacarıqları, sosial və emosional vərdişlər sahəsində fərqlər daha qabarıq şəkildə özünü göstərib. Alimlər bildiriblər ki, bu nəticələr valideynlərin boşanmasının körpə yaşlı uşaqların gələcək sosial inteqrasiyasına və ümumi rifahına ciddi təsir göstərdiyini sübut edir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Zülfiyyə Sadıq nikahın pozulmasının əsas səbəblərindən birinin xarakterlərin uyğun gəlməməsi olduğunu qeyd etdi:**



– Ailə qurmağa hazırlaşan şəxs partnyoru ilə xarakterinin uyumluluğu haqqında məlumatlı olmalıdır. Komitəyə daxil olmuş vətəndaş müraciətlərinin təhlili göstərir ki, ailələrin dağılması səbəbləri sırasında sonsuzluq, alkoqollu içkilərə və narkotik maddələrə aludəçilik, ailə üzvlərinə etinasız yanaşma, tərəflərin bir-birinə psixoloji təsir göstərməsi, məişət zorakılığı, sosial şəbəkələrin təsiri və sair kimi məsələlər də var.

Müraciət edənlərin həyat hekayəsini nəzərdən keçirərkən məlum olur ki, əksər hallarda nikaha daxil olan şəxslər ailə həyatına psixoloji, sosial və iqtisadi baxımdan hazır olmadıqları üçün üzərlərinə düşən öhdəlikləri yerinə yetirə bilmir və nəticədə tərəflər arasında konfliktlər yaranır. Bu münaqişələr sayəsində onsuz da kövrək olan ailə bağları qopur və çıxış yolu boşanmaya üz tutmaq olur. Ailənin yükü həm qadın, həm kişi tərəfindən çəkilməlidir, əks halda, heç bir ailədən söhbət gedə bilməz.

Boşanma prosesi həm tərəflər, həm də uşaqlar üçün çox həssas dövrdür. Bir çox boşanma hallarında tərəflər ana və ya ata olduğunu unudaraq, uşaqlardan manipulyasiya vasitəsi kimi istifadə edir, psixoemosional vəziyyəti nəzərə almadan onlara, sözün həqiqi mənasında, travma yaşadırlar. Buna görə də natamam ailədə böyüyən uşağın şəxsiyyət kimi formalaşmasında ciddi boşluqlar yaranır. İlk növbədə, uşağın psixoemosional vəziyyəti müvazinətsiz olur, özünüqiymətləndirməsi aşağı düşür, özünü dəyərsiz və kimsəsiz hiss edir, təhsildə müvəffəqiyyətləri zəifləyir, davranışında neqativ elementlər artır.

Ata-ananın ayrılması uşaqlara yaş və psixoloji xüsusiyyətlər nəzərə alınaraq mütəxəssis dəstəyi əsasında izah olunmalıdır. Valideynlər və ailənin digər üzvləri ilə də (nənə, baba, bibi və s.) bu istiqamətdə profilaktik iş aparılmalıdır. Belə ki, nikahın pozulmasından sonrakı dövrdə uşaqların valideynlərin birindən aralı düşməsi, tərəflərdən birinin psixoloji təsirinə məruz qalması və ünsiyyət tələbatının təmin olunmaması kimi hallar da onlarda ciddi psixoloji travmalar yaradır. Bu baxımdan, istər mediasiya, istərsə də məhkəmə psosesləri zamanı valideyn və uşaqların uzunmüddətli psixoloji xidmətə yönləndirilməsi mexanizminin olması vacibdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"na uyğun olaraq Dövlət Komitəsi tərəfindən bu sahədə mütəmadi olaraq maarifləndirmə işi aparılır. 2024 və bu ilin 9 ayı ərzində yeni ailə quran və ailə qurmağa hazırlaşan gənclərin iştirakı ilə psixoloji maarifləndirmə təlimlər keçirilib. Təlimlərdə, ümumilikdə, Bakı şəhərindən və regionlardan 150 cütlük iştirak edib.

Dövlət Komitəsinin tabeliyində olan və 11 rayonda (Bakının Xəzər rayonu, Ağdam, Goranboy, Göygöl, Hacıqabul, İsmayıllı, Qəbələ, Sabirabad, Saatlı, Zaqatala, Zərdab) fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən münaqişəli ailələrlə davamlı olaraq psixososial iş aparılır, cütlüklər psixoloji konsultasiyaya cəlb olunur, icma sakinlərinin iştirakı ilə ailənin qurulmasi və qorunması, ailədəki psixoloji mühit, valideyn bacarıqlarının artırılması və s. mövzularda maarifləndirici görüşlər, uşaq və yeniyetmələrin psixoemosional vəziyyətinin möhkəmləndirilməsi üçün psixoloji treninqlər keçirilir. Ailə bərpa mərkəzlərinin fəaliyyət istiqamətlərinə boşanma səbəblərinin aşkar edilməsi və tərəflərə bununla əlaqədar məsləhətlərin verilməsi, boşanmaq istəyən şəxslərə hüquqi və psixoloji yardım göstərilməsi kimi məsələlər daxildir.

Boşanma hallarının azaldılması üçün məhkəmə proseslərində barışıq mexanizmlərinin geniş tətbiqinə ehtiyac vardır. Boşanma səbəblərinin müəyyən edilməsi, bununla əlaqədar boşanmaq istəyən şəxslərə hüquqi, psixoloji, sosial və digər yardımların göstərilməsi məqsədilə dövlət və ya qeyri-dövlət qurumu olan ailə bərpa mərkəzlərinin yaradılması üçün hüquqi mexanizmlərin müəyyən edilməsi məqsədəuyğundur. Həmçinin ailə psixoloji xidmət sahəsinin strukturlaşdırılmasına və əlaqəli şəkildə fəaliyyət göstərməsinə zəruri ehtiyac var. Belə ki, ailə psixoloqlarının sayəsində yuxarıda göstərilən məsələlərin həlli yollarının tapılması, ailə həyatına hazırlıq, nikahın bağlanması və ya pozulması proseslərinə münasibətin dəyişməsi və bu sahədə mədəni davranışın, düşüncənin formalaşması mümkündür.

**Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov bildirdi ki,** valideynlərin boşanması təkcə



böyüklərin münasibətlərinə deyil, daha çox uşaqların psixoloji durumuna və inkişafına təsir göstərir. Çünki uşaqlar üçün ailə sadəcə birgə yaşadıqları məkan deyil, həm də təhlükəsizlik, sevgi, emosional dəstək və şəxsiyyətin formalaşdığı mühitdir. Bu mühitin parçalanması uşağın emosional sabitliyini pozur və onun sosial münasibətlərinə, təhsil motivasiyasına, özünəinamına mənfi təsir edir.

Araşdırmalar göstərir ki, valideynləri boşanmış uşaqlarda çox vaxt emosional gərginlik, aqressiya, özünü günahlandırma, özgüvən əskikliyi və sosial adaptasiya çətinlikləri müşahidə olunur. Onlar həmyaşıdları ilə münasibətlərdə daha qapalı və ya əksinə, daha üsyankar davranırlar. Bəzən bu hal təhsildəki nailiyyətlərə də mane olur. Səbəb isə diqqətin yayınması, öyrənməyə marağın azalması kimi neqativ hallar göstərilir. Psixoloji gərginlik isə uşaqlarda somatik problemlərə (yuxusuzluq, iştahsızlıq, baş və qarın ağrıları, immun sisteminin zəifləməsi) səbəb olur. Yəni psixoloji narahatlıqlar dolayı yolla fiziki sağlamlığa da təsir edir.

Burada vacib bir məqamı vurğulamaq lazımdır. Belə ki, boşanmanın özü yox, onun idarəolunma forması uşağın gələcək inkişafını müəyyənləşdirir. Əgər valideynlər boşandıqdan sonra da övladlarına sevgi, diqqət və qayğı göstərməyə davam edirlərsə, bir-birini günahlandırmadan sağlam ünsiyyət saxlayırlarsa, uşağın sosial-psixoloji inkişafında ciddi geriliklərin qarşısını almaq mümkündür. Dünya praktikasında və psixoloji tədqiqatlarda da göstərilir ki, boşanmış ailələrin övladları valideynlərin, həmçinin məktəbin psixoloji dəstəyi ilə digər uşaqlar kimi normal inkişaf edə bilirlər. Bu baxımdan, həm dövlət, həm də ictimai qurumlar tərəfindən valideynlərə maarifləndirici dəstək, uşaqlara isə psixoloji xidmətlərin təşkili olduqca əhəmiyyətlidir.

Ümumən götürsək, qeyd edə bilərəm ki, valideynlərin boşanması uşaqlar üçün travmatik prosesdir, lakin düzgün yanaşma və sevgi mühiti qorunduqda bu uşaqlar həm sosial-psixoloji, həm də fiziki baxımdan sağlam böyüyə bilirlər. Əsas məsuliyyət valideynlərin və cəmiyyətin üzərinə düşür ki, uşaqlar bu prosesin mənfi təsirlərindən maksimum qorunsunlar.

**Psixoloq Leyla Əli dedi ki,** valideynləri ayrı yaşayan uşaqlarda həm təhsil nə-



ticələri, həm də emosional sabitlik baxımından müəyyən geriləmələr müşahidə olunur. Psixoloq və ailə terapevtlərinin fikrincə, uşaqlar üçün ən böyük problem valideynlər arasındakı münaqişələrin davam etməsi və onlara qarşı laqeyd münasibətdir.

Uşaq təhlükəsizlik, sevgi və stabil mühitə ehtiyac duyur. Boşanma zamanı bu üç amil pozulduqda, uşaqda həyəcan, özgüvən itkisi, aqressiya və sosial adaptasiya çətinlikləri ortaya çıxır. Mütəxəssislər bildirirlər ki, boşanmış ailələrdə böyüyən uşaqlar daha çox təhsildə geriləmə yaşayır, diqqət və yaddaş problemləri ilə üzləşir, sosial münasibətlərdə çətinlik çəkir, gələcəkdə ailə münasibətlərinə pessimist yanaşırlar.

Boşanma, ailələrin dağılması şübhəsiz ki, uşaqlar üçün ağır sınaqdır. Amma bu sınağın onların inkişafdan geri qalmasına səbəb olmaması valideynlərin məsuliyyətindən asılıdır. Sağlam dialoq, sevgi və psixoloji dəstək sayəsində boşanmış ailələrin övladları da cəmiyyətin fəal üzvlərinə çevrilə bilərlər. Valideynlər unutmamalıdırlar ki, onlar bir-birilərindən ayrılırlar, uşaqdan yox.

Bəli, uşaqların sevgiyə, psixoloji dəstəyə ehtiyacları var. Uşaqlar valideynlərin şəxsi münasibətlərindəki problemlərin qurbanına çevrilməməlidirlər. Onların gələcəyi, təhsili, emosional sabitliyi hər iki valideynin ortaq məsuliyyətidir. Hətta bir yerdə yaşamasalar da, hər iki valideyn uşağın həyatında fəal iştirak etməli, ona həm maddi, həm də mənəvi dəstək göstərməli, hər fürsətdə hiss etdirməlidirlər ki, onların övladlarına olan sevgisi tükənməzdir.

Ana və ata arasında münasibət dəyişsə də, valideyn-övlad bağları qırılmamalıdır. Uşaqlar hiss etməlidirlər ki, onlar sevilirlər, dəyərlidirlər və heç vaxt tək buraxılmayacaqlar. Psixoloqların da qeyd etdikləri kimi, uşağa sevgi dolu bir mühit təmin etmək onun gələcək həyatdakı uğur və xoşbəxtliyinin əsas şərtidir.

***Mehparə ƏLİYEVA***
***XQ***

*XQ-yə yazırlar*



# "Xalq qəzeti" – Xalqın qəzeti

**Hörmətli oxucular! Hər bir mətbu nəşrin əsas vəzifələrindən biri oxucuların arzu və təkliflərini, şikayət və tənqidi qeydlərini öz səhifələrində geniş işıqlandırmaqdır. "Xalq qəzeti" bu məsələyə daim diqqət yetirdiyi, oxucularla sıx əlaqələr qurduğu üçün onların etimadını qazanıb.**

Qeyd edək ki, 20-30 il əvvəl redaksiyamıza hər gün yüzlərlə məktub daxil olurdu. Təəssüf ki, son illər oxucuların qəzetlərə ünvanladıqları məktubların sayı kəskin azalıb. Bunun da əsas səbəbi bəllidir. Elektron texnologiyalar dönəmində insanlar problemlərini daha çox sosial şəbəkələrdə ictimailəşdirməyə üstünlük verirlər.

Buna baxmayaraq, redaksiyamız oxucu məktublarına, təklif və şikayətlərə hər zaman açıqdır. Sizi narahat edən hər bir məlumatı, arzunu, təklifi, şikayət məktubunu dərc etməyə, onun sonrakı taleyi ilə maraqlanmağa hazırıq.

Bizə məktub yazın, e-mail göndərin və ya redaksiyamıza zəng edin. Sizin səsiniz qəzetimizin səhifələrdə daha da gur eşidilə bilər. Gəlin, həyatımızın daha yaxşı, ədalətli və şəffaf olması üçün birgə çalışaq.

## Sevdiklərimizdən çox yazın

**Hörmətli redaksiya! Bu günlərdə "Xalq qəzeti"nin səhifələrində Şüvəlandakı Mir Mövsüm Ağa ziyarətgahı haqqında yazını oxuyub çox təsirləndim. Xalqımızın qəlbində Ağaya daim dərin hörmət və ehtiram olub. Buna görə də həm müəllifə, həm də qəzetin redaksiyasına təşəkkür edirəm.**

XQ-də Bakı kəndlərinin tarixi, mədəniyyəti və bugünkü inkişafından bəhs edən yazıları həvəslə oxuyuram. Son 2-3 ildə XQ-də maraqlı yazıların sayı çox artıb. Əziz jurnalistlər, qələminiz daha da iti, kəsərli olsun!

***Ülfət MƏMMƏDOV,***
***Şüvəlan qəsəbəsi***

## Tibbi sığorta əlçatandırmı?

**Son aylar ərzində şəhərimizdəki bir çox tibb müəssisələrində tibbi sığorta ilə müayinələr üçün qeydiyyatdan keçmək istədikdə, hər dəfə çox uzun növbələrlə qarşılaşmışam. Bəzi hallarda sadə bir müayinədən keçmək üçün hətta günlərlə gözləməli olmuşam.**

Tibbi sığortanın məramı vətəndaşlara vaxtında, keyfiyyətli və əlçatan tibbi xidmət göstərməkdirsə, mövcud vəziyyət bu məqsədlərdən çox uzaqdır. Nəticədə vətəndaşlar naəlac qalaraq özəl klinikalara üz tutmalı olurlar. Oradakı qiymətlər isə kəlləçarxa çatır.

Çox istərdim ki, sevimli XQ-nin səhifələrində bu məsələ araşdırılsın və tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilsin.

Əvvəlcədən təşəkkür edirəm.

***Mehriban BAĞIROVA,***
***paytaxt sakini***

## 52 saylı marşrutun 50 dərdi var...

**Hörmətli redaksiya, biz paytaxtın Mir Mahmud Kazımovski küçəsində yaşayırıq. Küçənin bir tərəfi 4-cü (Nəsimi), əks tərəfi isə 6-cı mikrorayona (Binəqədi) aiddir. Əhali arasında "Vorovski" adlandırılan qəsəbənin bir hissəsi də ora çıxır.**

Bu 3 ərazinin sakinlərinə yalnız 52 saylı marşrutun avtobusları xidmət edir. Marşrut xəttində isə eyni gündə 3-4 avtobus olar, ya olmaz. Dəfələrlə "Xaliq Faiqoğlu" şirkətinə avtobus sayının artırılması ilə bağlı həm telefonla, həm də məktub vasitəsilə müraciət etmişəm. Amma nəticəsi olmayıb. Hər dəfə söz verilib, vədə əməl edilməyib.

Vaxtilə bu marşrut xətti nümunəvi sayılırdı. O vaxt avtobuslar arasında interval 4 – 5 dəqiqə idisə, indi 40 – 50 dəqiqədir. Qarşıdan isə qış gəlir. Şaxtalı günlərdə 30–40, bəzən hətta 50 dəqiqə gözləmək heç kəsə asan gəlməsin. Bunun xəstəsi, yaşlısı, ahılı var. XQ bizə bu məsələdə yardımçı olarsa, çox minnətdar olarıq.

***Lamiyə HÜSEYNOVA,***
***Binəqədi rayonu,***
***6-cı mikrorayon sakini***

## Bəlkə, əxlaq polisi?..

**Bu günlərdə belə bir səhnənin şahidi olmuşam. Bir nəfər şişman kişi iri, az qala avtobus boyda şəxsi maşınından düşüb yaxınlıqdakı kioskdan bir qutu siqaret aldı. Maşına yaxınlaşa-yaxınlaşa qutunun qapağını açıb cığaranı çıxarıb yerə tulladı. Halbuki, cəmi 2-3 addımlıqda zibil yeşiyi vardı. Papirosu yandırıb bir neçə qullab vurdu, sonra özündən razı halda maşına minib oradan aralandı.**

Bu səhnəni təsvir edərkən hansısa bir məşhur yazıçının sözləri yadıma düşdü. Yazıb ki, mədəni adam o kəsdir ki, əlindəki zibili qarşısına zibil yeşiyi çıxana qədər ovcunda saxlaya bilir. Gəlin etiraf edək ki, bizim gözəl və qədim şəhərimizin səliqə-sahmanını düşünənlərin sayı çox azdır.

Nə etmək olar? Təklif edirəm ki, qəzetlər bu barədə tez-tez yazsınlar, radio və televiziyalar belə halları çəkib göstərsinlər. Bəlkə də ölkəmizdə ekologiya polisi yaradılsın. Niyə də olmasın... Eşitdiyimə, bildiyimə görə bir çox ölkələrdə belə qurumlar çoxdan mövcuddur.

***Aybəniz SƏRDARQIZI,***
***Bakı sakini***

***Məktubları çapa hazırladılar:***
***Nurəngiz ADİLQIZI,***
***Zərifə BƏŞİRQIZI,***
***Məsaim HACIXANLI***
***XQ***



# Liman – Lənkəranın “şəhər balası”

**Planetlərin ətrafında onların cazibə dairəsində dolanan peyklər olduğu kimi, iri şəhərlərin, paytaxtların da yaxınlığında peyk-şəhərlər mövcuddur. Bakı ətrafında Sumqayıt və Xırdalan, Xaçmaz rayonunda Xudat, Cəlilabadda Göytəpə, Lənkəran yaxınlığında isə Liman belə peyk-şəhərlərdəndir.**

Lənkəranın peyk-şəhəri ötən əsrin sonuna qədər – düz 75 il Port-İliç qəsəbəsi kimi tanınıb. Əsrin son ilində isə şəhər statusu alıb və artıq 25 ildir ki, Liman şəhəri adlanır. Ötən ilin statistikasına görə, 12 mindən artıq əhalisi var.



Bu Xəzəryanı şəhər bir vaxtlar Balıqçılar kəndinin bir hissəsi idi və limanı ilə məşhurlaşmışdı. Port-İliç adı həmin əraziyə ötən əsrin əvvəllərində ermənilərin və ağqvardiyaçı denikinçilərin bu ərazilərdə qeyri-azərbaycanlıları məskunlaşdırması səbəbindən verilib. Tarixi sənədlərdən məlumdur ki, qəsbkarlar burada da kütləvi qətl və qarətlər həyata keçiriblər. Hərbi “paraxoddan” şəhər top atəşinə tutulub. Yəni nə vaxtsa irticaya əsaslanan bu ad dəyişdiriləcəkdi. Bu, sovet dövründə mümkün olmasa da, müstəqillik bərpa edildikdən sonra, nəhayət, baş tutub.

Böyük yaşayış məntəqəsində rayonun balıq kombinatı olub, əhali duz istehsal edib, eləcə də iri ərzaq və emal bazaları burada yerləşib. İndi yalnız neft terminalı bazası qalır. Limanda, həmçinin dəyir-



man, broyler fabriki, çörək sexi və fermer təsərrüfatları fəaliyyət göstərir. Qumbaşı və Şirinsu kəndləri də bu inzibati əraziyə daxildir. Çayçılıq və sitrusçuluq sahələri inkişaf etdirilir. Lənkəranda aparılan geniş abadlıq-quruculuq işləri, infrastruktur yenilənmələri, sosial inkişaf peyk-şəhərə də təsirsiz ötüşməyib. Qumbaşı tərəfdəki “Qala” kompleksinin səliqə-sahmanı şəhər barədə ilk xoş təəssürat yaradır.

Dron videosunda Liman şəhərinin mərkəzi küçəsi 2 əsas döngəsi ilə balıqçı qarmağını xatırladır. Yadıma 84 illik ömrünü bütünlüklə burada yaşamış, AYB Lənkəran bölməsinin rəhbəri olmuş şair İltifat Salehin misraları düşür:

***Bu Liman şəhəri – kövrək xatirə,***
***Ötən günlərimə işıqlı cığır.***
***Sahilə gedəndə qarmaq atmağa***
***Yadına düşərsəm, məni də çağır...***

Yeri gəlmişkən, adı romantik ovqat yaradan şair və yazıçıların xatirəsi Liman şəhərində layiqincə əbədiləşdirilib. Burada M.Ə.Sabir, M.V.Vidadi, M.Ş.Vazeh, Mikayıl Müşfiq, C.Cabbarlı, N.Nərimanov, R.Rza, Ş.Aslan kimi, İ.Salehin də adına küçə var. Əksəriyyətində abadlıq işləri görülüb.

Yeni əsrin əvvəllərindən “üzü gülən” Liman şəhəri xeyli gözəlləşib. Burada 4 tam orta məktəb, 5 uşaq bağçası, Sağlamlıq mərkəzi, vağzal, rəqəmsal ATS və şadlıq sarayı, 4 ibadətgah var. Cənub Regional Boks Mərkəzi fəaliyyət göstərir. Şəhərin əsas parkı öz yaşıllığı, fəvvarəsi ilə yolçulara “gəl-gəl” deyir. Dekorativ ağaclar, oturacaqlar, işıq qəndilləri dincələnlərin tam rahatlığı üçündür.

“Konstitusiya və Suverenlik İli” ilə bağlı təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq mart ayında Ələt-Astara avtomobil yolunun Lənkəran rayonundan keçən hissəsində ağacəkmə aksiyası keçirilib. Boladi, Girdəni, Haftoni, Qrumba, Şağlakücə, Kərgəlan, Şürük, Səpnəkəran və Sütəmurdov əraziləri ilə bərabər, Limanda da yüzlərlə sərv tingləri basdırılıb, yeni əkinlər suvarılıb və dayaqlarla bərkidilib. Ağacəkmə aksiyası ilboyu davam etdirilir.

Bir qədər öncə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq, Liman şəhər inzibati ərazi dairəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbulunu keçirib. Sakinlərin



qayğı və problemlərinin öyrənilməsinə, qaldırılan məsələlərin həllinə operativ və ədalətli yanaşılmasına xidmət edən qəbulda əvvəlki görüşdə qaldırılan məsələlərin icra vəziyyətindən danışılıb. Vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılmasının, birbaşa dialoqun təşkilinin Prezident İlham Əliyev tərəfindən məmurlar qarşısında qoyulan əsas tələblərdən olduğunu qeyd edən Taleh Qaraşov bildirib ki, səyyar görüşlərdə qaldırılan bütün məsələlər onun şəxsi nəzarətindədir və hər birinin icra vəziyyəti barədə qanunvericiliyə uyğun müddətdə vətəndaşlara cavab verilir.

Nazirlər Kabinetinin 9 sentyabr 2025-ci il tarixli qərarı ilə Liman şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı təsdiq olunub. Qeyd edək ki, cari ilin may ayında Lənkəran Şəhər İcra Hakimiyyətində Liman şəhərinin Baş Planının 22 dövlət qurumu ilə razılaşdırılmış yekun layihəsinin ictimai müzakirəsi keçirilib. Şəhərin uzunmüddətli perspektiv inkişafını təyin edən əsas şəhərsalma sənədi olan Baş planda əhalinin artım səviyyəsinə əsasən (hesabat müddətinin sonuna qədər Liman şəhəri əhalisinin artaraq 14000 nəfərə çatması gözlənilir) rahat həyat şəraitinin təmin edilməsi üçün müasir yaşayış komplekslərinin inşası, mövcud infrastrukturun təkmilləşdirilməsi, həmçinin iqtisadi imkanların genişləndirilməsi və sakinlərin məşğulluğunun təmin edilməsi üçün sənaye ərazilərinin yenidən qurulması, ictimai-işgüzar zonaların yaradılması nəzərdə tutulur. Baş plandakı perspektiv işlərin icrası fəaliyyət növlərinə görə zamanla, mərhələlər üzrə həyata keçiriləcək...

İyun ayında Cənub Regional Boks Mərkəzi əsaslı təmirdən sonra istifadəyə verilib. Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, Boks Federasiyasının vitse-prezidenti, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli də iştirak ediblər. Buradakı şəraitlə tanışlıq zamanı vurğulanıb ki, Mərkəz sadəcə bir idman zalı deyil, eyni zamanda, sağlamlığın, iradənin, gənclərin inkişafının və vətənpərvərliyin simvoludur. Zaman-zaman burada güclü idmançılar hazırlanıb. Xüsusilə, Əməkdar məşqçi Əlizadə Əsədovun rəhbərliyi ilə boks idman növü inkişaf edib.

Lənkəranın peyk-şəhəri Limanda sevinc, fərəh, firavanlıq lövbər salıb. Mayakı sabaha inamdır Limanın.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Naxçıvan şəhərində “Böyük bağ” Mədəniyyət və İstirahət parkı var. El arasında, sadəcə, “Böyük bağ” kimi tanınıb. Yaşı bir əsrdən çox olan bu bağ yaşlı nəslin yaddaşında unudulmaz anların yaşandığı bir məkandır. Bir vaxtlar şəhərin ictimai-mədəni həyatının mərkəzi olub.**

# Naxçıvanın “Böyük bağ”ı

“Böyük bağ” 1914-cü ildə yerli xeyriyyəçilər – Şahbazağa Kəngərli və Kərbəlayi Musanın maliyyə vəsaiti hesabına salınıb. Onlar həm də Naxçıvan şəhərinə ilk dəfə içməli su xətti çəkdiriblər. Bağı suvarmaq üçün şəhərin ortasından axan Bazar çayından bura su arxı da çəkilib. İlk olaraq bağda çinar, qarağac, akasiya və s. ağaclar əkilib. Əvvəlcə adına “Padşah bağı” deyilib, müəyyən bir dövrdə isə “Sultaniyyə” də adlandırılıb.



Deyilənlərə görə, bu ərazi vaxtilə köhnə qəbiristanlıq yeri olub. Rus tədqiqatçısı Nikitinin yazdığına görə, bu yerdə lap əvvəllərdən tatarlar (yəni azərbaycanlılar) dəfn olunublar. Mərhum ədəbiyyaşünas-alim, ulu öndər Heydər Əliyevin müəllimi olmuş Lətif Hüseynzadə xatirələrində yazırdı ki, 1918-ci ilin qırğınlarına son qoymaq üçün Azərbaycanın bir çox bölgələrinə, eləcə də Naxçıvana gələn türklərin buradan getməsi ərəfəsində Rüşdiyyə məktəbində Kazım Qarabəkir paşa ilə vida görüşü keçirilib. Sonra Kazım Qarabəkir paşa əsgər və zabitlərlə, həmçinin Hüseyn Cavid əfəndi ilə birlikdə “Böyük bağ”dakı şəhid məzarlarını ziyarətə gediblər. Şəhidlərin ruhuna fatihə oxuduqdan sonra müəllimimiz – Türk dünyasının böyük şairi Cavid əfəndi dedi: “Şəhidlər Tanrı aşiqləri ərlər-ərənlərdir, millət, vətən fədailəri, qəhrəmanlardır. Şəhidlər ölməz, onlar əbədiyyətə qovuşarlar.



***Vətən eşqinə can nişan edən ərlər,***
***Əbədi bir həyat içində gülər!***

Sonra Kazım Qarabəkir bir məzarın başdaşı yanında diz çökdü. Əsgərlər ehtiram əlaməti olaraq 12 yaylım atəşi açdılar”.

Qeyd edək ki, 1926-cı ildə Naxçıvana gələn rus tədqiqatçısı V.M.Sısoyev yazırdı: “Şəhərin ən sevimli yeri olan bağda çoxlu cavan ağaclar vardı. Həmin sahədə özündə keçmiş ənənələri əks etdirən klub, həmçinin rəngli taxtalardan düzəldilmiş teatr səhnəsi, sadə bir binada restoran yerləşirdi. Teatrda yay mövsümündə axşamlar Şərq çalğı alətləri ilə konsertlər verilirdi. Axşamlar şəhər əhalisinin əksəriyyəti bağa gəlib əylənirdi”.

Teatr həvəskarları 1917-ci ilin iyun ayında Əliqulu Qəmküsarın Tiflisdən Naxçıvana gəlməsindən istifadə edib “Ölülər”i hazırlayıblar və şəhər bağındakı klubda tamaşaya qoyublar.

1938-ci ildə burada tikilən teatr binası isə 1951-ci ildə yanğın nəticəsində tamamilə yararsız hala düşüb. Naxçıvan Muxtar Respublikasının 40 illiyində teatr yeni binaya köçürülüb. Ötən əsrin 50-ci illərində bağa “Lenin adına Mədəniyyət və İstirahət Parkı” adı verilsə də, şəhər əhalisi bu bağı “Böyük bağ” adlandırmaqda davam edib. 1970-ci illərin ortalarından isə bağda Naxçıvan Dövlət Filarmoniyası fəaliyyət göstərməyə başlayıb. Filarmoniya Heydər Əliyev Sarayına köçdükdən sonra orada Mədəniyyət evi fəaliyyət göstərməyə başlayıb və Mədəniyyət evinin bir hissəsində Naxçıvan şəhər kitabxanası yaradılıb.

Bunu da qeyd edək ki, ötən əsrin 90-cı illərində bağ müəyyən qədər baxımsız vəziyyətə düşsə də, sonrakı illərdə burada geniş abadlıq işləri aparılıb. Bağın ərazisindəki piyada yolları abadlaşdırılıb, skamyalar yenilənib. Şəhər sakinlərinin rahat istirahət etmələri üçün lazımi şərait yaradılıb. Son dövrlərdə isə bağın içərisindəki “Çay evi” bərpa edilərək müasir görkəmə salınıb.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Pambıq Sabirabadın “çörək ağacı”dır

## *“Ağ qızıl”ın bir lopası da kolda qalmır*

**Sabirabad pambıqçılıq sahəsində ölkəmizin zəngin ənənələri olan rayonlarındandır. Yaşlı nəslin nümayəndələri, yəqin ki, yaxşı xatırlayırlar. Sabirabadın əmək kollektivləri 1970-1980-ci illərdə pambıqçılıq sahəsində böyük uğurlar qazanırdılar. Elə illər olurdu ki, rayondakı pambıq plantasiyalarından 100 min tondan çox “ağ qızıl” toplanaraq dövlətə təhvil verilirdi.**



Təəssüf ki, 1990-cı illərin əvvəllərində bu mühüm sahəyə diqqət və qayğı azaldı. Bunun nəticəsində torpaqda çalışanların əli, necə deyərlər, işdən soyudu. Son illər ölkəmizdə pambıqçılığa münasibət tamam dəyişib. Bu sahənin dirçəldilməsi və davamlı inkişafı üçün əməli addımlar atılır.

Muğanın əmək adamları pambıqçılığa münasibətin dəyişməsindən ruhlanırlar. Bu il Sabirabadda 11 min 86 hektar sahədə bol pambıq yetişdirilib. Artıq bir aya yaxındır ki, fermerlər həvəslə məhsul yığımına başlayıblar.

Rayon statistika idarəsində bildirdilər ki, bu il pambıq yığımının sürəti ötən ildəkinə nisbətən daha yüksəkdir. Bu, öz növbəsində, əsasən 2 amillə izah olunur. Bir tərəfdən pambıq plantasiyalarında məhsul boldur, o biri tərəfdən də fermerlər pambıqyığan maşınlardan, digər texnikalardan daha səmərəli istifadə edirlər.

Bu günlərdə rayonun Zəngənə kəndində “Əmək” ordenli fermer Əfras Əsgərovun sahəsində olduq, onunla builki pambıq yığımı kampaniyası barədə söhbət etdik.

Təcrübəli fermer dedi ki, pambıqçılığın inkişaf etdirilməsinin Muğanın əmək adamları üçün faydası çoxdur. Bu, kənd əhalisinin məşğulluğunu təmin edən çox gəlirli sahədir.

Əfras kişi söylədi ki, başçılıq etdiyi fermer təsərrüfatının üzvləri bu il 150 hektar sahədə məhsul yetişdiriblər. İndi əsas məsələ bol məhsulu mümkün qədər və itkisiz toplamaqdır. Təcrübəli fermer ümid edir ki, bu il hər hektardan orta hesabla 40 sentnerdən çox məhsul toplamaq mümkün olacaq.

Zəngənə kəndində digər pambıqçı fermer Xosrov kişi ilə də tanış oldum. Fəxrlə dedi ki, uşaqlıqdan onu zəhmətsevər böyüdüblər. “Belə ki, ata-ananın 17-ci övladı olub. Hara buyurublar, ora yüyürüb, tapşırılan işin öhdəsindən gəlib”.



Xosrov kişi məlumat verdi ki, başçılıq etdiyi fermer təsərrüfatının üzvləri bu il 75 hektar sahədə pambıq əkiblər. Artıq bir neçə gündür ki, pambıqyığan kombaynlar tarlaya çıxıblar. Elə gün olur ki, maşınlarla 40 tona yaxın “ağ qızıl” toplanır. Fermerin sözlərinə görə, hələlik əllə yığıma ehtiyac yoxdur. Əlbəttə, kombaynlar “öz işlərini görəndən sonra” sahələrdə əllə yığım başlayacaq.

Sonda bir məqamı da qeyd etmək lazımdır. Hər iki fermer pambığın hazırkı satınalma qiymətlərinin aşağı olmasından giley etdilər. Dedilər ki, 5 ildir ki, zavodlar pambığın kiloqramını 80 qəpikdən alırlar, ancaq bu illər ərzində təkcə yanacağın qiyməti azı 20-25 faiz artıb. Texnika və gübrələrin də qiymətləri yüksəlib. Fermerlər ümid edirlər ki, müvafiq qurumlar bu məsələnin həllinə diqqətlə yanaşacaqlar.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

### 6 oktyabr

• Prezident İlham Əliyev Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu günlərdə çox açıq, qətiyyətli bəyanatlarını yüksək dəyərləndirib.

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib.

• Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. Müzakirədə əks-hücum əməliyyatında mövcud vəziyyətin təhlili aparılıb. Düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl şəkildə darmadağın olunmasının davam etdirilməsi tapşırılıb.

• Azərbaycan Respublikası Baş Prokurorluğunun yaydığı məlumatda qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində həlak olmuş şəxslərin sayı 27-yə, xəsarət alanların sayı isə 141-ə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 376 evə və 63 mülki obyektə ciddi ziyan dəyib.

• Dövlət Təhlükəsizliyi Xidməti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə etdiyini təsdiqləyən radio danışıqları ələ keçirib.

• Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı, Avropa Konstitusiya Məhkəmələrinin Konfransı, habelə Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyası təşkilatları çərçivəsində dünyanın bütün Konstitusiya məhkəmələrinə ünvanladığı bəyanatda Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının mütəmadi xarakter aldığını, nəticədə döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərimizin ağır artilleriya atəşinə məruz qaldığını bildirib.

### 7 oktyabr

• Müdafiə Nazirliyinin məlumatına əsasən, ordumuz müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrdən təmizləyib. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər döyüş vasitələri məhv edilib.

• Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib.

• Azərbaycan Prezidenti İlham Əliyev "CNN-Türk" televiziyasına müsahibəsində bildirib ki, hər şey plan üzrə gedir. Bu gün Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Artıq bir şəhər və bir çox kəndlər işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir. Bildiyiniz kimi, erməni silahlı qüvvələri keçən ayın 27-də bizə qarşı yeni hücuma keçdilər və bizim bir çox şəhərlərimiz, kəndlərimiz atəş altındadır. Bu günədək bizim mülki şəxslər arasında 30-a yaxın itkilərimiz, şəhidlərimiz var. Ermənistan silahlı qüvvələri bizim şəhərlərimizi, kəndlərimizi atəşə tutur və minə yaxın ev ya dağıdılıb, ya da ki, böyük ziyan görüb. Lakin hər şey plan üzrə gedir və ümid edirəm ki, qarşıda duran vəzifələr icra olunacaqdır.

• Prezident İlham Əliyev "Euronews" televiziyasına verdiyi müsahibədə atəşkəsin birtərəfli qaydada əldə oluna bilməyəcəyini bildirib: "Bu, ikitərəfli qərar olmalıdır və həm də yerində həyata keçirilməlidir. Bildiyiniz kimi, sentyabrın 27-də Ermənistan bizə hücum etdi, bizim hərbi mövqelərimizə hücum etdi, infrastruktura ziyan vurdu, mülki şəxslərə hücum etdi. İndiyədək demək olar ki, 30 mülki şəxsimiz Ermənistanın hücumu, o cümlədən ballistik mərmi və kasetli bombalarla törədilmiş hücum nəticəsində həlak olub. Bizim əks-hücumumuz uğurlu oldu. Biz işğal olunmuş ərazilərimizin bir hissəsini azad etməyə müvəffəq olduq. Bizim əsas məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir".

• Prezident İlham Əliyevin XXIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına müraciətində deyilir: "Hörmətli sammit iştirakçıları! Sizi səmimi-qəlbdən salamlayır və "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sülh və dialoqun təşviqinə, regional və qlobal əməkdaşlığın genişləndirilməsinə töhfələrini yüksək qiymətləndirirəm. Avrasiya İqtisadi Zirvə toplantıları Avrasiya bölgəsində iqtisadi, siyasi münasibətlərin inkişafı və xalqlar arasında əlaqələrin dərinləşməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Regional əməkdaşlığın mühüm platformalarından birinə çevrilmiş bu ənənəvi görüşlərdə zamanın yeni çağırışlarının və müasir inkişaf meyillərinin daim diqqət mərkəzində saxlanılması təqdirəlayiqdir".



• Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabındakı paylaşımında qeyd edib: "Ermənistan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə kaset tipli raket atıb. Raketlər Yevlax rayonu ərazisində BTC boru kəmərindən 10 metr aralı düşüb. 300-dən çox kaset tipli bombaların qəlpələri ətrafa yayılıb. Boru kəmərinə heç bir ziyan dəyməyib. ANAMA hadisə yerində işləyir. Ermənistan enerji infrastrukturuna çarəsiz hücum cəhdləri edir".

• Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə işğalçı ordunun respublikamızın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanın yeni statistikasını açıqlayıb. Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində oktyabrın 7-də həlak olmuş şəxslərin sayı 30-a, xəsarət alanların sayı isə 143-ə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 427 evə və 66 mülki obyektə ciddi ziyan dəyib.

*Mustafa KAMAL*
*XQ*

# Zəfər yürüşündə atəşkəs

## *İşğalçı Ermənistan məğlubiyyət yolundan geri çəkilmədi*



**Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il oktyabrın 6-da Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibəsində jurnalistin "müharibədə atəşkəs əldə edilib Azərbaycan və Ermənistanın danışıqlar masası arxasında əyləşməsi üçün nə baş verməlidir?" sualına cavabında deyib: "İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə – erməni işğalçı qüvvələri Azərbaycanın ərazilərini ələ keçirdikləri dövrdə qəbul edilmiş 4 qətnaməsi yerinə yetirilməlidir. Bu qətnamələrdə təcavüzkara çox dəqiq siqnal göndərilir. Orada yazılıb ki, işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılması təmin edilməlidir".**

Dövlət başçısı daha sonra sözlərinə əlavə edərək bildirib ki, o vaxtdan 27 il keçib. Erməni tərəfi həmin qətnamələri yerinə yetirmir, onlara məhəl qoymur və hər vasitə ilə münaqişəni mümkün qədər çox, mümkün qədər uzun müddətə dondurmağa çalışır. Status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışları havada qalır. Buna görə ermənilərin mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasına əsaslandığı halda, bizim düşüncəmiz beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır. Fikrimcə, BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan tərəfindən yerinə yetirilən kimi hər iki tərəf qısa müddətdə razılığa gələr, Qafqazda sülh bərqərar olar.

Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsinin ən gərgin günlərində Rusiya televiziyasına verdiyi bu müsahibə həm də beynəlxalq ictimaiyyətə bir daha aydın mesaj idi. Dövlət başçısının mövqeyi – bölgədə sülhün yeganə təminatının Ermənistanın işğal siyasətinə son qoyması, eləcə də BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrası ilə mümkünlüyü – həm hüquqi, həm də siyasi baxımdan qətiyyətlə ortaya qoyuldu.

Xatırladaq ki, 1993-cü ildə qəbul edilən həmin 4 qətnamə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış mövqeyini təsdiqləyirdi. Qətnamələrdə açıq şəkildə işğal olunmuş ərazilərin qeyd-şərtsiz azad edilməsi tələb olunurdu. Lakin illər boyu Ermənistan bu öhdəlikləri icra etmədi, status-kvonu qorumağa çalışaraq münaqişəni süni şəkildə uzatdı. Bu, nəinki beynəlxalq hüquqa, həm də region xalqlarının sülh və təhlükəsizlik maraqlarına zidd idi.

Prezident İlham Əliyevin müsahibədə vurğuladığı kimi, Azərbaycanın mövqeyi tarixi ədalətə, beynəlxalq hüquqa əsaslanırdı. Ermənistan isə əsassız iddialar və uydurma arqumentlərlə prosesi dondurmağa səy göstərirdi. Bu isə yalnız yeni gərginliklərə yol açır, bölgəni davamlı sülhdən uzaqlaşdırırdı.

Sözügedən müsahibədə bir məqam da diqqət çəkdi. "Hər bir müharibə gec-tez sülhlə başa çatır. Siz həmin anı necə təsəvvür edirsiniz?" sualına cavabında dövlətimizin başçısı qeyd etdi ki, bu barədə danışmaq çətindir, ona görə ki, erməni işğalçılar ayrı-ayrı zamanlarda apardıqları savaşlarda xalqımıza o qədər əzab-əziyyət veriblər, müsibətlər yaşadıblar ki, indi o vəhşilikləri bir mənzərə şəklində təsəvvür etmək çox çətindir.

Azərbaycan lideri "Pervıy Kanal"a bildirdiyi kimi, bizdə 30 ildən çox bir müddətdə sülh olmayıb. Son 20 ildən çox bir zamanda isə atəşkəs hökm sürüb. Eyni zamanda, bu atəşkəsin davamlı, möhkəm olmamasını hamı bilib. Buna görə Rusiya, ABŞ və Fransa prezidentlərinin şəxsində Minsk qrupunun həmsədrləri tərəfindən dəfələrlə bəyanatlarla çıxışlarda bu barədə danışılıb, status-kvonun qəbuledilməzliyi haqqında fikir bildirilib. Çünki bu atəşkəsin çox amanabənd olduğu, savaşın hər hansı bir vaxtda başlayacağı şübhə doğurmayıb. Bugünkü eskalasiya ilə bu, bir daha öz təsdiqini tapıb. İndi Ermənistanın təqsiri üzündən artıq müharibə başlayıb. Bundan çıxış yolu isə region dövlətləri bu məsələdə fəal iştirak etməli, beynəlxalq təşkilatlar zəmanət verməli və əlbəttə, azərbaycanlılar beynəlxalq hüquqa görə onlara məxsus olan torpaqlara qayıtmalıdırlar.

Azərbaycan liderinin ovaxtkı bəyanatı, əslində, sülh formulunun – Ermənistan ordusunun işğal olunmuş ərazilərdən çıxması, ardınca danışıqların real nəticələrə gətirib çıxarması kimi konturlarını cızırdı. Bu, həm beynəlxalq ictimaiyyətin, həm də ATƏT-in Minsk qrupu həmsədrlərinin illərlə dilə gətirdiyi mövqeyin praktiki ifadəsi idi.

Azərbaycan haqlı və ədalətli mövqeyində sonadək israrlı oldu. Müharibənin nəticələri, ərazilərin azad edilməsi və sonrakı sülh gündəliyi Prezident İlham Əliyevin həmin müsahibədə səsləndirdiyi prinsiplərin həyati təsdiqi kimi diqqət çəkdi. Deməli, Qafqazda sülhün açarı daim beynəlxalq hüququn icrası, real faktların qəbul edilməsi və işğala son qoyulması ilə bağlı idi.

Bütün bu qeyd edilənlərə əsaslanıb deyə bilərik ki, 2020-ci ilin payızı Azərbaycan tarixinin dönüş nöqtəsi kimi yadda qaldı. Sentyabrın 27-də başlanan Vətən müharibəsi yalnız hərbi əməliyyatların deyil, həm də diplomatik, siyasi və hüquqi mübarizənin yeni mərhələsi idi. Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi, dövlət başçısının qətiyyətli və prinsipial bəyanatları bu savaşın mühüm hissəsinə çevrildi. Həmin dövrdə Prezident İlham Əliyevin verdiyi müsahibələr həm Azərbaycan ictimaiyyətinə, həm də beynəlxalq auditoriyaya ünvanlanan açıq mesaj idi.

Yuxarıda bir daha xatırlatdığımız 1993-cü ildə qəbul edilən 822, 853, 874 və 884 saylı qətnamələr beynəlxalq hüquq tarixi, eləcə də Azərbaycanın üzləşdiyi ədalətsizliyin aradan qaldırılması üçün mühüm önəm daşıyırdı. Həmin sənədlərdə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən açıq şəkildə çıxarılması tələb edilirdi. Bu qətnamələr ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təsdiqləməklə yanaşı, münaqişənin həllinin yalnız hüquqi əsaslarla mümkün ola biləcəyini göstərirdi.

Buna baxmayaraq, Ermənistan həmin illərdən başlayaraq müxtəlif siyasi oyunlarla, saxta danışıqlarla vaxt qazanmağa, mövcud vəziyyəti dondurmağa çalışdı. Müxtəlif beynəlxalq təşkilatların – ATƏT-in Minsk qrupunun, Avropa Şurasının, NATO Parlament Assambleyasının çağırışları da nəticəsiz qaldı. "Status-kvo qəbuledilməzdir" deyən dövlətlərin sözləri praktik addımlara çevrilmədi.

Prezident İlham Əliyev müsahibədə çox dəqiq vurğuladı ki, Ermənistanın mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasına əsaslanır. Ermənistan "öz müqəddəratını təyinetmə" anlayışını təhrif edərək, işğalı altındakı torpaqlarda qondarma rejim yaratmağa cəhd göstərir. Halbuki beynəlxalq hüququn fundamental prinsiplərindən biri olan "öz müqəddəratını təyinetmə"nin yalnız xalqların, millətlərin daxilində tətbiqi mümkündür, bu, başqa dövlətin ərazi bütövlüyünün pozulmasına əsas vermir.

İşğalçı ölkə saxta tezislərə əsaslanan siyasət yürütməklə, münaqişəni uzatmaqla yanaşı, regionu yeni müharibələrə sürükləyirdi. Ermənistan rəhbərliyi 1990-cı illərdə başladığı təcavüzkar siyasəti 2000-ci illərdə də davam etdirərək, "münaqişə dondurulub" görüntüsü yaratmağa çalışırdı. Lakin bu, Azərbaycanın milli maraqlarına və xalqımızın ədalət düşüncəsinə zidd idi. Azərbaycan tərəfi isə həmişə beynəlxalq hüquqa istinad edir, həm tarixi ədalətə, həm də beynəlxalq hüququn norma və prinsiplərinə söykənirdi. Bu, ölkəmizin diplomatik xəttinin əsasını təşkil edirdi. Başqa sözlə, respublikamız münaqişənin yalnız sülh yolu ilə həllinə səy göstərir, eyni zamanda, BMT qətnamələrinin icrasının vacibliyini diqqətə çatdırırdı.

### Diplomatik paralellər və müharibəyə aparan yol

Onu da deyək ki, 2020-ci ilin payızında, Vətən müharibəsi başlananda Azərbaycan diplomatik müstəvidə də fəal idi. Prezident İlham Əliyev davamlı olaraq müxtəlif beynəlxalq mediaya verdiyi müsahibələrdə beynəlxalq hüququn norma və prinsiplərinin Ermənistan tərəfindən pozulması ilə sülhün qarşısının alındığını açıq şəkildə bildirirdi. Əslində, dövlət başçısının "Pervıy Kanal"a müsahibəsində səslənən fikirləri həm də – əgər beynəlxalq hüquq işləmirsə, Azərbaycan öz gücünə ədaləti bərpa edəcək – xəbərdarlıq idi. Tarix bu mövqeyin arxasında dövlətin siyasi iradəsinin və xalqın birliyinin dayandığını sübut etdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın haqq işinin qələbəsi ilə yekunlaşdı. BMT qətnamələrinin icrası faktiki olaraq Azərbaycanın hərbi-siyasi qələbəsi ilə gerçəkləşdi. 2020-ci ilin noyabrında imzalanan üçtərəfli Bəyanat nəticəsində işğal olunmuş ərazilərin böyük qismi azad olundu. Bu, Prezident İlham Əliyevin oktyabrın 6-da "Pervıy Kanal"a səsləndirdiyi fikirlərin həyati təsdiqi idi.

Əgər Ermənistan vaxtında beynəlxalq öhdəliklərini icra etsəydi, müharibəyə ehtiyac qalmazdı. Lakin işğal siyasəti, vaxt udmaq cəhdləri regionu qanlı müharibəyə gətirib çıxardı. Azərbaycan isə haqq yolunda, beynəlxalq hüquqa söykənərək ədaləti reallaşdırdı.

### Postmüharibə dövrü və gələcək sülh gündəliyi

Bu gün əsas vəzifə əldə olunmuş nəticələrin davamlı sülhə çevrilməsidir. Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan ordusunun işğal olunmuş ərazilərdən çıxarılması regionda sülhün bərpası üçün açar idi. Bu açar artıq işə salınıb, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiya və demarkasiyası, eləcə də nəqliyyat-kommunikasiya xətlərinin açılması kimi məsələlərə xüsusi önəm verilir.

Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Ermənistan reallığı qəbul etməli, qonşuluq və əməkdaşlıq prinsiplərinə üstünlük verməlidir. Yalnız bu halda Qafqazda dayanıqlı sülh və təhlükəsizlik təmin edilə bilər.

Dövlətimizin başçısının 2020-ci il bəyanatları bir daha sübut etdi ki, beynəlxalq hüquq normaları kağız üzərində qalanda yeni münaqişələrə yol açır. Azərbaycan öz gücünə və iradəsinə arxalanaraq ədaləti bərpa etdi, qətnamələrin icrasını reallığa çevirdi. Bu gün regionda uzunmüddətli sülhün açarı Ermənistanın yeni reallığı qəbul etməsindən, beynəlxalq hüquqa hörmətlə yanaşmasından keçir. Azərbaycan isə artıq sübut edib ki, həm hüquqi, həm siyasi, həm də hərbi müstəvidə haqq işini qorumağa qadirdir. İndi əsas vəzifə həmin nəticələrin davamlı sülh və rifaha çevrilməsi, Cənubi Qafqazın inkişafına xidmət etməsidir.

*Vaqif BAYRAMOV*
*XQ*

*Vətən müharibəsi qəhrəmanları*

# Zəngilana bayraq sancan igid

**Zəfər salnaməsini qanı ilə yazanlardan Azər Yusifli 8 il idi ki, Dövlət Sərhəd Xidmətinin (DSX) Cəlilabaddakı hərbi hissəsində müddətdən artıq hərbi xidmət keçirdi. Vətən müharibəsi başlananda o baş gizir olduğu Çevik Hərəkət Dəstəsinin tərkibində cəbhə xəttinə göndərildi. Azər Yusifli "Qan yaddaşı"mızın "Zəfər yaddaşı"na çevrilməsində müstəsna rol oynadı.**

O hələ müharibədən 2 ay əvvəl düşmən təxribatının törədildiyi Tovuz rayonuna ezam olunmuşdu. Orada kəşfiyyatçı kimi hünər göstərmiş, Ermənistana keçərək, xüsusi əhəmiyyətli əraziləri və obyektləri tədqiq etmişdi.



İkinci Qarabağ savaşında Azər və silahdaşları Cəbrayılın Arazboyu yaşayış məntəqələrinin və Xudafərin körpülərinin işğaldan azad olunmasında yaxından iştirak etdilər. Sərhədçi hərbi qulluqçular daha sonra Zəngilan istiqamətində irəlilədilər. Uğurlu əməliyyatlar sayəsində qısa müddətdə rayonun bir çox kəndi düşməndən alındı. Oktyabrın 19-dan 20-nə keçən gecə isə Zəngilan şəhəri uğrunda döyüşlər başlandı və tezliklə şəhər işğaldan azad olundu. Səhər saat 4 radələrində şəhərə 27 ildən sonra Azərbaycan bayrağını sancmaq şərəfi baş gizir Azər Yusifliyə nəsib oldu. Bir gün sonra isə igid Vətən oğlu elə oradaca şəhadətə ucaldı...

Azər Nazim oğlu Yusifli Ağstafa rayonun yetirməsidir. 1994-cü il mart ayının 28-də Böyük Kəsik kəndində ziyalı ailəsində dünyaya göz açıb. Onun ibtidai sinif müəllimi elə öz anası Yeganə Məmmədova olub. Ana laylası ilə pərvəriş tapan vətənpərvərlik duyğuları, Yeganə müəllimin əlindən tutub yazdırdığı "ana", "Vətən", "Azərbaycan" sözləri, atası Nazim kişidən və məktəbdə digər müəllimlərindən aldığı tərbiyə sayəsində Azərin vətən sevgisi daha da güclənib.



Milli Ordu sıralarında həqiqi hərbi xidmətdən sonra bir gün mərhum həmyerlisi, şair Şaiq Vəlinin şeirinə rast gəlir. Həmin poetik nümunənin misraları onun gələcək həyat yolunun müəyyənləşməsinə vəsilə olur:

***Daş, beton dirəklər nəyə gərəkdir,***
***Qollarım bir sərhəd dirəyi ikən?!***

Beləliklə, ömürlük Vətən keşikçisi olmaq istəyən Azər DSX-ya qəbul edilir. Nümunəvi xidməti ilə fərqlənir. Layiq görüldüyü "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" və "Hərbi xdmətdə fərqlənməyə görə" medallarını bayram günlərində fəxrlə döşünə taxır.

Vətən müharibəsi Azərin taleyində həlledici rol oynayıb. Cəbrayılın Mahmudlu, Soltanlı, Əmirvarlı, Göyərçin Veysəlli, Keyxalı, Maşanlı və Hasanlı kəndlərində, Zəngilanın isə 16-dan çox yaşayış məntəqəsində onun silinməz ayaq izləri var.

Döyüş yoldaşlarının Zəngilanda çəkdiyi videoda Azər erməni məktəb binasına daxil olur. Hay bayrağının və qondarma qəhrəman–terrorçu Monte Melkonyanın şəkillərini divardan qoparıb ayaq altına atır. Sonra zaman-zaman türkün tarixini və coğrafiyasını mənimsəyən oğru millətin "simvol"larının sərgiləndiyi digər kağız-kuğuzu cırıb tullayır. Hayların xülyalarında, miflərində yaratdıqları "böyük Ermənistan" xəritəsinin, "tarixi" abidələrin şəkilləri, beləcə, layiq olduğu qiymətini alır. Döyüş yoldaşlarının sözlərinə görə, Azər hər erməni öldürdükcə "Bu da Xocalının hayıfı!" – deyirdi.

Dövlət başçımızın sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş Azər Yusifli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə də təltif edilib.

Oktyabrın 22-də doğma kəndi Böyük Kəsikdə onunla vida görüşünə bütün el-oba gəlmişdi. Aşıq Veysəlin dili ilə "Mənim sadiq yarım qara torpaqdır", – deyən qəhrəman öz nəşi ilə Vətən torpağını bir ovuc da artırıb. Vaxtilə oxuduğu tam orta məktəb indi onun adını daşıyır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Hərbçi atanın zabit oğlu

**Haqq-ədalət savaşımızda bizə qələbə sevinci bəxş edən şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı gənc nəsil üçün əbədi miras qalan mənəvi dəyərimizdir. Məhz bu mirasa görə minlərlə hərbçimiz orden və medallarla təltif edilmişdir. Onlardan biri də şəhid Ruslan Qəhrəmanovdur.**



Ruslan 1988-ci il oktyabr ayının 6-da, Almaniyada, hərbçi ailəsində dünyaya göz açıb. Atası Mehman Qəhrəmanov sovet silahlı qüvvələrində qulluq edib. Birinci Qarabağ müharibəsi başlananda doğma yurdu Azərbaycanın müdafiəsinə qoşulub, hərbi təcrübəsini gənclərlə bölüşüb. Müharibə qazisi Vətənə xidməti ilə fəxr edib. Elə oğlunu da bu ruhda tərbiyə edib.

Şəmkirin Keçili (indiki Xuluf) kəndində böyüyüb başa çatmış Ruslan oradakı Rövşən İsmayılov adına 2 nömrəli orta məktəbdə 9-cu sinfə kimi təhsil alıb. Vətənə olan hədsiz sevgisi onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə aparıb. Liseydən sonra ali hərbi məktəbə qəbul olub və leytenant kimi Vətənə xidmətə başlayıb.

2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olan kapitan Ruslan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılıb.

Bir dostu ona "Sən general olacaqsan" demişdi. Döyüşlərdən öncə 2 qız və 1 oğul atası olduğuna işarə edərək "Çalış, şəhid olma, körpə balaların səni gözləyir", – deyən dostuna Ruslanın cavabı isə "şəhid olmaqdan qorxan döyüşə getməz" – olub. "Mən ora elə şəhidlik üçün gedirəm"... Övladlarına isə cəbhəyə getməzdən öncə tapşırıbmış ki, mən şəhid olanda siz bayraqla öndə gedin, fəxrlə "Vətən sağ olsun!" – deyin. – "Gözüm arxada qalamayacaq, çünki ardımca oğlumun gəldiyini bilirəm".

Döyüşlər öncəsi kəşfiyyat zamanı mühasirəyə alınırlar. XTQ kapitanı dostlarını xilas eləmək üçün maşından düşərək: "Siz gedin, mən sizi qoruyacam", – deyir və snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəmkir rayonunun Keçili kəndində dəfn edilir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fərqlənmiş igidimiz hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Ruslan Qəhrəmanov ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Ruslana məxsus şəxsi materiallar Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilib.

***Müşfiq CƏFƏROV***
***XQ***

*Yeni nəşrlər*

# "Azadlıq yollarında" yazılan hekayələr

**Sumqayıtdakı Poeziya Evində yazıçı-publisist Rəna Təbəssümün "Azadlıq yollarında" adlı kitabının təqdimatı keçirilib.**

Mərasimdə Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra çıxış edənlər 44 günlük "Zəfər yürüşü"nün 5-ci ildönümündə işıq üzü görmüş kitab haqqında fikirlərini bölüşüblər. AYB Sumqayıt bölməsinin rəhbəri Gülnarə Cəmaləddin, AJB Sumqayıt təşkilatının sədri Rafiq Oday, kitabın redaktoru Rəfail Tağızadə, Mədəniyyət Nazirliyinin "Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova və başqaları müəllifin yaradıcılıq məziyyətlərindən danışıblar. Qeyd edilib ki, bu kitab yalnız tarix deyil, həm də gələcək nəsillər üçün bir yaddaşdır, vətənin azadlığı uğrunda canından keçənlərin izlərini yaşadan mənəvi mirasdır. Məktəblilər Rəna Təbəssümün şəhidlərə həsr olunmuş şeirlərini səsləndiriblər.

Müəllifin "Azadlıq yollarında" kitabındakı istər roman, istərsə də hekayələrdə qəhrəman şəhidlərin məqamı uca tutulub, onların Vətən qarşısında xidmətləri bədii boyalarla layiqincə dəyərləndirilib. Romanda qələmə alınan hadisələr real hadisələri əks etdirdiyi üçün adlar olduğu kimi saxlanılıb. Bəzi məqamlara daha çox yer ayırılması da reallıq amilindən, hadisələri olduğu kimi təqdim etmək mərامından irəli gəlib.

Əsəri bütövlükdə Qarabağ müharibəsinin, qaçqın və köçkünlərin müsibətlərini bir neçə ailənin timsalında əks etdirən bədii bilgilər toplusu da adlandırmaq olar.

"Şəhid olan balalarımızın Vətən yolunda son nəfəsədək vuruşub ölən cismi, yaşayan ruhu yeni ümidlərə nəfəs verir. Oğullarımızın nələr yaşadıqlarını bilən olmasa da, uçub hər yeri dolanan ruhları Vətən sevgisini və torpağa bağlılığı qəhrəmanlıq salnaməsində zaman-zaman hər kəsə anladacaq" kimi fikirlər kitabın səhifələrindən qırmızı xətlə keçir.

Rəna Təbəssüm, eyni zamanda, 1988-1990-cı illərdə ermənilər tərəfindən qəsdən törədilən Sumqayıt hadisələrinin şahidi kimi o illərə qayıdır və nankor qonşularımızın gerçək xislətini göstərir. Əsas ideya isə xalqın mübarizə əzmini, əyilməzliyini, 44 günlük müharibədə orduyla birliyinin uğurlu nəticəsini əks etdirməkdir. İnamla demək olar ki, müəllif buna nail ola bilib.




***Ə.ƏLİYEV***
***XQ***

**...Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondundakı eksponatları arasında xalqımızın qəhrəman oğlu Murad Əflətova məxsus bir cüt hərbi səhra çəkməsi də var. O, 44 günlük Zəfər yürüşünü məhz bu çəkmələrlə keçib. Muradın döyüş yolunda bu çəkmələr daş-kəsəyə də ilişib, suya, palçığa da batıb, düşmənin olmayan qürurunu da tapdalayıb, nəhayət, yalçın qayalarla Cıdır düzünə qalxıb Şuşaya varid olaraq, sahibini muradına çatdırıb. Muradın od içindən çıxmış çəkmələrinin rəngi qara olsa da, üzü ağdır.**

# Bir cüt əsgər çəkməsi

Yaxşı ki, bu çəkmələr ayaqdan yetim qalmayıb – Vətən Müharibəsi Qəhrəmanı Murad Əflətov sağdır, şərəfli qazi adını daşıyır, sıralarımızdadır. Saatlı rayonunun Nəsimikənd kəndində Ahıska türkü ailəsində doğulmuş igid Vətən oğlunun gələn ayın 3-də 25 yaşı tamam olacaq.



Qeyd edək ki, hələ Birinci Qarabağ müharibəsi dövründə Ahıska türkləri də haqq işimiz uğrunda mübarizəmizdən kənarda qalmayıblar. Onlar "Bizim 2 Vətənimiz var – biri əlimiz yetməyən Ahıska, biri də dar gündə bizə qucaq açmış Azərbaycandır", - deyərək dəstə-dəstə könüllülərə qoşulub və cəbhəyə gediblər. Muradın atası İlyas Əflətov da onların arasında olub. Ahıskalı gənc döyüşçülərdən 84 nəfəri həmin savaşda şəhadətə yüksəlib. Topçu İsgəndər Aznaurov (1956-1993) ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Muradın orta məktəb müəllimi Əli Bayraqdarov deyir ki, İkinci Qarabağ savaşında da soydaşları atalarının yolu ilə gedərək, Azərbaycanın işğal altında olan torpaqlarının müdafiəsinə qalxıblar. Onlardan biri də İsgəndər Aznaurovun ardıcılı Muraddır. Başımızın tacı, gözümüzün işığı olan, adı ilə qürur duyduğumuz Murad! Vətənə layiq oğullar yetişdirməyimizlə fəxr edirik.

Qəhrəmanımız orta məktəbdə təhsilini başa vurandan sonra, 2018-ci ildə həqiqi hərbi xidmətə yollanıb. İlyarımlıq əsgərliyinin ardınca ömrünü həmişəlik hərb sənətinə həsr etməyi qərara alıb. Xüsusi Təyinatlı Qüvvələrin əsgəri Murad Əflətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Zəfər yolçuluğuna ilk çıxanlardandır. Cəbrayıl, Füzuli və Şuşa uğrunda döyüşlərdə iştirak edib. Qəhrəman adı alan 3 əsgərdən biri kimi, sinəsində nişanı ilə bərabər, hər 3 rayonun, eləcə də Xocavəndin azad olunmasına görə medalları da fəxrlə gəzdirir.

Barıt qoxulu xatirələrini İctimai televiziyanın kamerası qarşısında dilə gətirən Muradın dedikləri: "Dava başlanandan qurtarana qədər biz 5-6 nəfər bölmələrimizin əsgərlərindən 500-600 metr öndə irəli getmişik. Bir dəfə Füzuliyə çathaçatda düşmən artilleriyasına rast gəldik. Toplarını "Ural" maşınlarına qoşub aradan çıxmaq istəyən ermənilərin haqqında arxadan gələn bölməmizə məlumat verdik. Onlar düşməni yaxalamaq üçün əks-istiqamətdən gəlməyi qərar verdilər. Bizim komandir isə pulemyotla ermənilərin öndəki maşınını vurdu. Düşmən "şok atışı"mızla xeyli itki verdi. Təxminən 15-20 nəfərlik divizionu tezliklə məhv elədik. Qabağa gedə bilən erməni "Ural"ının heyətini də əks-istiqamətdən gələn bölməmiz aradan götürdü. Çox çətinliklə də olsa, düşmən artilleriyasının atəşləri altında, 2-ci cəhddə Füzulini ələ keçirə bildik.

Hadrutu alanda da müəyyən itkilər verməyimizə baxmayaraq, qətiyyətimizdən dönmədik və bir günə məqsədimizə çatdıq. Yaralansaq da, bir-birimizə kömək edirdik. Arxayın idik ki, arxamız möhkəmdir. Şuşa istiqamətindən Kəlbəcərə - Zod mədənlərinə tərəf gedib reallaşdırdığımız əməliyyatı da unuda bilmirəm. Orada özbaşına silahlılar vardı ki, öz dövlətlərinin əmrinə də tabe olmurdular. Biz onların postlarını almağa getdik. 3 gün vuruşaraq, 5-6 postu ələ keçirdik. Bir neçə kəndi də tutduq...".

Murad hazırda Saatlı Gənclər Evində "Vətənpərvərlik" klubunun rəhbəridir. Gənclərin veteranlarla, qazilərlə görüşlərini təşkil edir, cavanları şəhid məzarlarının və onların ailələrinin ziyarətinə aparır, uşaqların xahişi ilə özünün və silahdaşlarının şərəfli döyüş yolundan danışır.

...Muzey ekspozisiyasında qorunan əsgər çəkmələrinin hər biri böyüdücü şüşə altında bir tankı xatırladır. Murad həmin "tanklar"la inamla irəliləyib, zirvələr fəth edib, yağıları çığnayıb. Qazandığı hörmət-izzət, layiq görüldüyü dəyər onun halal haqqıdır.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Koroğlu" zirvəsində şəhidlik

**Vətənin şəhid oğlu Fərid Fazil oğlu Dursunov 1986-cı ilin iyulunda Qax rayonunun Qorağan kəndində dünyaya göz açıb. Kənd məktəbində təhsilini başa vurandan sonra Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) oxuyub. Xidməti dövründə çoxsaylı təltiflərə layiq görülüb.**

Düz 5 il əvvəl başlanan 44 günlük Vətən müharibəsi zamanı Fərid Dursunov Kəlbəcərdə Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. O, sentyabrın 29-da Kəlbəcər rayonu istiqamətində "Koroğlu 3" döyüş mövqeyi uğrunda gedən qızğın mübarizədə şəhid olub. Cəmi 3 gün vuruşsa da, ad qoyub gedib.



Müharibə zamanı hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası üzrə vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, kapitan Fərid Dursunov ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin atası Fazil Dursunov deyir ki, Fərid Vətəninə, torpağına bağlı idi. Əsgərləri də onu çox istəyirdilər. Onlar deyirmişlər ki, komandir, sən olanda biz heç nədən qorxmuruq... Fəridin iki qardaşının da hərbidə xidmət etməsi və böyük Qələbədə onların da böyük xidmətlərinin olması ailəmizin qürur mənbəyidir. Biri Ağdərədə, digəri Tovuzda döyüşlər zamanı fərqlənib. Fərid şəhid olandan sonra Prezidentimizə məktub yazmışdım. Oğlumun davamçısı olaraq özümün də döyüşlərdə iştirak etməyə hazır olduğumu bildirmişdim.



Şəhidimiz "Qalatasaray" Futbol Klubunun sadiq azarkeşlərindən olub. O, həlledici döyüşlərə qatılmazdan əvvəl "Şəhid olsam, məzarıma Azərbaycan bayrağı ilə birgə "Qalatasaray" bayrağını da asın", – deyə vəsiyyət edib. Şəhidin vəsiyyəti sosial mediada ictimailəşdirildikdən sonra "Qalatasaray" klubu özünün rəsmi "X" hesabında Fərid Dursunovun məzarının fotosunu paylaşaraq başsağlığı verib. Ardınca isə "Qalatasaray"ın başqan yardımcısı Yusuf Günay telefon əlaqəsi saxlayaraq şəhidin atasına klub adından başsağlığı çatdırıb.

Şəhid kapitanın ömür-gün yoldaşı, iki övlad anası Məryəm xanım da onun adı ilə fəxr edir. O, ataları kimi iki qəhrəman böyütdüyünü bildirir. Balacaların ən böyük arzusu da elə atalarına oxşamaqdır.

***Müşfiq MİRZƏ***
***XQ***

# Elm və ali təhsilin strateji hədəfləri

**Bakı Dövlət Universitetində "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf strategiyası" layihəsinin elm və ali təhsil istiqamətlərinə həsr olunmuş müzakirə keçirilib.**



Toplantıda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Elm və Təhsil Nazirliyinin müvafiq struktur bölmələrinin rəhbərləri və ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

İclasda "Elm və ali təhsil ekosisteminin gücləndirilməsi" mövzusunda təqdimat edilib. Təqdimatda 2022–2025-ci illərdə elm və ali təhsil sahəsində əldə olunan nəticələr və 2030-cu ilə qədər nəzərdə tutulan fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Müzakirələr zamanı ali təhsilin əhatəliliyinin və əlçatanlığının artırılması, məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi, beynəlxalq rəqabətlilik və mobilliyin gücləndirilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində elmin və ali təhsilin inkişaf etdirilməsi, elmi potensialın gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi kimi prioritetlər diqqətə çatdırılıb.

Bununla yanaşı, ali təhsil müəssisələrinin strateji inkişaf planlarının ölkənin sosial-iqtisadi hədəflərinə uyğunlaşdırılması, universitetlərin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və nəticə əsaslı elmi tədqiqatların stimullaşdırılması ilə bağlı təkliflər irəli sürülüb.

İştirakçılar qarşıdakı dövr üçün prioritetlərin müəyyənləşdirilməsi, müasir tələblərə cavab verən ali təhsil ekosisteminin formalaşdırılması və elmin cəmiyyətin inkişafındakı rolunun daha da gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

***XQ***

# İlin "İlyas Əfəndiyev" mükafatçıları

**Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyi, elm xadimləri, ziyalılar Birinci Fəxri xiyabanda görkəmli Xalq yazıçısı İlyas Əfəndiyevin anım günündə ədibin və oğlu, Xalq yazıçısı Elçinin məzarını ziyarət ediblər.**



Sonra Yazıçılar Birliyinin Natəvan klubunda anım günü ilə bağlı mərasim keçirilib. Xalq yazıçısı Anar hər iki yazıçının milli ədəbiyyatımızın inkişafında xidmətlərini vurğulayıb. O, "İlyas Əfəndiyev" mükafatına bu il filologiya elmləri doktoru, dosent Gülxani Pənahın və professor İlham Rəhimlinin layiq görüldüklərini söyləyib.

Yazıçı-publisist Gülxani Pənah və Əməkdar incəsənət xadimi İlham Rəhimli yüksək mükafata görə təşəkkürlərini bildiriblər. İlham Rəhimli ötən əsrin 70-ci illərində onun Yazıçılar Birliyi üzvlüyünə qəbul olunmasına zəmanət verənlərdən birinin İlyas Əfəndiyev olduğunu qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli ata-oğul Əfəndiyevlərin çağdaş ədəbiyyat tarixində xüsusi yerləri olduğunu vurğulayıb. Bildirib ki, İlyas Əfəndiyev və Elçin sovet dövründə yazıb-yaratsalar da, sovet ideologiyasının təbliğatçısı olmayıblar.

Milli Məclisin mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Xalq şairi Sabir Rüstəmxanlı, Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov, Milli Məclisin deputatı, yazıçı Aqil Abbas, Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov, Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli İlyas və Elçin Əfəndiyevlərin Azərbaycan ədəbiyyatına verdikləri töhfələrdən söz açıblar.

Sonda Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyev atası və qardaşı ilə bağlı xatirələrini bölüşüb.

Milli Məclisin Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva babasının və atasının xatirələrinə göstərilən ehtirama görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, iştirakçılara Əfəndiyevlər ailəsi adından minnətdarlığını bildirib.

***Qabil YUSİFOĞLU***
***XQ***




# Fiziologiya və ya tibb nobelçiləri

**2025-ci il üzrə fiziologiya və ya tibb sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb.**

Nobel Komitəsi bildirib ki, həmin sahə üzrə Nobel mükafatına araşdırmaçılar Mari Brunkov, Fred Ramsdell və Şimon Sakaquçi layiq görülüblər. Onlar mükafatı periferik immun tolerantlığı ilə bağlı kəşflərə görə qazanıblar.

***XQ***

# Yeraltı dünyanın ekosistemi

## *Ayaqlarımızın altındakı sirli aləm*

**İnsanlar belə düşünürlər ki, həyat əsasən Yer səthinin üzərində – okeanlarda, meşələrdə, dağlarda və şəhərlərdə formalaşıb. Ancaq elm göstərir ki, ayaqlarımızın altında, Yer qabığının kilometrlərlə dərinliyində tamamilə yeni bir dünya mövcuddur. Burada milyardlarla mikroorqanizm yaşayır və planetin ən böyük ekosistemlərindən birini təşkil edir.**



Alimlər bu sirli aləmi "yeraltı Qalapaqos" adlandırırlar. Onun zənginliyi təsəvvürləri alt-üst edir: karbon həcminə görə insanlığı yüzlərlə dəfə üstələyir, genetik müxtəlifliyi isə səthdəki həyatla müqayisə oluna bilər. Darvin Qalapaqos adalarında təkamül sirlərini öyrənmişdisə, müasir alimlər qaranlıqda, qayaların dərinliklərində həyatın mövcudluq həddini araşdırırlar.

Tədqiqatlara əsasən, Yer üzərindəki bütün mikroorqanizmlərin təxminən 70 faizi dərinliklərdə yaşayır. Onların ümumi kütləsi 15-23 milyard ton karbon olaraq qiymətləndirilir. Müqayisə üçün, bütün insanların birlikdə çəkisi təxminən 60 milyon ton təşkil edir. Bu, planetin mərkəzində sanki "qara qitə" kimi gizlənmiş həyat okeanını xatırladır.

Ən böyük sirr isə bu orqanizmlərin mövcud olduğu ekstremal şəraitdir: 2-5 kilometr dərinlikdə işıq yoxdur, qida maddələri son dərəcə azdır, təzyiq inanılmaz dərəcədə yüksəkdir, temperatur isə bəzən 120 °C-yə çatır. Buna baxmayaraq, bakteriyalar, arxeylər və hətta çoxhüceyrəli canlılar burada nəinki sağ qalır, həm də inkişaf edirlər. Məsələn, Cənubi Afrikada 1,4 kilometr dərinlikdə qayaların içində nematod növünə rast gəlinib.

Alimlər düşünürlər ki, bu mikroblar enerji mənbəyi kimi günəş işığından deyil, kimyəvi reaksiyalardan istifadə edirlər. Onlar hidrogen, kükürd, dəmir və metanı "istehlak edərək" tamamilə yeni metabolik zəncirlər yaradırlar. Bu xüsusiyyətlər həyatın Yer üzündə fotosintezdən əvvəl necə yarana biləcəyini anlamaq üçün açar ola bilər.

Mikrobioloqlar bildirirlər ki, biz hələ bu "gizli dünyanın" yalnız çox kiçik bir hissəsinə toxunmuşuq. Ola bilsin ki, Yerin dərinliklərində tamamilə naməlum həyat formaları mövcuddur.

Bu kəşflərin əhəmiyyəti təkcə Yerlə məhdudlaşmır. Əgər mikroblar qaranlıqda, təzyiq altında və yüksək temperaturda yaşaya bilirsə, deməli, Marsda və ya Yupiterin peyki Avropanın buz qatının altında da oxşar həyat formaları ola bilər. Eyni zamanda, bu tədqiqatlar Yer ekosistemlərinin sabitliyini başa düşmək üçün də həlledici rol oynayır. Çünki planetin karbon və kükürd dövranının mühüm hissəsi məhz burada gizlənə bilər.

Bir sözlə, "Yeraltı Qalapaqos" bizə xatırladır ki, Yer hələ də saysız-hesabsız sirlərlə doludur. Hər qazma nüvəsi isə bəşəriyyətə tamamilə yeni bir dünyaya açılan qapı ola bilər.

***Hazırladı:***
***SE LAY***
***XQ***

*XI Bakı Beynəlxalq Kitab Sərgisi*

# Kitab zəkaları nurlandıran çıraqdır

**XI Bakı Beynəlxalq Kitab Sərgisinin altıncı günündə keçirilən müxtəlif görüş və təqdimatlarda hökumət nümayəndələri, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri, yazıçılar, şairlər, həmçinin bir sıra ölkələrdən gəlmiş qonaqlar iştirak edirdilər.**



Sərgi salonunda bu gün də ziyarətçilərin çoxluğu diqqəti cəlb edirdi. Fərqli yaş qruplarından, müxtəlif peşə sahələrindən olan insanların bu məkanda toplaşması mədəniyyətin birləşdirici gücünü əyani şəkildə nümayiş etdirir. Burada məktəblilər, tələbələr, müəllimlər, elm adamları, yaradıcı insanlar, eləcə də sadə oxucular kitab dünyasının zənginliyini kəşf etmək üçün bir araya gəlirlər.

Sərginin xüsusi qonaqlarından biri isə sevilən şairimiz, Rüstəm Behrudi oldu. Onun imza günü ziyarətçilərdə böyük maraq doğurdu. Şairin yaradıcılığına dərin rəğbət bəsləyən oxucular müəllifə kitablarını imzalatmaq üçün növbəyə dayanmışdılar.

**Şair Rüstəm Behrudi Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirildiyi bu günlərdə oxucularla görüşündə bir daha qardaşlıq və birliyin önəmini dilə gətirdi:**




– Xalqdan, millətdən, qardaşdan ayrı şair ömrü mövcud ola bilməz. Şair poeziyası oxucunu duyğulardan mənəvi dünyaya aparır, beləliklə, onun hissləri xalqın tarixi yaddaşı, ümidləri və ağrıları ilə birləşir. Bu günlərdə Türk Dövlətləri Təşkilatının Zirvə görüşü keçirilir. Bu, qardaşlığın, birliyin möhkəmlənməsi deməkdir. İnanıram ki, gələcəyimiz birlikdədir. Poeziyamızda da şair şəxsiyyəti ilə millətin varlığı vəhdət təşkil edir.

Doğrudan da şairin sözü həyatıyla yox, millətin varlığı, onun ağrıları, sevincləri, ümidləri ilə birləşir, hər misrasında xalqın nəfəsi duyulur.

**Stendlərin qarşısında ən çox nəzərə çarpan məqamlardan biri məktəblilərin fəallığı və kitablara göstərdikləri böyük maraq idi. 237 saylı tam orta məktəbin şagirdi Leyla Vəlizadə sərginin onda yaratdığı yüksək duyğuları ifadə etməyə çalışdı:**



– Mənim üçün bu sərgi böyük bir xəzinədir. Burada istədiyim kitabları rahatlıqla tapıram. Tanımadığım yazıçılarla tanış olur, onların əsərləri haqqında öyrənirəm. Hətta bəziləri ilə şəxsən söhbət edib, əsəri necə yazdıqları ilə maraqlanmışam.

Yeni yazıçılar haqqında da məlumatlar aldım, çünki yalnız dərsliklərlə kifayətlənmirəm, başqa yazıçıların kitablarını da oxumaq istəyirəm. Onları tanıyanda sanki yeni bir dünya açılır. Əvvəllər oxumadığım kitablara marağım yaranır.

Mən kitab oxuyanda həm düşünür, həm də yeni şeylər öyrənirəm. Məsələn, tarixi əsərlər mənə öz köklərimizi, keçmişimizi daha yaxşı anlamağa kömək edir. Nağıllar və romanlar isə təsəvvürümü genişləndirir, yazmaq həvəsim daha da artır. Öyrənirəm ki, yazıçılar da bir vaxtlar mənim kimi sadə oxucu olublar, sonra isə öz dünyalarını başqaları ilə bölüşmək istəkləri onları yazmağa sövq edib.

**Həmin məktəbin müəllimi Kəmalə Xələfova isə şagirdlərinin dünya kitabları ilə tanış olduqlarını dedi:**

– Ötən il X Bakı Beynəlxalq Kitab Sərgisinə də şagirdlərimi gətirmişdim. Onlar hər il daha böyük maraq göstərirlər. Bu dəfə də gördüm ki, uşaqlar stendlərdəki kitabları böyük diqqətlə incələyir, müəlliflərlə tanış olmağa can atırlar. Mənim üçün ən böyük sevinc onların kitab oxumağa həvəs gösstərmələridir. Onlar üçün bu qədər müxtəlif kitabı eyni yerdə görmək böyük bir şansdır. Dərsliklərdən kənar, çoxsaylı mövzularda kitablarla tanış olurlar. Bundan başqa, müəlliflərlə görüşəndə onların kitabı necə yazdıqlarını, hansı mövzulara toxunduqlarını özlərindən eşidirlər. Bu isə kitab oxumağa marağı daha da artırır.

Məncə, kitab sərgiləri təkcə müəllim və şagird üçün yox, cəmiyyət üçün çox vacibdir. Çünki kitaba sevgi nə qədər erkən yaşda formalaşarsa, gələcəkdə bir o qədər dərin kök atar.

**Stendləri maraqla izləyən məktəblilər arasında Alim Əliyevin kulinariya kitablarına marağı diqqətdən yayınmırdı:**

— Mənim ən çox marağımı kulinariya kitabları çəkdi. Çünki yemək bişirmək və yeni təamlar dadmaq çox xoşuma gəlir. Burada müxtəlif mətbəxlərə aid kitablar gördüm, həm milli yeməklərimiz, həm də başqa ölkələrin mətbəxləri haqqında maraqlı məlumatlar var. Evdə anamla birlikdə tez-tez yemək bişiririk, yeni yeməklər hazırlamağı öyrənmək istəyirəm. Ona görə belə kitablar mənim üçün çox maraqlıdır. Yemək kitablarını oxuyaraq həm yemək bişirməyi öyrənir, həm də fərqli mədəniyyətlər haqqında yeni biliklər əldə edirəm. Məsələn, türk, italyan, fransız mətbəxi barədə maraqlı faktlara rast gəldim.




**"3 alma" stendinin yanında kitabxanaçı Rəqsanə Həşimova ilə həmsöhbət olduq. O bildirdi ki, sərgiyə məktəb kitabxanasını zənginləşdirmək üçün xeyli nəşr çıxarılıb:**



– Şagirdlərin maraqlarını nəzərə alaraq müxtəlif janrlarda əsərlər seçirik. Həm bədii ədəbiyyat, həm də elmi kitablar axtarırıq ki, uşaqların dünyagörüşü genişlənsin. Lakin kiçik bir iradım var, düşünürəm ki, sərgidə uşaq kitabları, digər kitablar və satış üçün stendlər ayrı-ayrı yerlərdə qruplaşsaydı, o zaman daha rahat olardı. Bu, ziyarətçilərin axtardıqlarını daha rahat tapmasına kömək edərdi.

**Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondunun stendinin satıcısı Əfruzə Osmanova söhbət zamanı dedi:**

– Ortayaşlı alıcılar daha çox nəsihət xarakterli kitablara daha çox üstünlük verirlər, X-XII əsrlərin yazıçıları ilə maraqlanır, onların əsərlərini oxuyub mənasını anlamağa çalışırlar. Gənclər isə özünüinkişaf, motivasiya və psixoloji yönümlü kitablarla maraqlanırlar. Uğur qazanmağın yolları, şəxsi inkişaf barədə nəşrləri diqqətlə nəzərdən keçirirlər. Mənəvi baxımdan belə kitablar çox böyük əhəmiyyət daşıyır. Bəzən insanlar gündəlik həyatın sürətindən yorulurlar və bu kitablar onlara kömək olur.

Altıncı günün proqramına yeni kitab təqdimatları, müzakirə panelləri, uşaq və gənclər üçün nəzərdə tutulmuş interaktiv fəaliyyətlər də daxil idi. Müəlliflər kitablarının yaranma hekayələrindən danışır, mütəxəssislər isə müasir ədəbiyyatın inkişaf istiqamətləri barədə maraqlı çıxışlar edirdilər.

***Ləman TƏHMƏZ***
***XQ***

# Yaponiyada “dəmir ledi” gözləntisi

**Yaponiyanın siyasi tarixi dönüş nöqtəsinə qədəm qoyur. Liberal Demokrat Partiyasının (LDP) lider seçkilərində 64 yaşlı Sanae Takaiçinin qələbəsi “gündoğar” ölkəyə ilk dəfə qadın baş nazirin rəhbərlik edəcəyi ehtimalını gündəmə gətirib. Siyasi dairələrdə Yaponiyanın “dəmir ledisi” adlandırılan Takaiçi ifrat mühafizəkar baxışları, güclü xarakteri və Böyük Britaniyanın sabiq baş naziri Marqaret Tetçerə olan heyranlığı ilə tanınır. O, Yaponiya siyasətində təkcə cinsiyyət baryerini deyil, həm də ideoloji balansı sarsıtmağa hazır görünür.**

LDP-də dəyişiklik ehtiyacı bir ildən az müddətdə baş nazir postunda olan Şigeru İşibanın idarəetməsinin uğursuz nəticələrindən sonra yarandı. Partiya ardıcıl olaraq həm parlamentin aşağı, həm də yuxarı palatasında çoxluğu itirdi, reytinq böhranı dərinləşdi. İşiba sentyabrın əvvəlində istefa niyyətini açıqladıqdan sonra, oktyabrın 4-də keçirilən seçkilərdə liderlik uğrunda 5 namizəd mübarizə apardı. İlk turda nəticə əldə olunmasa da, ikinci mərhələdə Takaiçimin 185 səslə qalib gəlməsi ilə tarixdə ilk dəfə LDP-yə qadın rəhbərlik etməyə başladı.



Seçkilərdəki rəqibi, sabiq baş nazir Cuniiçiro Koidzuminin oğlu Şinjiiro Koidzumi gənc və mərkəzçi namizəd kimi çıxış etsə də, deputatların və partiya üzvlərinin əksəriyyəti ənənəvi dəyərləri müdafiə edən Takaiçinin ətrafında birləşdi. Qələbədən dərhal sonra o, “LDP-nin yeni dövrü”nü elan etdi və partiyanın daxili birliyinin bərpasını əsas prioritet kimi göstərdi: “Sevinc hissindən çox, məsuliyyətin ağırlığını duyuram. Qarşımızda birlikdə aşmalı olduğumuz dağlar var”, – deyə o, seçki sonrası çıxışında bildirdi.

Lakin yeni liderin baş nazir kürsüsünə əyləşməsi hələ formal şəkildə təsdiqlənməyib. Partiyanın parlamentdə çoxluğu olmaması prosesi çətinləşdirir. Buna baxmayaraq, analitiklərin fikrincə, oktyabrın 15-də keçiriləcək növbədənkənar parlament iclasında böyük ehtimalla Takaiçi baş nazir postuna təsdiqlənəcək. Müxalifətin parçalanmış vəziyyəti alternativ namizədin ortaya çıxmasını demək olar ki, mümkünsüz edir.

Bu hadisə təkcə Yaponiyada deyil, bütün Asiyada mühüm simvolik məna daşıyır. Dünya İqtisadi Forumunun gender bərabərliyi üzrə reytinqində Yaponiya 146 ölkə arasında 118-ci yerdədir. Bu baxımdan, Takaiçinin liderliyə yüksəlişi sosial və mədəni stereotipləri sarsıdan bir hadisə kimi qiymətləndirilir. Sabiq ədliyyə naziri Midori Matsuşimanın dediyi kimi, “İlk qadın baş nazirin doğulmasına şahid olmaq qürurvericidir. Bu, siyasətdən uzaq ailələrdə böyüyən gənc qadınlara cəsarət verəcək”.

Takaiçinin həyat hekayəsi yapon siyasi elitasının klassik modelindən fərqlənir. O, aristokrat ailədən deyil, sadə bir mühitdən çıxaraq siyasətə 1990-cı illərin əvvəllərində daxil olub. Üç onillikdən çox təcrübəyə malikdir və siyasi iradəsi ilə tanınır. Lakin onun ideoloji xətti cəmiyyətin liberal hissəsində ciddi mübahisələr doğurur. Takaiçi feminist deyil, əksinə, ənənəvi dəyərləri müdafiə edir. O, eynicinsli nikahların leqallaşdırılmasına qarşı çıxır, ailə soyadlarının dəyişdirilməsini yapon mədəniyyətinə zidd hesab edir və imperator taxtının yalnız kişi varislərə məxsus olmasını təbii qayda kimi qəbul edir.

Takaiçinin sosial baxışları ilə yanaşı, iqtisadi və təhlükəsizlik siyasətinə dair mövqeləri də kəskin fərqlənir. O, Çinlə bağlı sərt mövqeyi ilə tanınır və Pekinin Asiya-Sakit okean regionunda artan təsirinə qarşı ABŞ, Avstraliya, Cənubi Koreya və Filippinlə hərbi əməkdaşlığı gücləndirmək niyyətindədir. Eyni zamanda, ABŞ-la iqtisadi münasibətlərdə daha sərt mövqe nümayiş etdirərək, Donald Tramp dövründə imzalanmış ticarət sazişinə yenidən baxılmasını tələb etməyə hazır olduğunu bildirir. Onun fikrincə, həmin sazişdə bəzi maddələr Yaponiya üçün “ədalətsiz və zərərli”dir.

Xarici siyasət baxımından isə onun Şinzo Abenin siyasi və ideoloji varisi olması artıq sirr deyil. O, Abenin müdafiə sahəsində sərtləşmə, ABŞ-la hərbi ittifaqın gücləndirilməsi və Yaponiya Konstitusiyasının 9-cu maddəsinə (ordudan imtina prinsipi) yenidən baxılmasını dəstəkləyir. Takaiçinin Yasukuuni məbədini mütəmadi ziyarət etməsi – burada müharibə cinayətkarlarının adları yer alır – qonşu Çin və Cənubi Koreya ilə münasibətlərdə yeni gərginlik dalğası yarada bilər.

Bütün bunlara baxmayaraq, Takaiçinin siyasi iradəsi və nizam-intizamı ilə tanınması onu həm partiya daxilində, həm də cəmiyyətdə hörmətli fiqura çevirib. Onun baş nazir postuna gəlişi Yaponiya üçün həm gender tarixi, həm də ideoloji dönüş nöqtəsidir. Qarşıdakı aylar göstərəcək ki, Şərqin “dəmir ledi”si adlandırılan Sanae Takaiçi ölkəni böhranlardan çıxara biləcəkmi, yoxsa onun sərt siyasi kursu Yaponiyanı yeni daxili və xarici sınaqlarla üz-üzə qoyacaq. Ancaq bir həqiqət artıq danılmazdır: Yaponiya siyasəti yeni dövrün astanasındadır – bu dəfə “gündoğar” ölkə qadın liderin dövrünə şahidlik edəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Ötən həftənin bazar günü, oktyabrın 5-də Suriyanın Xalq Şurasına – parlamentinə yeni seçkilər keçirilib. Bu barədə məlumatı “Anadolu” verib.**

# Suriyada yeni parlament idarəçiliyi formalaşır



Ölkənin SANA xəbər agentliyinin məlumatına görə, Ali Seçki Komissiyasının sözçüsü Nevar Nejmeh bütün əyalətlərdə səsvermənin başa çatdığını açıqlayıb. Onun sözlərinə görə, Rakka, Süveyda və Haseke əyalətləri istisna olmaqla, 11 vilayətdə 50 dairə komissiyası tərəfindən keçirilən seçkilərdə ümumilikdə 1578 namizəd iştirak edib.

Ölkədə vətəndaş müharibəsinin yaratdığı dağıntılar, şəxsiyyəti təsdiq edən sənədlərin və ünvanların olmaması, əhalinin yarıdan çoxunun ölkə daxilində və başqa ölkələrdə didərgin həyatlı yaşaması səbəbindən seçkilər birbaşa ümumxalq səsverməsi yolu ilə deyil, təmsilçilik prinsipi əsasında seçki komissiyaları vasitəsilə keçirilib.

Suriyanın keçid parlamentinin 210 üzvü olacaq. Onlardan 70 nəfəri ölkənin müvəqqəti prezidenti Əhməd əl-Şaraa, 140 nəfəri isə hökumət tərəfindən yaradılmış seçki komissiyalarındakı seçicilər tərəfindən seçilib. Qeydə alınmış seçicilərin sayı təxminən 6000 nəfər olub.

Parlamentdə nəzərdə tutulan 210 yer uğrunda ümumilikdə 1578 namizəd mübarizə aparıb ki, onlardan 221 nəfəri qadın olub. Keçid parlamentinin 3 il fəaliyyət göstərməsi nəzərdə tutulur. Suriyanın yeni konstitusiyası qəbul edildikdən sonra isə parlamentə yeni seçkilər keçiriləcək.

Hökumət hesab edir ki, geniş ümumxalq səsverməsinin keçirilməsi “hazırda seçicilərin dəqiq qeydə alınmasındakı çətinliklərə görə mümkün deyil”. Bundan əlavə, ölkənin bəzi bölgələrində təhlükəsizliklə əlaqədar birbaşa səsvermə keçirmək risklidir. Bu ərazilərə etnik kürdlərin nəzarətində olan şimal-şərq əyalətləri, eləcə də “əvvəllər bədəvi tayfaları ilə druz dini azlığı arasında toqquşmaların baş verdiyi” cənub bölgələri daxildir.

Suriyada artıq baş tutmuş yeni seçkilər, bir çox daxili və xarici praqmatik ekspertlərin fikrincə, irəliyə doğru atılmış addımdır. Onlar hesab edirlər ki, ölkədə aparılmış uzunmüddətli müharibədən, yaranmış böyükmiqyaslı dağıntı və xaosdan sonra dövlət yenidən qurulur və hakimiyyət özünün nəzarətində olan, heç bir müxalif qurumun müdaxilə edə bilməyəcəyi bir məclis formalaşdırır. Hazırda ölkənin daxildə separatçı qruplaşmalar fəaliyyət göstərdiyinə, eləcə də keçmiş rejimin tör-töküntüləri və xarici təhdidlər hələ də davam etdiyinə görə indiki halda baş tutmuş seçki yalnız “irəliyə doğru bir addım” hesab olunmalıdır.

Bununla belə, siyasi təhlilçilər ehtiyat edirlər ki, parlament seçkilərinin məhdud dairədə keçirilməsi Suriyada separatizm çağırışlarını gücləndirə, hakimiyyətin legitimliyini şübhə altına ala və ümumiyyətlə, xalqın demokratik dəyişikliklərə ümidini sarsıda bilər. Amma bütövlükdə proses ölkədə yeni dövlət quruculuğu istiqamətində müsbət addım kimi qiymətləndirilir.

Onu da qeyd edək ki, ölkədə parlament seçkiləri ilkin olaraq sentyabrın 15-20-nə təyin edilsə də, sonradan Ali Seçki Komissiyası “logistik səbəblərə görə” onları oktyabrın əvvəlinə təxirə salıb.

***P.ƏMİRCANOV***
***XQ***

# Qlobal dünyada güc nizamı üstələyir

**Bu gün dünyamız təbəddülatlar içindədir, iri nəhrlər kimi çalxalanır. Böyük dövlətlərin iddiaları azalmır, onların açıq və gizli dəstək verdikləri vəkalət müharibələri isə səngimir. Bu zaman kəndlər, şəhərlər viran qalır, günahsız insanlar – uşaqlar, qadın və qocalar həlak olurlar. Müharibə bölgələrindən qaçqın düşən ailələrin köçü, təəssüf ki, daha da gurlaşır.**



Planetimizdə günbəgün artan zorakılıqların qarşısını alan, yaxud almaq istəyən qüvvə, hələ ki, tapılmır. Beynəlxalq institutlar iflic vəziyyətindədir, qanunlar isə işləmir. Hara gedir dünyamız?! Bu, artıq ritorik sual deyil, bəşər övladının sinəsindən qopan haraydır!

Bəli, yuxarıda söylədiyim acı həqiqətin, xaos və özbaşınalıqların sonu görünmür. Böyük güclər bir-birilərinə hələ də əzələ nümayiş etdirirlər. Təhdid leksikonu diplomatik etiketləri çoxdan iqnor edir. Kiçik dövlətlər təlaş içində özlərinə arxa, dayaq axtarmağa cəhd edirlər. Başqa çıxış yolları da yoxdur.

Görünən budur ki, Çinin timsalında təkqütblü dünyaya asi olan yeni güc ortaya çıxıb və “səmavi dövlət” köhnə qaydalara boyun əymək istəmir. Beləliklə, bipolyar (ikiqütblü) dünya nizamı uluslararası münasibətlərdə artıq reallığa çevrilib.

Lakin qlobal ikiqütblü nizamın səmərə verəcəyi də sual altındadır. Bu konstruksiya qlobal siyasətin arxitekturasının əsas konturlarını əks etdirmir. Dünyada başqa güc mərkəzləri də var ki, onlar milli maraqlarını heç kimə güzəştə getmək fikrində deyillər.

Belə bir gərgin şəraitdə türk xalqlarının Böyük Turan coğrafiyasında siyasi, hərbi, iqtisadi istiqamətində inteqrasiyası arzuolunandır. Dost Pakistanın da bu cərgədə yer alması gücümüzə güc qatır. Bütövlükdə, yeni qlobal nizam Rusiya-Ukrayna müharibəsindən nəticələrindən asılı olacaq. 3 il yarımdan çox davam edən bu ağır, üzücü savaşın isə nə vaxt bitəcəyi bəlli deyil.

Belə bir ağır, taleyüklü məqamda 7 türkdilli dövlət birləşib özlərini artan təhdidlərdən qorumaq zorundadır. Başqa çıxış yolu da yoxdur. Güc birlikdədir. Bəli, 16 il əvvəl Naxçıvanda bünövrəsi qoyulan Türk Dövlətləri Təşkilatı (TDT) çağdaş dünyanın çağırışlarına adekvat cavab verməyə hazır olmalıdır.

Ümid edək ki, hər şey yaxşı olacaq. Dünyanın müdrik, sağlam düşüncəli zəkaları bir araya gəlib Yer kürəsində müharibə və münaqişələrə son qoymağın yollarını tapa biləcəklər. Bu, nə qədər tez baş versə, bir o qədər daha yaxşıdır!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Ekspert rəyi:**



**Şahbaz ŞAMIOĞLU,**
**Bakı Slavyan Universitetinin professoru, siyasi şərhçi**

–Dünya ağrılı, təzadlı bir dönəmi, keçid dövrünü yaşayır. Obrazlı desək, işıqla şərin mübarizəsi davam edir. Azad və güvənli olmaq üçün hər bir ölkə, dövlət öz dost və tərəfdaşlarını müəyyən etməli, özünün mövcudluğunu qorumaq, əhalisinin müdafiəsini təşkil etmək üçün qətiyyətli və cəsarətli addımlar atmalıdır. Gecikmək, yanlışlığa yol vermək uduzmaq deməkdir.

Zaman bizi çoxqütblü dünyaya doğru aparır. Yeni güc mərkəzləri əsasən dil, etnik yaxınlıq, bir sıra hallarda isə dini mənsubluq amilləri üzərində formalaşır. Bir neçə il əvvəl ingilisdilli 5 ölkə (ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya və Yeni Zelandiya) AUKUS adlı ittifaq yaradıblar. İspan dilli xalqların, ərəblərin də analoji təşkilat quracaqları istisna olunmur.

TDT bu gün həm regionda, həm də qlobal səviyyədə real güc mərkəzidir. Azərbaycanın 5 il bundan əvvəlki tarixi zəfəri dünya siyasətində türk amilini çox gücləndirib. Türk xalqları birləşib güvənli, xoşbəxt həyat qurmağa hazırdırlar və buna tamamilə layiqdirlər.

Düşmənlər, əlbəttə, türkün güclü olmasını istəmirlər. Amma hazırda dünyadakı heç bir qüvvə türk birliyinin qarşısını almaq gücündə deyil. Xoşbəxtlikdən, türkçülüyün böyük mücahidləri İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd bəy Ağaoğlunun türklərinn taleyi ilə bağlı arzu və idealları reallığa çevrilir. Buna necə sevinməmək olar?!

Türk xalqları özləri ilə bərabər regiona və bütün dünyaya yeni nizamlama modeli təqdim edirlər. Onun məğzi budur ki, TDT dövlətləri bütün yaxın və uzaq qonşuları ilə dostluq və qardaşlıq şəraitində yaşamağa hazırdırlar. Bizim heç bir millətin torpağında gözümüz yoxdur, bir qarış torpağımıza da heç kəsə verən deyilik!

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

## Azərbaycan Texnologiya Universiteti

*aşağıda adı göstərilən vakant vəzifəni tutmaq üçün*

## müsabiqə elan edir

**1.** Maşın mühəndisliyi və logistika kafedrası - kafedra müdiri

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi gündən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 fevral 2018-ci il tarixli, F-100 nömrəli “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları haqqında” əmrə uyğun elan dərc olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Əlaqə telefonu: 022-268-66-22.**
**Ünvan: AZ 2011, Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 103.**

***REKTORLUQ***

## “Birkart BOKT” MMC-nin adı dəyişdirilərək “Bir Kredit BOKT” MMC olmuşdur

2018-ci ilin may ayında dövlət qeydiyyatına alınan “Birkart Bank Olmayan Kredit Təşkilatı” (BOKT) MMC-nin adı dəyişdirilmişdir. Təşkilat 2025-ci il oktyabrın 1-dən etibarən “Bir Kredit Bank Olmayan Kredit Təşkilatı” MMC adı ilə fəaliyyətini davam etdirir.

Xatırladaq ki, yeni BOKT-un hüquqi ünvanı əvvəlki kimi Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti, 153 , “Port Baku Tower 2”, nizamnamə kapitalı 99 835 580 AZN, qanuni təmsilçisi isə Tural Naib oğlu Məmmədlidir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 215 (30909) 7 oktyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Dünya çempionatında 5 medal

**Azərbaycan Karate Federasiyasından verilən məlumata görə, Yaponiyanın paytaxtı Tokioda ənənəvi karate üzrə Dünya çempionatı keçirilib. Bu yarışlarda Azərbaycan idmançıları 5 medal qazanıblar.**




Yarışda federasiyanın ənənəvi karate üslubları birliyinin sədri Əhməd Əfəndinin rəhbərliyi altında yeddi idmançı mübarizə aparıb. Gənclərdən Salman Salmanov (kata) qızıl mükafata sahib çıxıb. 15 yaşadək olanlar arasında Ayxan Şabanzadə (kata) və kumite üzrə Tofiq Əliyev (74 kq) gümüş, Mehman Eynalov (+75 kq) bürünc medal qazanıb.

Komanda kumite yarışında Fuad Əliyev, Elbrus Abdullayev, İmran Quluzadə, Mehman Eynalov bürünc mükafata yiyələnib.

### Tofiq Əliyev Dünya kubokunun qalibidir

**Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, Tamblinq üzrə Azərbaycan milli komandasının üzvü Tofiq Əliyev Dünya kuboku seriyasının qalibi olub.**



Oktyabrın 3-dən 5-dək Fransanın Antibes şəhərində keçirilən mövsümün son Dünya Kubokunda idmançımız 29.200 xal toplayaraq qızıl medal qazanıb.

Adil Hacızadə isə 26.800 xalla fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

### Paralimpiyaçımızın ikinci Avropa gümüşü

**Azərbaycanın paragüllə atıcısı Kamran Zeynalov Xorvatiyanın Osiyek şəhərində keçirilən Avropa çempionatında 50 metr məsafəyə tapançadan atəşaçma (P4) yarışında gümüş medal qazanıb. Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, 221.6 xal toplayan idmançımız yarışı fəxri kürsünün ikinci pilləsində başa vurub.**



Qeyd edək ki, paralimpiyaçımız daha əvvəl qitə çempionatında qarışıq komanda üzrə 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada (P6) Aybəniz Babayeva ilə birlikdə gümüş medal qazanıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*III MDB Oyunlarının gündəliyi*

# Ölkəmiz medalların sayına görə 2-cidir

**Azərbaycanda ilk dəfə keçirilən III MDB Oyunları uğurla davam edir. "Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncədə və ölkənin daha 6 şəhərində keçirilən yarışlar idmanın 23 növünü əhatə edir. Ötən gün Oyunların müxtəlif növləri üzrə yarışlar keçirilib, qaliblər müəyyənləşib. Sevindirici haldır ki, Azərbaycan idmançıları yarışlarda yüksək nəticələr göstərərək bayrağımızı zirvələrə qaldırırlar. Dünənki nəticələrə görə ölkəmiz yarışlarda qazandığı medal sayına görə Rusiyadan sonra ikinci pillədə qərarlaşıb. Medalların əyarına görə isə hələlik Rusiya və Belarusdan sonra 3-cü yerdəyik.**

### Avarçəkmə




**Avarçəkmə yarışlarında Azərbaycan komandası medallar qazanıb. Əlimurad Hacızadə 2009–2010-cu il təvəllüdlü idmançılar arasında 1 nəfərlik kayak qayığında 200 metr məsafədə 2-ci nəticə göstərib.**

Amil Ramazanov 2007–2008-ci il təvəllüdlü idmançılar arasında birnəfərlik kayak qayığında 500 və 200 metr məsafəlik yarışda 3-cü olub.

Daha əvvəl heyətində ikinəfərlik kayak qayığında 200 metr məsafəyə 2009–2010-cu il təvəllüdlü idmançılar arasında İvan Vorobjanski-Hüseyn Həsənov dueti final yürüşündə finiş xəttini üçüncü yerdə keçib və bürünc medala sahib olub.

### Badminton



**Azərbaycan badmintonçusu Leyla Camalzadə III MDB Oyunlarında gümüş medal qazanıb. O, qızların fərdi yarışında rusiyalı Marina Tarasova ilə üz-üzə gəlib. Rəqibinə 0:2 hesabı ilə məğlub olan idmançımız ikinci yeri tutub.**

Daha öncə badmintonçularımız 6 bürünc mükafat əldə ediblər. Bununla da Azərbaycan millisi turniri ümumilikdə 7 medalla başa vurub.

### Cüdo



**Göygöl Olimpiya İdman Kompleksində təşkil olunan III MDB Oyunları çərçivəsində cüdo üzrə qarışıq komanda yarışlarına yekun vurulub.**

Yığmamız final qarşılaşmasında 7:4 hesabı ilə Özbəkistan seçməsinə qalib gəlib. Qeyd edək ki, cüdoçularımız yarımfinalda Tacikistan yığmasını da 7:3 hesabı ilə məğlub ediblər.

### Boks



**Yevlax Olimpiya İdman Kompleksində III MDB Oyunları çərçivəsində oğlanlar arasında boks yarışlarının final görüşləri yekunlaşıb.**

Azərbaycan millisinin boksçuları – Qardaş Rəhimov (46 kiloqram), Əli Əliyev (48 kiloqram), Əli Abaslı (52 kiloqram), Şahin Aslanov (60 kiloqram) və Səfdər Məmmədzadə (+80 kiloqram) final görüşlərini yüksək səviyyədə keçirərək 1-ci yerə çıxıblar.

Əli Ruşanov (46 kiloqram), Ayxan Həsənov (50 kiloqram), Raul Heydərli (57 kiloqram), Əflatun İsmiyev (57 kiloqram), Toğrul Quliyev (60 kiloqram), Haxverdi Həsənov (63 kiloqram), Adil Zalov (70 kiloqram), Şükar Əliyev (75 kiloqram) və İsmayıl Vəliyev (80 kiloqram) bürünc medallara layiq görülüblər.

Xatırladaq ki, qadın boksçularımız turniri 1 qızıl, 5 gümüş və 4 bürünc medalla başa vurublar. Beləliklə, Azərbaycan boksçuları turnirdə 24 medal qazanıblar.

### Qılıncoynatma

**Gəncə İdman Sarayında keçirilən qılıncoynatma yarışlarında Azərbaycan idmançıları Zərifə Hüseynova və Valentina Zeynalova yarımfinalda sablya növündə rusiyalı rəqiblərinə məğlub olaraq bürünc medal qazanıblar.**

Şpaqa növündə mübarizə aparan təmsilçilərimiz Mirxətai Məmmədov və Vahab Fətullayev 1/4 finalda bir-birilərinə rəqib olublar. Bu cütün qalibi yarımfinala vəsiqə qazanaraq, ən azı bürünc medalı özü üçün təmin edəcək.

Digər təmsilçimiz Misirzadə Oruc isə yarımfinala gedən yolda Nurməhəmməd Muminovla (Özbəkistan) qarşılaşacaq.

### Güllə atıcılığı

**Gəncə İdman Sarayında keçirilən III MDB Oyunlarında güllə atıcılığı yarışlarına yekun vurulub. Təmsilçimiz Vladislav Kalmıkov 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada gümüş medal qazanıb.**

Daha əvvəl Xanna Əliyeva 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada üçüncü olmuşdu.

Xanna Əliyeva, həmçinin əvvəlki yarış günlərində aktivinə gümüş medal yazdırıb. Beləliklə, Azərbaycan təmsilçiləri III MDB Oyunlarını 3 medalla başa vurublar.

### Voleybol



**III MDB Oyunlarında voleybol yarışları davam edir. Qızlardan ibarət Azərbaycan millisi bürünc medal uğrunda oyunda Özbəkistan seçməsi ilə qarşılaşıb.**

Gəncə İdman Sarayında təşkil olunan görüş yığmamızın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da milli komandamız Oyunların bürünc medalını qazanıb.

Özbəkistan seçməsi isə yarışı dördüncü pillədə başa vurub.

### Basketbol

**III MDB Oyunlarında basketbolun 3x3 növü üzrə yarışlar davam edir. Qızların mübarizəsində Azərbaycan millisi yarımfinalda Özbəkistan yığmasına 21:10 hesabı ilə qalib gələrək finala yüksəlib.**

Finalda Rusiya komandası ilə qarşılaşan millimiz 13:19 hesabı ilə məğlub olub. Beləliklə, basketbolçularımız gümüş mükafatla kifayətləniblər. Oğlanlardan ibarət yığmamız isə yarımfinalda Belarus kollektivinə məğlub olub – 13:16. Üçüncü yer uğrunda görüşdə Özbəkistan komandasına 15:16 hesabı ilə uduzan basketbolçularımız yarışları 4-cü pillədə başa vurublar.

### Bədii gimnastika



**III MDB Oyunlarında bədii gimnastika üzrə yarışlara start verilib.**

Azərbaycan təmsilçiləri təsnifat mərhələsində yüksək nəticə göstərərək finala vəsiqə qazanıblar. Azadə Atakişiyeva top və halqa, Şəms Ağahüseynova top, Nur Sadıqova halqa, qrup hərəkətləri komandası isə 5 halqa ilə hərəkətlərin icrasında həlledici mərhələdə iştirak hüququ əldə edib.

*Y. QABİL*
*XQ*

## HAVA

### Bakıda yağmursuz, bəzi rayonlarda qısamüddətli yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 16-18, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 12-17, gündüz 23-28, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Göygöl Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinə məxsus "HMK – 102B" markalı "25T-167" dövlət nömrə nişanlı ekskavatorun "TH 008622" nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Göygöl Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinə məxsus "T-40 markalı" "10T-653" dövlət nömrə nişanlı traktorun "TH 023842" nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır .*

*✓ Mirzəzadə Əşrəf Elyar oğlunun adına verilmiş şəhidin ailə üzvü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Astara rayon Ercivan qəsəbə sakini Əliyev Elvin Mayıs oğluna məxsus MV seriyalı, 108458 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası tərəfindən Quluzadə Aysel Səlim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ailəsi ilə birlikdə tibb elmləri doktoru, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin əməkdaşı Chima Nigar Akif qızına anası

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin kollektivi Yaqub Vəliyevə həyat yoldaşı

**HƏQİQƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin əməkdaşı Zeynalabdin Ələkbərova atası

**OQTAY ƏLƏKBƏRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1948
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00